RƏSMİ DÖVLƏT QƏZETİ



# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 84 (8963) ŞƏNBƏ, 23 aprel 2022-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



## Müzəffər Komandanın Şuşadan - Zəfər qurultayından dünyaya mesajı:

# QARABAĞ AZƏRBAYCANDIR!

**İlham ƏLİYEV:**

- Biz bu gün azad Qarabağda, azad Şuşada Dünya Azərbaycanlılarının Qurultayını keçiririk. Bu qurultayın adı Zəfər qurultayıdır və bu, təbiidir. Çünki tarixi Zəfərdən sonra ilk dəfədir ki, dünya azərbaycanlıları toplaşır, qurultay keçirir və ümumiyyətlə, Zəfər adı xalqımıza çox yaraşır.
- Bundan sonra Azərbaycan xalqı müzəffər xalq kimi əbədi yaşayacaq, bundan sonra bizim dövlətimiz qalib dövlət kimi yaşayacaq. Bu, böyük xoşbəxtlikdir - hamımız üçün, Azərbaycanda yaşayanlar, Azərbaycan vətəndaşları üçün, xaricdə yaşayan azərbaycanlılar üçün.
- Bu tarixi missiyanı həyata keçirən bizim qəhrəman övladlarımız tarix qarşısında, xalq qarşısında, Vətən qarşısında misilsiz xidmətlər göstərmişlər. Müstəqillik dövründə yetişən gənclər, vətənpərvərlik ruhunda yetişən gənclər bu tarixi hadisəni, tarixi müjdəni Azərbaycan xalqına bəxş etmişlər.
- Qarabağ münaqişəsinin həll edilməsi Prezident kimi mənim üçün başlıca vəzifə idi. Vəzifəyə seçildiyim ilk gündən bu günə qədər bu məsələnin həlli və postmünaqişə dövrünün Azərbaycanın xeyrinə inkişaf etməsi mənim üçün başlıca vəzifədir və bütün güclər səfərbər edilmişdir. Biz hamımız - həm Azərbaycanda yaşayan Azərbaycan vətəndaşları, dünya azərbaycanlıları bir nöqtəyə vururduq, bir hədəfə çatmaq üçün çalışırdıq.
- Biz təkcə Ermənistanla müharibə aparmamışıq. Biz təkcə dünya erməniliyi ilə müharibə aparmamışıq, biz Ermənistanın himayədarları ilə müharibə aparmışıq və bu müharibədə Qələbə qazanmışıq. Ona görə bu Qələbənin tarixi əhəmiyyəti daha böyükdür. Biz sübut etmişik ki, ölümə getməyə hazırıq, öldü var, döndü yoxdur.
- İkinci Qarabağ müharibəsində həlak olanların böyük əksəriyyəti gənc nəslin nümayəndələri idi. Onların heç biri Qarabağda olmamışdı, bu diyarı görməmişdilər, amma onların qəlbində yaşayan milli ruh, ədalət və Vətən sevgisi onları ölümə aparırdı.
- Münaqişəyə son qoyan Azərbaycan əsgəri oldu, qəhrəman Azərbaycan əsgəri. Müharibənin son hadisələri məhz burada - Şuşada baş vermişdir. Sıldırım qayalara dırmaşaraq bizim qəhrəman əsgərlərimiz, zabitlərimiz demək olar ki, əlbəyaxa döyüşlərdə burada topla, tankla, artilleriya ilə silahlanmış Ermənistan ordusuna qalib gəldilər.
- Biz müharibəni də ləyaqətlə aparmışıq, postmüharibə dövründə də özümüzü ləyaqətlə aparırıq.
- Çox istəyirik ki, ikinci, üçüncü nəsil azərbaycanlılar öz mədəniyyətinə bağlı olsunlar. Əlbəttə, bu o qədər də asan məsələ deyil. Burada onlar ilk növbədə Azərbaycan dilini bilməlidirlər.
- Bizim xaricdə yaşayan gənc azərbaycanlılarımız həm İkinci Qarabağ müharibəsinin tarixini yaxşı bilməlidir, həm də bu həqiqətləri öz dostlarına çatdırmalıdırlar. Xaricdə yaşayan azərbaycanlılar böyük qüvvədir.
- Bu gün alnımız açıqdır, bu gün üzümüz gülür, bu gün başımız dikdir və həmişə belə olacaq. Mən tam əminəm ki, bundan sonra Azərbaycan xalqı müzəffər xalq kimi əbədi yaşayacaq, Azərbaycan dövləti qalib dövlət kimi əbədi yaşayacaq. Biz öz torpağımızdayıq, bu torpaqda möhkəm dayanmışıq və heç kim heç vaxt bu torpaqlardan bizi tərpədə bilməz.
- Yaşasın Şuşa! Yaşasın Qarabağ!
Hamımız birlikdə: "Qarabağ Azərbaycandır!"




## Dünya Azərbaycanlılarının ZƏFƏR QURULTAYI




# Müzəffər Komandanın Şuşadan dünyaya mesajı:

Aprelin 22-də Şuşa şəhərində Dünya Azərbaycanlılarının V Qurultayı - Zəfər qurultayı işə başlayıb. AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev qurultayda geniş nitq söyləyib.



## Prezident İlham Əliyevin nitqi

- Hörmətli qurultay iştirakçıları, sizi səmimiyyətlə salamlayıram, Şuşaya, Qarabağa xoş gəlmisiniz!

Xahiş edirəm ki, ilk növbədə Vətən uğrunda canından keçmiş, qəhrəmancasına həlak olmuş əziz şəhidlərimizin xatirəsini bir dəqiqəlik sükutla yad edək.

Allah rəhmət eləsin!

Biz şəhidlərimizin qanını döyüş meydanında aldıq, qisasımızı düşməndən döyüş meydanında aldıq. Onların qanı yerdə qalmadı, bu, onların yaxınları üçün, qohumları üçün, bütün Azərbaycan xalqı üçün təsəlli verir.

Biz bu gün azad Qarabağda, azad Şuşada Dünya Azərbaycanlılarının Qurultayını keçiririk. Bu qurultayın adı Zəfər qurultayıdır və bu təbiidir. Çünki tarixi Zəfərdən sonra ilk dəfədir ki, dünya azərbaycanlıları toplaşır, qurultay keçirir və ümumiyyətlə, Zəfər adı xalqımıza çox yaraşır. Siz buraya Zəfər yolu ilə gəlmisiniz, qurultayın adı Zəfər qurultayıdır. Hazırda ölkəmizin müxtəlif yerlərində, ilk növbədə azad edilmiş ərazilərdə Zəfər muzeyləri inşa edilir.

Bundan sonra Azərbaycan xalqı müzəffər xalq kimi əbədi yaşayacaq, bundan sonra bizim dövlətimiz qalib dövlət kimi yaşayacaq. Bu, böyük xoşbəxtlikdir - hamımız üçün, Azərbaycanda yaşayanlar, Azərbaycan vətəndaşları üçün, xaricdə yaşayan azərbaycanlılar üçün. Bu tarixi missiyanı həyata keçirən bizim qəhrəman övladlarımız tarix qarşısında, xalq qarşısında, Vətən qarşısında misilsiz xidmətlər göstərmişlər. Müstəqillik dövründə yetişən gənclər, vətənpərvərlik ruhunda yetişən gənclər bu tarixi hadisəni, tarixi müjdəni Azərbaycan xalqına bəxş etmişlər.

Buraya gələrkən 2001-ci ildə keçirilmiş ilk qurultayı xatırlayırdım. Bildiyiniz kimi, Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə ilk qurultay 2001-ci ildə keçirilmişdir. Ulu Öndər dərin məzmunlu çıxışında, eyni zamanda, təbii ki, Qarabağ problemi ilə bağlı öz fikirlərini bildirmişdir və demişdir ki, Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcək, işğal altında olan torpaqlar işğaldan azad ediləcək və Azərbaycan xalqı öz dədə-baba torpaqlarına qayıdacaqdır. Biz - Ulu Öndərin davamçıları bu sözləri gerçəyə çevirdik və V Qurultaya hazırlıq işləri başlayarkən mənə məruzə edildi və mən dedim ki, bu qurultay mütləq Şuşada keçirilməlidir. Əminəm ki, qurultay iştirakçıları da buna çox müsbət yanaşıblar və böyük həvəslə Şuşaya, qədim Şuşaya, bizim mədəniyyətimizin paytaxtı olan Şuşaya gəlmişlər. Şuşa da öz doğmalarını bax belə günəşli hava ilə qarşılayır və bu bir daha onu göstərir ki, bura bizim tarixi torpağımızdır. Hətta təbiət, günəş də bizimlə həmrəydir.

Qarabağ münaqişəsinin həll edilməsi Prezident kimi mənim üçün başlıca vəzifə idi. Vəzifəyə seçildiyim ilk gündən bu günə qədər bu məsələnin həlli və postmünaqişə dövrünün Azərbaycanın xeyrinə inkişaf etməsi mənim üçün başlıca vəzifədir və bütün güclər səfərbər edilmişdir. Biz hamımız - həm Azərbaycanda yaşayan Azərbaycan vətəndaşları, dünya azərbaycanlıları bir nöqtəyə vururduq, bir hədəfə çatmaq üçün çalışırdıq. Mən deyirdim ki, biz hər birimiz hər gün bu müqəddəs günü yaxınlaşdırmalıyıq, öz əməyimizlə, işimizlə, hərə öz yerində və torpaqlarımızın işğaldan azad olunmasından daha vacib və ali vəzifə yox idi. Məhz buna görə ordu quruculuğu sürətlə aparılmışdır, buna görə Azərbaycan müasir orduya malik olmuşdur, buna görə gənc nəsil vətənpərvərlik, düşmənə nifrət, Vətənə sədaqət ruhunda tərbiyə olunurdu, buna görə iqtisadi islahatlar aparılmışdır. Bizim bütün işlərimizin, apardığımız siyasətin, atdığımız addımların fövqündə bu müqəddəs günü yaxınlaşdırmaq və bu günü görmək amalı dururdu. Biz buna öz gücümüzlə nail olduq. Azərbaycan xalqı 30 il davam edən mənasız danışıqlar əvəzinə öz gücünü ortaya qoydu, ədaləti bərpa etdi, beynəlxalq hüququ bərpa etdi və bütün dünyaya sübut etdi ki, biz böyük xalqıq və heç vaxt bu xalq, Azərbaycan xalqı işğalla barışmaq fikrində deyildi.

Mən dəfələrlə, o cümlədən I Qurultaydan sonra keçirilmiş dünya azərbaycanlılarının qurultaylarında çıxış edərkən deyirdim ki, biz heç vaxt bu işğalla barışmayacağıq, nəyin bahasına olursa-olsun öz dədə-baba torpaqlarımızı işğaldan azad edəcəyik. Ancaq, həqiqətən, mən istəyirdim ki, bu məsələ sülh yolu ilə həll olunsun, müharibə yolu ilə yox. Çünki hesab edirdim ki, sülh yolu ilə bu məsələnin həlli mümkündür. Beynəlxalq hüququn norma və prinsipləri ölkəmizin mövqeyini müdafiə edirdi. Dünyanın aparıcı beynəlxalq təşkilatları Azərbaycanın mövqeyini dəstəkləyən və haqq-ədalətə söykənən qərar və qətnamələr qəbul etmişlər. Ermənistanın işğalçılıq siyasəti dünya miqyasında artıq heç kimə sirr deyildi. Eyni zamanda Azərbaycanla Ermənistan arasındakı qüvvələr nisbəti bizim xeyrimizə böyük dərəcədə dəyişdiriləndən sonra hesab edirdim ki, Ermənistan rəhbərliyi də, nəhayət, dərk edəcək ki, bizimlə rəqabət aparmaq üçün onların heç bir resursu yoxdur - nə siyasi resursu, nə iqtisadi, nə də insan resursu yoxdur. Hesab edirdim ki, Ermənistanda, nəhayət, anlayacaqlar ki, XXI əsrdə qonşu dövlətin torpağının böyük hissəsini işğal altında saxlamaq mümkün deyil. Ancaq əfsuslar olsun ki, həm Ermənistan rəhbərliyi, eyni zamanda beynəlxalq ictimaiyyət, beynəlxalq təşkilatlar fərqli fikirdə idi və uzunsürən - 30 ilə yaxın davam edən danışıqlar, sadəcə olaraq, bu işğalı əbədiləşdirmək, Ermənistanın işğalçılıq siyasətini pərdələmək və bizi bu acı vəziyyətlə barışdırmaq məqsədi güdürdü. Əlbəttə, biz heç vaxt buna razı ola bilməzdik və Vətən müharibəsindəki göstərdiyimiz iradə, qətiyyət, döyüş meydanındakı qəhrəmanlıq bunu bir daha göstərdi. Biz təkcə Ermənistanla müharibə aparmamışıq. Biz təkcə dünya erməniliyi ilə müharibə aparmamışıq, biz Ermənistanın himayədarları ilə müharibə aparmışıq və bu müharibədə Qələbə qazanmışıq. Ona görə bu Qələbənin tarixi əhəmiyyəti daha böyükdür. Biz sübut etmişik ki, ölümə getməyə hazırıq, öldü var, döndü yoxdur. Müstəqillik dövründə vətənpərvərlik ruhunda yetişən gənclərimiz ölümə gedirdilər, bilərəkdən ölümə gedirdilər Vətən uğrunda.

İkinci Qarabağ müharibəsində həlak olanların böyük əksəriyyəti gənc nəslin nümayəndələri idi. Onların heç biri Qarabağda olmamışdı, bu diyarı görməmişdilər, amma onların qəlbində yaşayan milli ruh, ədalət və Vətən sevgisi onları ölümə aparırdı. Biz bütün dünyaya sübut etdik ki, XXI əsrdə necə müharibə aparmaq lazımdır, ləyaqətlə müharibə aparmaq lazımdır, müasir üsullarla müharibə aparmaq lazımdır və cəmi 44 gün ərzində Ermənistan ordusu tamamilə məhv edilmişdir. Ermənistanın məhv edilmiş silah-sursatının, texnikasının və qənimət götürülmüş texnikasının qiyməti ən aşağı 4-5 milyard dollar təşkil edir. O başqa məsələdir ki, kasıb ölkə bu pulu haradan əldə edib. Ancaq demək olar ki, Ermənistan ordusu yoxdur. Ermənistan ordusunda müharibə zamanı kütləvi fərarilik hökm sürürdü, onların özlərinin etirafına görə, 10 min fərari olmuşdur Ermənistan ordusunda. Azərbaycan Ordusunda bir dənə də fərari olmamışdır. Budur xalqımızın böyüklüyü, xalqımızın qələbəyə inamı, xalq-iqtidar birliyi və bütün dünya azərbaycanlılarının birliyi. Mən bilirəm ki, siz və sizin kimi xaricdə yaşayan milyonlarla azərbaycanlı hərə öz ölkəsində həm müharibənin gedişatını yaxından izləyirdiniz, eyni zamanda öz çıxışlarınızda, öz şərhlərinizdə, sosial şəbəkələrdə və digər imkanlardan istifadə edərək Azərbaycanın haqq səsini, haqq işini yaşadığınız ölkələrin ictimaiyyətinə çatdırırdınız. Buna bu gün də ehtiyac var. Bu gün də ehtiyac var, çünki müharibə başa çatsa da, bizə qarşı olan ərazi iddiaları hələ ki başa çatmayıb. Mən əminəm ki, bu da başa çatacaq. Əminəm ki, biz postmüharibə dövründə göstərdiyimiz səylər nəticəsində və bundan sonra göstərəcəyimiz səylər nəticəsində Ermənistanın və dünya erməniliyinin Azərbaycana qarşı ərazi iddialarını da aradan götürəcəyik. Ancaq bu gün hələ ki bu iddialar var və biz buna hazır olmalıyıq. Biz müharibə dövründə - cəmi 44 gün ərzində 300-dən çox şəhər və kəndi döyüş meydanında azad etmişik. Məhz buna görə Ermənistan məcbur olub və noyabrın 10-da – noyabrın 9-dan 10-na keçən gecə kapitulyasiya aktına imza atdı. Məhz biz Şuşanı noyabrın 8-də azad edəndən sonra Ermənistan rəhbərliyi, nəhayət, anladı ki, müharibəni davam etdirmək onlara daha baha başa gələcək. Halbuki əgər onlar müharibənin ilk günlərində dediyim sözlərimə əməl etsəydilər və bizə işğal edilmiş torpaqlardan onların çıxarılmasının tarixini, cədvəlini versəydilər, müharibə daha tez dayana bilərdi. Mən müharibə dövründə dəfələrlə Azərbaycan xalqına müraciət edərkən deyirdim ki, Ermənistan rəhbərliyi bizə tarix versin, nə vaxt torpaqlarımızdan çıxır və həmin an biz müharibəni dayandırmağa hazırıq. Belə də oldu. Ancaq məcburən bunu etdilər. Qırx dörd gün ərzində tamamilə məhv edilmiş Ermənistan ordusu və Ermənistan dövləti faktiki olaraq uçurum kənarında idi. Məcburən noyabrın 10-da kapitulyasiya aktı imzaladı və biz bir güllə atmadan Ağdam, Kəlbəcər və Laçın rayonlarını geri qaytardıq. Beləliklə, biz müharibəni hərbi-siyasi yollarla həll etdik. Yenə də deyirəm, təkbaşına, heç bir vasitəçi olmadan.

Vasitəçilərə gəldikdə, əfsuslar olsun ki, bu gün də, hələ də Minsk qrupu haqqında Ermənistanda yüksəkvəzifəli şəxslər sözlər deyirlər. Hesab edirəm ki, bu əbəsdir, bunun heç bir mənası yoxdur. Minsk qrupu faktiki olaraq 2019-cu ildə iflic olmuşdur. 1992-ci ildə bu məsələni həll etmək üçün mandat almış bu qrup faktiki olaraq heç bir nəticə əldə etməmişdir. İndi bu qrupun tarixçəsinə və hərəkətlərinə, verdiyi təkliflərə nəzər yetirərkən bir daha görmək olar ki, bu qrup məsələni həll etmək üçün yaranmamışdı. Sadəcə olaraq, biz o vaxt bir qədər sadəlövh idik. Bu qrup məsələni həll etmək üçün yox, işğalı əbədiləşdirmək üçün yaradılmışdı. Minsk qrupunun həmsədr ölkələrində erməni lobbi qrupları çox təsirlidir. Məhz buna görə 28 il bu qrupun heç bir nəticəsi olmamışdır.

2019-cu ildə isə qrupun fəaliyyəti, demək olar ki, dayanmışdır. Bunun da səbəbi Ermənistanın yeni rəhbərliyinin çox qəribə davranışı olmuşdur. Çünki Ermənistanın yeni rəhbərliyi 2018-ci ildə hakimiyyətə gələndə həm Minsk qrupunda, həm, - onu da açıq deməliyəm, - bizdə də bəzi ümidlər var idi ki, indi kriminal xunta rejim artıq devrildi və hakimiyyətə gələn yeni nəsil siyasətçilər reallığı dərk edəcəklər, anlayacaqlar ki, Azərbaycanla mübarizə aparmaq, müharibə aparmaq onların iqtidarında deyil. Demək olar ki, bir il ərzində aparılan fəal danışıqlar bu fikri daha da gücləndirirdi. Ancaq 2019-cu ildə Ermənistan rəhbərliyi tam fərqli mövqe sərgiləməyə başlamışdır. Ermənistan rəhbərliyi tərəfindən səsləndirilən cəfəng fikirlər faktiki olaraq danışıqlar prosesinə son qoymuşdur. "Qarabağ Ermənistandır və nöqtə" deməklə, danışıqlar prosesinə son qoyuldu və bu açıqlamadan sonra mənimlə görüşə gələn Minsk qrupu, demək olar ki, çox qeyri-müəyyən vəziyyətdə idi. Çünki bu bəyanatdan sonra hər hansı bir danışıqların aparılması qeyri-mümkündür. Çünki danışıqların mahiyyəti ondan ibarət idi ki, işğal altında olan torpaqlar azad olunacaq.

Faktiki olaraq Minsk qrupu ondan sonra hətta görüntü naminə hər hansı bir fəaliyyət göstərə bilmədi. Ancaq Ermənistan rəhbərliyi daha uzağa getdi. Ondan sonra bizə qarşı açıq təhdidlər dilə gətirildi. Yeni torpaqlar uğrunda yeni müharibə ilə bizi hədələdilər. Amma yenə də beynəlxalq ictimaiyyət buna susdu. Bu, açıq təhdiddir. Özü də işğalçı dövlət tərəfindən işğala məruz qalan dövlətə qarşı növbəti təhdiddir. Yəni bizi növbəti işğalla hədələyirdilər. Ancaq nə BMT, nə ATƏT, nə başqa təşkilatlar, nə Minsk qrupu heç bir açıqlama verməmişdi. Əlbəttə ki, işğalçı bundan ruhlanaraq daha da azğınlaşmışdı və faktiki olaraq Ermənistan tərəfindən onilliklər ərzində uydurduğu mifologiyaya inanmağa başlamışdı. Biz bu mifologiyanı darmadağın etdik, cəmi 44 gün ərzində düşməni torpağımızdan qovduq, Ermənistan bizim qabağımızda diz çökdü, başını əydi, kapitulyasiya aktına imza atmağa məcbur oldu, imdad dilədi və bu gün də həmin vəziyyətdədir. Bu gün də yer qalmayıb qapısını döyməsin ki, amandır Azərbaycan bizi hədələyir, Azərbaycan bizi burada boğmaq istəyir. Biz öz vəzifəmizi icra etmişik. Bizim başqa dövlətlərin torpağında gözümüz yoxdur, heç vaxt olmayıb. Ancaq biz öz torpağımızı heç kimə verəsi deyilik və İkinci Qarabağ müharibəsi bunu bir daha sübut etdi.

Yəni münaqişəyə son qoyan Azərbaycan əsgəri oldu, qəhrəman Azərbaycan əsgəri. Müharibənin son hadisələri məhz burada - Şuşada baş vermişdir. Sıldırım qayalara dırmaşaraq bizim qəhrəman əsgərlərimiz, zabitlərimiz, demək olar ki, əlbəyaxa döyüşlərdə burada topla, tankla, artilleriya ilə silahlanmış Ermənistan ordusuna qalib gəldilər. Şuşa Zəfərindən sonra faktiki olaraq Ermənistan cəmi bir gün dirəniş, - əgər buna dirəniş demək mümkündürsə, - göstərməyə cəhd etmişdir və noyabrın 9-da artıq kapitulyasiya aktını imzalamağa hazır olduğunu bildirmişdir.

Biz müharibəni də ləyaqətlə aparmışıq, postmüharibə dövründə də özümüzü ləyaqətlə aparırıq. Artıq postmünaqişə dövrünün nəticələri haqqında danışmaq olar. Çünki bir daha demək istəyirəm, bizim Qələbəmiz, özü də 44 gün ərzində əldə etdiyimiz Qələbə bir çoxları üçün gözlənilməz idi. Hərbi ekspertlər, siyasətçilər, bu məsələ ilə məşğul olan müxtəlif təşkilatların nümayəndələri bizə həmişə deyirdilər ki, bu müharibəni Azərbaycan uda bilməz. Çünki Ermənistan bu 30 il ərzində işğal edilmiş torpaqlarda istehkamlar qurmuşdur, müdafiə xətləri qurmuşdur. Eyni zamanda Qarabağın təbii relyefi elədir ki, torpaqları azad etmək çətin olacaq. Çoxlu itkilər olacaq, ancaq nəticədə bütün bu fərziyyələr, demək olar ki, etibarsız oldu.

Onlar bir məsələni diqqətdən kənarda qoymuşdular - Azərbaycan xalqının əzmini, Azərbaycan əsgərinin gücünü, Vətən sevgisini. Bəli, düzdür, bəzi yerlərdə beş, bəzi yerlərdə altı müdafiə xətti qurulmuşdu, istehkamlar qurulmuşdu, tikanlı məftillər, dəmir parçaları və sair. Bölgənin coğrafiyası bizim üçün çox əlverişsiz idi. Bütün bunlara baxmayaraq, az itki verməklə, Ermənistan ordusundan iki-üç dəfə az itki verməklə biz tarixi missiyamızı yerinə yetirdik və son nöqtəni burada - tarixi şəhərimizdə qoyduq.




Dünya Azərbaycanlılarının
ZƏFƏR QURULTAYI




# QARABAĞ AZƏRBAYCANDIR!





Bu gün Şuşaya gələn hər bir insan, hər bir azərbaycanlı görür ki, Şuşa Azərbaycan şəhəridir. Əgər belə olmasaydı, Şuşa belə ağır vəziyyətdə olmazdı. Siz, indi buraya gələn qonaqlar müharibədən ilyarım keçəndən sonra gəlirsiniz. Əgər müharibədən dərhal sonra gəlsəydiniz, görərdiniz ki, nə vəziyyətdədir. Hələ də dağılmış vəziyyətdədir. Ancaq Şuşa bərpa olunur, Şuşa dirçəlir və Şuşanın dirçəlməsi ilə bağlı gedən işlər çox genişmiqyaslıdır və bu haqda sizə məlumat veriləcək.

Əgər bu şəhər ermənilərə mənsub olsaydı, bu günə qoyardılarmı bunu? Burada cəmi 1800 adam yaşayırdı. Özü də onların 90 faizi hərbçilər və onların ailə üzvləri idi. Burada bir dənə də salamat tarixi bina qalmamışdır. Ermənilər 17 bulağın 17-sini də qurutmuşdular, məscidlərimizi təhqir etmişdilər, sökmüşdülər, saraylarımızı sökmüşdülər. Yəni bir dənə də burada yeni bir bina tikilməmişdi. Sadəcə olaraq, bizim təbii sərvətlərimizi istismar ediblər və təkcə Şuşa yox, bütün digər şəhərlər də eyni vəziyyətdədir. Tamamilə dağılmış Ağdamı xarici ekspertlər, jurnalistlər Xirosimaya bənzədirlər. Bəli, Xirosima atom bombası nəticəsində məhv edildi. Ağdam və digər şəhərlər erməni vandallığı nəticəsində məhv edildi. Birinci Qarabağ müharibəsi dayanandan sonra 30 il ərzində binaları daş-daş söküb, daşıyıb satmışdılar və beynəlxalq təşkilatların hesabatlarında bu var. Qəbirləri qazırdılar, ölülərin qızıl dişlərini çıxarırdılar. Yəni Ermənistan və erməni xalqı bu vəhşiliyə görə dünya miqyasında rəzil oldu. Ona görə gələn hər qonaq, azad edilmiş torpaqlara gedən hər qonaq erməni vəhşiliyini görür və görməlidir. Görməlidir ki, biz təkcə işğalçını yox, faşistləri məhv etdik. Onların Birinci Qarabağ müharibəsində, İkinci Qarabağ müharibəsində, iki müharibə arasındakı dövr ərzində bütün əməlləri faşist əməlləridir. Bizim dinc şəhərlərimizi müharibə dövründə ballistik raketlərlə atəşə tutmaq, insanları məhv etmək faşizm deyil, bəs nədir? "Toçka-U", "SCUD", "İskəndər-M" raketi ilə Şuşa vurulmuşdu. Qar əriyəndən sonra Şuşada, şəhərin mərkəzində "İskəndər-M" raketinin qalıqları aşkarlanmışdır və bir daha biz sübut etdik ki, Ermənistan bu ölümcül silahdan, qadağan edilmiş silahdan və onlarda heç cür olmayan silahdan istifadə edib. Buna inanmayanlar gəlib Hərbi Qənimətlər Parkında "İskəndər-M" raketinin qalıqlarını görə bilərlər.

Biz faşizmi məhv etdik. Biz Cənubi Qafqazı faşizmdən xilas etdik. Ancaq hələ də faşizmin təzahürləri baş qaldırır, hələ də Ermənistanda bəzi dairələr və dünya erməniliyi, xarici ölkələrdə yaşayan ermənilər bizi hədələməyə çalışırlar. Amma İkinci Qarabağ müharibəsinin tarixçəsi onların yadından çıxmamalıdır. Biz gücümüzü artırmışıq. İlyarım ərzində ordu quruculuğu sahəsində çox böyük işlər görüldü. Bu işlərin bir hissəsi ictimaiyyətə təqdim edildi, bir hissəsi, əlbəttə ki, təqdim edilə bilməz. Ancaq hər kəs bilməlidir, bu gün Azərbaycan Ordusu istənilən vəzifəni icra edə bilər. Həm döyüş qabiliyyəti, həm milli ruh, həm mənəvi ruh, silah-sursat, texnika, yeni döyüşkən hərbi birləşmələrin yaradılması - bütün bunları biz məhz ona görə edirik ki, erməni faşizminin hələ də təzahürləri var və biz hər an erməni faşizmini,- əgər bir daha baş qaldırsa, - əzməyə hazır olmalıyıq və hazırıq. Ermənistan bunu yaxşı bilir, yaxşı başa düşür və heç vaxt bunu unutmamalıdır.

Biz bundan sonra ancaq və ancaq güclənəcəyik və postmüharibə dövrü bunu bir daha göstərdi. Həm ərazilərin bərpası, həm beynəlxalq müstəvidə addımlarımız bizim gücümüzü göstərdi. Çünki postmüharibə dövrü çox həssas bir dövrdür və artıq ilyarım keçəndən sonra tam əminliklə demək olar ki, biz bu çətin sınaqdan da şərəflə çıxdıq. Aparıcı beynəlxalq təşkilatlar postmüharibə reallıqlarını qəbul etdilər. BMT, hansı ki, Şuşada beynəlxalq tədbir keçirmişdir. Avropa İttifaqı hazırda Azərbaycan-Ermənistan arasında normallaşma prosesində çox fəal iştirak edir. ATƏT, hansı ki, çox yaxşı başa düşür Minsk qrupu artıq yoxdur. Düzdür, mən bir neçə ay bundan əvvəl, hələ Rusiya-Ukrayna müharibəsindən əvvəl demişdim, məndən soruşmuşdular ki, Minsk qrupu nə ilə məşğul olacaq? Dedim ki, 2022-ci ildə onların yaranmasının 30 illik yubileyidir. Yubiley keçirəcəklər, sonra pensiyaya gedəcəklər. Amma Rusiya-Ukrayna müharibəsi başlayandan sonra heç yubiley keçirməyə bunlarda fürsət olmadı.

Digər beynəlxalq təşkilatlar - məsələn, sədrlik etdiyimiz Qoşulmama Hərəkatı, İslam Əməkdaşlıq Təşkilatı, bütün aparıcı beynəlxalq təşkilatlar bizim mövqeyimizi dəstəkləmişlər və postmünaqişə reallıqlarını qəbul etmişlər. İndi qonşu ölkələr 3+3 formatda beş ölkə hazırda əməkdaşlıq formatı yaradıbdır. Qonşu ölkələrin hamısı postmünaqişə reallıqlarını qəbul etmişlər. Böyük dövlətlər - Amerika Birləşmiş Ştatları, Böyük Britaniya, Amerika Prezidenti, Böyük Britaniyanın Baş naziri mənə göndərdikləri məktublarda bu, açıq-aydın göstərilir. Yəni biz artıq bu mərhələni keçdik və bundan sonra Azərbaycan-Ermənistan əlaqələrinin normallaşması məsələsi gündəlikdədir. Yenə də bu gündəliyi biz ortaya qoyduq. Bütün ağrılı məqamlara baxmayaraq, işğala baxmayaraq, edilmiş bu vəhşiliklərə baxmayaraq, bölgənin gələcəyi naminə biz hesab edirik ki, buna ehtiyac var və biz sülh gündəliyi təqdim etdik və Ermənistandan hər hansı bir cavab gəlmədi. Beynəlxalq təşkilatlar da demək olar ki, buna o qədər də maraq göstərmədilər. Ona görə biz konkret olaraq beş prinsipdən ibarət təklif irəli sürdük və Ermənistan bu beş prinsipi qəbul etdi. Beləliklə, Ermənistan rəhbərliyi rəsmən bəyan etdi ki, Azərbaycanın ərazi bütövlüyünü tanıyır və Azərbaycana hər hansı bir ərazi iddiası yoxdur və gələcəkdə də olmayacaq. Hesab edirəm ki, bu, postmünaqişə dövrü üçün vacib məqamdır və biz məhz bu beş prinsip əsasında danışıqları aparmaq fikrindəyik.

Hazırda iki ölkənin xarici işlər nazirləri, nazirlikləri işçi qrupları formalaşdırır və hesab edirəm ki, yaxın gələcəkdə konkret danışıqlara başlamaq lazımdır və danışıqları çox uzatmaq lazım deyil. Çünki məhz beş prinsip əsasında sülh müqaviləsi imzalanacaq. Ona görə müqavilənin mətni tezliklə hazırlana bilər, imzalana bilər və beləliklə, Ermənistanla Azərbaycan arasında əlaqələr, o cümlədən diplomatik əlaqələr yaradıla bilər. Bu təklifi irəli sürməklə bir daha biz xoş niyyətimizi göstəririk və yenə də deyirəm, uzaqgörənlik göstəririk. Ermənistanda hərdənbir baş qaldıran revanşist qüvvələr bilməlidirlər ki, bu, Ermənistan üçün yeganə çıxış yoludur və bəlkə də son şansdır. Əgər bundan imtina etsələr, onda biz də Ermənistanın ərazi bütövlüyünü tanımayacağıq, bunu rəsmən bəyan edəcəyik. İkinci Qarabağ müharibəsinin nəticələrini nəzərə alaraq Ermənistan tərəfi yaxşı başa düşməlidir ki, bu addım nəyə gətirib çıxaracaq.

Amma yenə də dediyim bütün bu müsbət məqamlara baxmayaraq, hər birimiz - həm Azərbaycan hökuməti, həm səfirliklər, diaspor təşkilatları, bütün fəallar yeni reallıqları dünya ictimaiyyətinə çatdırmalıdırlar. Sizin - xaricdə yaşayan azərbaycanlıların bu sahədə daha böyük imkanlarınız var. Son illər ərzində bizim diaspor təşkilatlarımız çox fəallaşıb, həm İkinci Qarabağ müharibəsində biz bunu gördük, həm də ondan əvvəlki dövrdə. Hətta erməni radikal qüvvələrinin fiziki hücumlarına baxmayaraq, - onlar yenə də say çoxluğundan istifadə edib bizim fəallara qarşı cinayət törətmişlər, - azərbaycanlılar öz sözünü demişdilər, bu gün də bunu etmək lazımdır.

Yəni yaşadığınız ölkələrin ictimaiyyətini, əgər belə demək mümkündürsə, maarifləndirmək lazımdır - həm Azərbaycan reallıqları haqqında, postmünaqişə dövrü haqqında və Azərbaycan tarixi haqqında. Hesab edirəm ki, bu çox vacibdir. Çünki tarixi amillər həmişə istənilən münaqişənin siyasi və digər yollarla həll edilməsi üçün çox vacibdir. Tarix də göz qabağındadır. Uzaq tarixə getməyə ehtiyac yoxdur. Sadəcə olaraq, XIX əsrdə imzalanmış müqavilələri beynəlxalq ictimaiyyətə çatdırmaq kifayətdir. Kürəkçay, Gülüstan, Türkmənçay sülh müqavilələri. Orada erməni əhalisindən söhbət getmir. Kürəkçay müqaviləsini İbrahimxəlil xan Şuşalı və Qarabağlı, - titulu belə də gedib, - imzalayıb. XIX əsrin bu tarixi hadisələrindən sonra Qarabağa ermənilərin kütləvi köçü başlamışdır. Bu da heç kimə sirr deyil və artıq dünya ictimaiyyəti, ekspertlər bunu bilir, yaxşı olar ki, geniş ictimaiyyət də bunu bilsin. Azərbaycan xalqına qarşı edilən haqsızlıqlar haqqında biz beynəlxalq ictimaiyyəti mütləq məlumatlandırmalıyıq. XIX əsrdə, XX əsrin əvvəllərində ermənilərin Azərbaycan torpaqlarına köçürülməsi. 1920-ci ildə sovet hakimiyyəti tərəfindən Zəngəzurun Azərbaycandan qoparılıb Ermənistana verilməsi, bu da tarixi faktdır. Ondan iki il əvvəl Azərbaycan Xalq Cümhuriyyətinin İrəvanı Ermənistana bağışlaması, bu da sənədlərlə təsdiq olunan faktdır. 1921-ci ildə sovet hakimiyyəti tərəfindən bizə qarşı növbəti təxribat hazırlanırdı. Zəngəzur 1920-ci ilin noyabrında bizdən qoparıldı, bir il sonra Qafqaz Bürosu Qarabağı da bizdən qoparmaq istəyirdi. Ancaq alınmadı və qərar qəbul olundu ki, Dağlıq Qarabağ Azərbaycanın tərkibində saxlanılsın. Amma buna baxmayaraq, ilyarım keçəndən sonra - 1923-cü il iyulun 7-də Azərbaycan ərazisində tamamilə əsassız, süni bir qurum yaradıldı - Dağlıq Qarabağ Muxtar Vilayəti. Bunun yaradılmasının heç bir əsası yox idi. O vaxt indiki Ermənistanda yaşayan azərbaycanlıların sayı Qarabağda yaşayan ermənilərlə müqayisədə, bəlkə də, iki dəfə çox idi. Ancaq nədənsə, bu muxtar vilayəti orada yox, burada yaradıblar. Bunu yaradıblar və eyni zamanda qədim Azərbaycan şəhərini - Şuşanı da onun tərkibinə salıblar, bir məqsədlə ki, Şuşa erməniləşsin. Çünki Şuşa tək bir qala kimi qalmışdı və yaxşı bilirsiniz ki, Şuşaya bütün yollar ermənilərin məskunlaşdığı yerlərdən keçirdi, ərazilərdən keçirdi. Yəni, Şuşaya gəlmək üçün mütləq ermənilərin yaşadıqları kəndlərdən keçmək lazım idi. İndi biz Zəfər yolunu çəkmişik. Zəfər yolunu bizim əsgər, zabitlər ayaqla açdılar, o dağın, dərənin, meşənin içi ilə. Yəni bu da təxribat idi. Yəni Şuşanı bizdən qoparmaq üçün, erməniləşdirmək üçün Şuşanı da saldılar bu süni qurumun tərkibinə. Amma alınmadı, nə qədər çalışsalar da, alınmadı. Şuşa öz milli ruhunu o vaxt həmişə qoruyurdu və işğal dövründə ermənilər Şuşanı erməniləşdirə bilmədilər.

Ondan sonra 1940-1950-ci illərdə azərbaycanlıların Ermənistandan kütləvi deportasiyası, - bu da xalqımız üçün böyük faciə və böyük ədalətsizlik idi. Azərbaycanlılar öz tarixi torpaqlarından Azərbaycanın Mil-Muğan zonasına zorla köçürülmüşdür. O Azərbaycana qarşı bu edildi ki, İkinci Dünya müharibəsində 300 min Azərbaycan övladı müharibəyə getdi, qayıtmadı. O Azərbaycan ki, İkinci Dünya müharibəsində Sovet Ordusunun yanacağının 90 faizini verirdi. Əgər Azərbaycan olmasaydı, Azərbaycan nefti olmasaydı, Sovet İttifaqı müharibədə qələbə qazana bilməzdi və 3-4 il bundan sonra xalqımıza qarşı bu ədalətsizlik hansı mənəviyyata sığır?

Bu tarixdir. Bu tarixi biz bilməliyik. Bu tarixi bilmədən 1980-1990-cı illərin tarixi yarımçıq qalacaq. Ondan sonra 1980-ci illərin sonlarında başlamış separatizm meyilləri faktiki olaraq Qarabağın böyük hissəsini Azərbaycandan qopardı. Hələ Sovet İttifaqı dövründə bunu etdilər. Xüsusi idarəetmə komitəsi yaradıldı və Moskvadan bir ermənipərəst adam təyin olundu. Ondan sonrakı tarix də bəllidir. Bax bizim xalqımız iki əsr ərzində bütün bu iztirablardan keçib və nəhayət, öz sözünü deyib. Nəhayət "dəmir yumruq"la düşmənin başını əzib, tarixi ədaləti və milli ləyaqəti bərpa edibdir. Ona görə çox vacibdir ki, bu tarixi məqamlar daim diaspor təşkilatlarının gündəliyində olsun.

Əlbəttə, mən çox şadam ki, xaricdə fəaliyyət göstərən diaspor təşkilatlarımız Azərbaycan ilə daim təmasdadırlar, Dövlət Komitəsi ilə təmasdadırlar və müxtəlif ölkələrdə fəaliyyət göstərən diaspor təşkilatları arasında koordinasiya da təkmilləşir. Bu da çox vacibdir. Əlbəttə, biz hamımız - Azərbaycanda yaşayan azərbaycanlılar istəyirik ki, xaricdə yaşayan azərbaycanlılar öz tarixi Vətəni ilə sıx bağlı olsunlar. Heç olmasa, ildə bir dəfə hər bir azərbaycanlı öz ailəsi ilə Azərbaycana gəlsə, çox yaxşı olar - xüsusilə azad edilmiş torpaqlara getmək üçün. İndi bu gün biz qurultayı Şuşada keçiririk. Ancaq azad edilmiş ərazilər 10 min kvadratkilometrdən çoxdur və indi marşrutlar da açılır, aeroportlar da tikilir. Ona görə gəliş-gediş çox rahat olacaq.

Əlbəttə, çox istəyirik ki, ikinci, üçüncü nəsil azərbaycanlılar öz mədəniyyətinə bağlı olsunlar. Əlbəttə, bu o qədər də asan məsələ deyil. Burada onlar ilk növbədə Azərbaycan dilini bilməlidirlər. Burada, əlbəttə ki, təkcə ailələrdə Azərbaycan dilini yaşatmaq mümkündür, ancaq kifayət deyil. Ona görə Azərbaycan məktəblərinin, bazar günü məktəblərinin açılması istiqamətində də biz hər zaman kömək göstərməyə hazırıq. Əslində, bunu edirik. Bəlkə də, bunu daha da təşkilatlanmış şəkildə etmək lazımdır. Çünki Ana dili əsas amildir. Ana dili bütün Azərbaycan vətəndaşlarını birləşdirir.

Bizim xaricdə yaşayan gənc azərbaycanlılarımız həm İkinci Qarabağ müharibəsinin tarixini yaxşı bilməlidir, həm də bu həqiqətləri öz dostlarına çatdırmalıdırlar. Yəni, bir sözlə, xaricdə yaşayan azərbaycanlılar böyük qüvvədir. Onların fəaliyyəti ölkəmiz üçün çox önəmlidir. Onların fəallığı və Azərbaycan həqiqətlərinin çatdırılması, Azərbaycan maraqlarının müdafiə edilməsi, əlbəttə ki, bizim dövlətimizi daha da gücləndirir. Biz Azərbaycan dövləti olaraq öz fəaliyyətimizdə həmişə xaricdə yaşayan azərbaycanlıların yaşayışı ilə maraqlanırıq, təmaslar qururuq. Dövlətlərarası münasibətlər müstəvisində bu, önəmli bir amildir. Mən də öz həmkarlarımla, harada ki, azərbaycanlılar yaşayır, o ölkələrin rəhbərləri ilə daim bu məsələyə diqqət yetirirəm.

Şuşada keçirilən qurultayın çox böyük tarixi mənası var. Bu gün Azərbaycan yeni dövrə qədəm qoyub. Biz otuz il torpaqları işğal edilmiş ölkə kimi yaşamışıq. Bu, bizim üçün çox ağır idi. Mənim üçün Prezident kimi, hər bir vətəndaş üçün, sizin üçün - xaricdə yaşayan azərbaycanlılar üçün. Biz bilirdik ki, bu məğlubiyyətin heç bir real əsası olmamışdır. Sadəcə olaraq, 1990-cı illərin əvvəllərində Azərbaycanda baş vermiş hadisələr - hakimiyyət uğrunda gedən müharibə, milli xəyanət, satqınlıq və digər bəd əməllər, bax bu vəziyyəti yaratmışdır. Biz bilirdik ki, bu Qələbəyə layiqik. Bir daha demək istəyirəm, - çıxışımın əvvəlində mən bunu dedim, - mənim üçün Prezident kimi başlıca vəzifəm ölkəmizi gücləndirmək və ərazi bütövlüyümüzü bərpa etmək idi. Sizin üçün də çox çətin idi. Çünki sizin yaşadığınız ölkələrdə erməni diaspor təşkilatları var. Siz ermənilərlə istər-istəməz hansısa ünsiyyətdə olursunuz, görüşürsünüz, ya da ki, haradasa tədbirlərdə bir yerdə olursunuz. Mən başa düşürəm ki, bu dövr sizin üçün çox ağır idi.

Ancaq bu gün vəziyyət tam başqadır. Bu gün alnımız açıqdır, bu gün üzümüz gülür, bu gün başımız dikdir və həmişə belə olacaq. Mən tam əminəm ki, bundan sonra Azərbaycan xalqı müzəffər xalq kimi əbədi yaşayacaq, Azərbaycan dövləti qalib dövlət kimi əbədi yaşayacaq. Biz öz torpağımızdayıq, bu torpaqda möhkəm dayanmışıq və heç kim heç vaxt bu torpaqlardan bizi tərpədə bilməz.

Yaşasın Şuşa! Yaşasın Qarabağ! Hamımız birlikdə: “Qarabağ Azərbaycandır!” Sağ olun.

❖ ❖ ❖

Qurultay işini "Postmüharibə dövründə Azərbaycan diasporunun qarşısında duran vəzifələr, fəaliyyət planı/yol xəritəsi" və "Qarabağın bərpası və yenidən qurulmasında Azərbaycan diasporunun töhfələri" mövzusunda panel iclasları ilə davam etdirib.

Aprelin 23-də başa çatacaq Zəfər qurultayında 65 ölkədən 400-dən çox diaspor nümayəndəsi və qonaq iştirak edir.

Xatırladaq ki, Dünya Azərbaycanlılarının I Qurultayı Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü ilə 2001-ci ildə, II Qurultay Prezident İlham Əliyevin Sərəncamına əsasən 2006-cı ildə, III Qurultay 2011-ci ildə, IV Qurultay isə 2016-cı ildə keçirilib.

## Azərbaycanın pravoslav xristian icmasına

Hörmətli həmvətənlər!

Müqəddəs Pasxa bayramı münasibətilə sizi və Azərbaycanın bütün xristian icmasını ürəkdən təbrik edir, hər birinizə cansağlığı və xoşbəxtlik arzularımı yetirirəm.

Azərbaycan, tarixən olduğu kimi, bu gün də dilindən, dinindən, etnik mənsubiyyətindən asılı olmayaraq, burada yaşayan hər kəs üçün doğma vətəndir. Yüksək birgəyaşayış mədəniyyətinin hökm sürdüyü ölkəmizdə ayrı-ayrı xalqlar və dinlər arasında qarşılıqlı hörmət və etimada əsaslanan dostluq və qardaşlıq münasibətləri formalaşmışdır. Cəmiyyətimizdə etnomədəni rəngarəngliyin, zəngin multikultural dəyərlərin, çoxəsrlik tolerantlıq ənənələrinin qorunub saxlanılması və təşviqi həyata keçirdiyimiz dövlət siyasətinin əsas istiqamətlərindən biridir.

Müxtəlif xalqların mədəni irsinə hərtərəfli diqqət və qayğının təmin edildiyi Azərbaycan nümunəvi dövlət - din münasibətlərinin mövcud olduğu nadir ölkələrdəndir. Belə bir milli-mənəvi həmrəylik şəraitində xristian həmvətənlərimiz öz adət-ənənələrini, dini inanclarını, dil və mədəniyyətini yaşadır, vətəndaşlıq borcunu layiqincə yerinə yetirərək, ictimai-siyasi, sosial-mədəni həyatımızın bütün sahələrində yaxından iştirak edirlər.

Əziz dostlar!

Hər il Azərbaycanda təntənə ilə bayram etdiyiniz Pasxa yeniliyin, dirçəlişin, mərhəmət və şəfqət duyğularının təcəssümüdür. Bu əziz gündə hamınıza bir daha xoş bayram ovqatı, ailələrinizə sevinc və rifah arzulayıram.

Bayramınız mübarək olsun!

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 22 aprel 2022-ci il*

# Şuşada keçirilən Dünya Azərbaycanlılarının V Qurultayı işini panel iclasları ilə davam etdirib








Azərbaycanın mədəniyyət paytaxtı Şuşa şəhərində keçirilən Dünya Azərbaycanlılarının V Qurultayı - Zəfər qurultayı aprelin 22-də işini "Postmüharibə dövründə Azərbaycan diasporunun qarşısında duran vəzifələr, fəaliyyət planı/yol xəritəsi" və "Qarabağın bərpası və yenidən qurulmasında Azərbaycan diasporunun töhfələri" mövzularında panel iclasları ilə davam etdirib.

AZƏRTAC xəbər verir ki, Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Fuad Muradovun moderatorluğu ilə keçirilən "Postmüharibə dövründə Azərbaycan diasporunun qarşısında duran vəzifələr, fəaliyyət planı/yol xəritəsi" mövzusunda panel iclasında Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev, Prezident Administrasiyasının Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Fərəh Əliyeva, Almaniya Azərbaycanlıları Alyansının sədri, tibb elmləri doktoru Nuran Abdullayev, Gürcüstanın İş Adamları Birliyinin sədri Nəriman Qurbanov, "Sara Xatun" Qadınlar Cəmiyyətinin rəhbəri Simuzər Baloğlanova və Türkiyənin "Star" qəzetinin xarici siyasət yazarı, tədqiqatçı-jurnalist Sevil Nuriyeva çıxış ediblər.





Qeyd edilib ki, Qurultayın məqsədi postmünaqişə reallıqlarında Azərbaycan diasporunun qarşısında duran vəzifələrin, fəaliyyət istiqamətlərinin müəyyənləşdirilməsidir. Diqqətə çatdırılıb ki, 2020-ci ildə Vətən müharibəsindən sonra Qarabağın azad edilməsi ilə Azərbaycan diasporunun qarşısında duran vəzifələr də dəyişib. Əgər İkinci Qarabağ müharibəsinədək xarici ölkələrdəki diaspor təşkilatlarımızın torpaqlarımızın işğalı, Ermənistanın təcavüzkar siyasətinin dünyaya çatdırılması idisə, bu gün əsas məqsəd işğaldan azad edilmiş ərazilərimizdə qarşıya çıxan problemlərin, şəhərlərimizin işğal dövründə yerləyeksan edilməsinin, Azərbaycanın maddi-mədəni və dini irsinin vandalizmə məruz qalmasını beynəlxalq ictimaiyyətə təqdim olunmasıdır.

Çıxışlarda vurğulanıb ki, bu gün Azərbaycan diasporunun qarşısında böyük vəzifələr dayanır. Diaspor nümayəndələri azərbaycançılıq məfkurəsi əsasında daha sıx birləşməlidir, sosial şəbəkələrdə fəallığı artırmalı, dünya ictimaiyyətinin diqqətini Qarabağdakı real vəziyyətə, mina probleminə və Birinci Qarabağ müharibəsində itkin düşmüş 4 minə yaxın Azərbaycanın taleyinə yönəltməlidir.

Diqqətə çatdırılıb ki, Azərbaycan bu gün regionda sülh gündəliyini təqdim edib. Bundan sonrakı çağırışlar yeni üslubda təqdim edilməlidir. Əsas məsələlər Vətən, onun taleyi və ölkəmizin ərazi bütövlüyünün təmin edilməsi, ana dilinin, tarixin, mədəniyyətin yaşadılması və inkişaf etdirilməsi ilə bağlı olmalıdır.

Qurultay çərçivəsində keçirilən ikinci panel iclası isə "Qarabağın bərpası və yenidən qurulmasında Azərbaycan diasporunun töhfələri" mövzusunda olub. Diasporla İş üzrə Dövlət Komitəsinin sədr müavini Elşad Əliyevin moderatorluğu ilə keçirilən panel iclasında Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi, Birinci vitse-prezidentin köməkçisi Emin Hüseynov, Azərbaycan Respublikasının iqtisadiyyat nazirinin birinci müavini Elnur Əliyev, Qarabağ Dirçəliş Fondunun İdarə Heyətinin sədri Rəhman Hacıyev, "Yaşat" Fondunun Himayəçilik Şurasının üzvü, Danimarkada Azərbaycan diasporunun fəal üzvü Məsud Aşina, Dünya Bankı və Fondunun Azərbaycanlı Əməkdaşlar Assosiasiyasının təsisçisi Bəxtiyar Kərimov, Sankt-Peterburq Dövlət Universitetinin Beynəlxalq münasibətlər kafedrasının müdiri Niyazi Niyazov və Amerikanın orta qərb ştatları üzrə Azərbaycan mərkəzi, Amerika Azərbaycanlıları Koordinasiya Şurasının İdarə Heyətinin üzvü Esmira Bayramova çıxış ediblər.

Tədbirdə ilk olaraq bildirilib ki, Azərbaycan işğaldan azad edilmiş ərazilərdə misli görünməmiş bərpa və quruculuq işləri aparır. Müzəffər Ali Baş Komandan İlham Əliyevin xüsusi diqqət mərkəzində olan bu fəaliyyət çox sayda dövlət qurumu, yerli və xarici şirkətlərin koordinasiyalı və sistemli işini tələb edir və bərpa işləri ilə bağlı tematik mövzularda işçi qrupları fəaliyyət göstərir. Məsul qurumların əlaqələndirilmiş fəaliyyəti əsasında Böyük qayıdış proqramı Azərbaycanın müqəddəs torpaqlarında bərpa və quruculuq işlərinin həyata keçirilməsinə, onun əsl sahibləri üçün layiqli həyatın təmin olunmasına xidmət edir.

Diqqətə çatdırılıb ki, Azərbaycan ərazilərin bərpasında genişmiqyaslı quruculuq konsepsiyasına start verib. Buraya bir tərəfdən, maddi-mədəni irsin qeydiyyatı və bərpası, infrastruktur layihələrinin gerçəkləşdirilməsi, digər tərəfdən isə, minaların təmizlənməsi və təhlükəsizlik tədbirlərinin görülməsidir. Mina problemi quruculuq işləri qarşısında ciddi maneə yaradır. Erməni işğalı nəticəsində ərazilərin minalarla çirkləndirilməsi münaqişə başa çatdıqdan sonra iki yüzdən çox soydaşımızın həyatına son qoyub.

Panel iclasında Qarabağ Dirçəliş Fondunun fəaliyyətindən də bəhs edilib, layihələrin dəstəklənməsi üçün dövlət və özəl sektorun yatırımları, eləcə də ianələrin qəbulu barədə məlumat verilib. Qeyd edilib ki, Azərbaycan diasporunun üzvləri xaricdən sərmayələrin cəlb olunması, bərpa işlərinin dəstəklənməsi missiyasına yardım göstərilməsi işlərində fəal olmalıdırlar.

Bildirilib ki, hazırda Azərbaycan Qarabağda məskunlaşma üzrə mühüm layihələr həyata keçirir, dünya urbanizasiya təcrübəsinin ən müasir modellərini yaradır, "ağıllı şəhər" və "ağıllı kənd" layihələri gerçəkləşdirilir.

Panel iştirakçıları ötən dövrə nəzər salaraq indiyədək keçirilmiş dörd qurultayda məğlub xalqın təmsilçiləri kimi iştirak etdiklərini, Şuşa qurultayında isə ilk dəfə müzəffər xalqın təmsilçiləri olaraq bir araya gəldiklərini, Şuşadakı yüksək əhvali-ruhiyyənin diaspor təşkilatlarına da sirayət etməli olduğunu diqqətə çatdırıblar. Ermənistanın Azərbaycan ərazilərini işğal etməsi, törədilmiş cinayətlər və vandalizm aktları dünya ictimaiyyətinə çatdırılmalı, eyni zamanda postmüharibə dövründə quruculuq işlərinə investisiyaların cəlb olunması üçün iş aparılmalıdır.

Panel iclasları bədii hissə ilə davam edib.

## Ölkədə xüsusi karantin rejiminin müddəti uzadılıb

Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov "Xüsusi karantin rejiminin müddətinin uzadılması və bəzi məhdudiyyətlərin aradan qaldırılması ilə bağlı əlavə tədbirlər barədə" qərar imzalayıb.

Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, qərara əsasən koronavirus (COVID-19) infeksiyasının ölkə ərazisində yayılmasının, onun törədə biləcəyi fəsadların qarşısının alınması məqsədilə Azərbaycan Respublikasının ərazisində xüsusi karantin rejiminin müddəti 2022-ci il iyulun 1-i saat 06:00-dək uzadılıb.

Qərarda həmçinin qeyd olunub ki, 2022-ci il mayın 1-dən etibarən xüsusi karantin rejimində tənəffüs yollarını qoruyan fərdi vasitələrdən (tibbi maska, parça maska, respirator və sair) istifadə tələbi ləğv edilir.

Eyni zamanda Azərbaycan Respublikasının beynəlxalq hava limanı ərazisində və Azərbaycan Respublikasında fəaliyyət göstərən təhsil müəssisələrində tibbi maskalardan istifadə artıq məcburi xarakter daşımır və yalnız tövsiyə olunur.

## Azərbaycan ilə Latviya arasında əməkdaşlığın genişləndirilməsi məsələləri müzakirə edilib

Aprelin 20-21-də Azərbaycan Respublikasının xarici işlər nazirinin müavini Xələf Xələfovun rəhbərlik etdiyi nümayəndə heyəti Riqaya səfəri çərçivəsində Latviya Respublikasının Xarici İşlər Nazirliyinin dövlət katibinin müavini, siyasi direktor Andceys Vilumsons, Latviya Prezidenti Müşavirlərinin Ofisinin rəhbəri, Prezidentin mədəni məsələlər üzrə müşaviri Sarmite Elerte və nəqliyyat naziri, Azərbaycan-Latviya Hökumətlərarası Komissiyasının latviyalı həmsədri Talis Linkaits ilə görüşlər keçirib.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, aprelin 21-də Azərbaycan və Latviya arasında strateji dialoqun birinci iclası keçirilib. İclasa Azərbaycan Respublikası nümayəndə heyətinə xarici işlər nazirinin müavini Xələf Xələfov, Latviya Respublikası nümayəndə heyətinə isə Xarici İşlər Nazirliyinin dövlət katibinin müavini, siyasi direktor Andceys Vilumsons rəhbərlik edib. Görüş zamanı iki ölkə arasında ilk dəfə təşkil edilən strateji dialoqun birinci iclasının xüsusi əhəmiyyəti vurğulanıb. 2017-ci ildə iki ölkə arasında imzalanan "Strateji Tərəfdaşlığın Yaradılması Haqqında birgə Bəyannamə"nin bu il beşilliyinin tamam olduğu və strateji tərəfdaşlığın yeni hədəflərinin müəyyənləşdirilməsinin və ikitərəfli gündəliyin keyfiyyətcə daha da zənginləşdirməsi istiqamətində sıx dialoqun keçirilməsinin vacib əhəmiyyət daşıdığı diqqətə çatdırılıb. Azərbaycan və Latviya prezidentlərinin qarşılıqlı səfərlərinin ikitərəfli münasibətlərimizin inkişafında müstəsna rolu qeyd edilib.

X.Xələfov 44 günlük müharibədən sonra bölgədə yaranmış yeni reallıqlar, üçtərəfli bəyanatların tam yerinə yetirilməsi ilə bağlı vəziyyət, Azərbaycanın iki ölkə arasında münasibətlərin normallaşması ilə bağlı mövqeyi, bütün nəqliyyat və kommunikasiyaların açılması məsələsi, işğaldan azad olunmuş ərazilərimizin minalardan təmizlənməsi və orada aparılan bərpa və yenidənqurma işləri barədə qarşı tərəfə ətraflı məlumat verib.

Həmçinin Azərbaycanın Avropa İttifaqının etibarlı tərəfdaşı olduğu vurğulanıb, Avropa İttifaqının enerji təhlükəsizliyinin təmin edilməsində oynadığı rol xüsusi qeyd edilib. Avropa İttifaqı ilə əlaqələrin daha da inkişaf etdirilməsi üçün yeni imkanların olduğu ifadə edilib. Bildirilib ki, Azərbaycan ilə Avropa İttifaqı arasında imzalanması nəzərdə tutulan hərtərəfli tərəfdaşlıq haqqında saziş qarşılıqlı əlaqələrin yeni səviyyəyə çatdırılmasına şərait yaradacaq.

Tərəflər Azərbaycan Respublikası Hökuməti və Latviya Respublikası Hökuməti arasında iqtisadi, elmi-texniki və mədəni əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın fəaliyyətinin əhəmiyyətini qeyd edib, həmçinin ikitərəfli strateji tərəfdaşlığın gündəliyində duran aktual mövzuları, xüsusən siyasi, iqtisadi, ticari, nəqliyyat, humanitar sahələrdə əməkdaşlığın genişləndirilməsi məsələləri ilə yanaşı, çoxtərəfli formatda, beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq, eləcə də Ukraynadakı vəziyyəti müzakirə ediblər.

Bununla yanaşı, X.Xələfovun rəhbərlik etdiyi nümayəndə heyəti Latviya Seyminin Azərbaycan parlamenti ilə əməkdaşlığın təşviqi qrupunun üzvləri ilə görüşüb. Tərəflər Azərbaycanla Latviya arasında əməkdaşlığın həyata keçirilməsində parlamentlərarası dialoqun əhəmiyyətini qeyd ediblər.

## Azərbaycan nümayəndə heyətinin Türkiyəyə səfəri başa çatıb

Türkiyənin ailə və sosial xidmətlər naziri Dərya Yanıkın dəvəti ilə Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradovanın rəhbərlik etdiyi Azərbaycan nümayəndə heyətinin qardaş ölkəyə səfəri başa çatıb.

AZƏRTAC xəbər verir ki, səfər çərçivəsində Azərbaycan nümayəndə heyəti Ankarada Türkiyə ailə və sosial xidmətlər naziri Dərya Yanık ilə görüşüb.

Azərbaycanın Türkiyədəki səfiri Rəşad Məmmədovun iştirakı ilə keçirilən görüşdə ölkələrimiz və adıçəkilən dövlət qurumları arasında qarşılıqlı təcrübə mübadiləsinin əhəmiyyəti vurğulanıb və ikitərəfli əməkdaşlıq əlaqələrinin möhkəmləndirilməsi məsələləri müzakirə edilib.

Türkiyə Böyük Millət Məclisinin üzvü, hakim Ədalət və İnkişaf Partiyasının (AK Parti) Qadın Təşkilatının sədri Ayşə Kəşir ilə keçirilmiş görüşdə də mühüm əhəmiyyətli müzakirələr aparılıb.

Azərbaycan nümayəndə heyəti səfər çərçivəsində Ankarada fəaliyyət göstərən "Saray" Uşaq Evləri Şəhərciyi və digər eynifunksiyalı təsisatlarla tanış olub.

Məlumat verilib ki, internat tipli şəhərcikdə 13-18 yaşlarında olmaqla 273 yetim uşaq yaşayır, təhsil və tərbiyə alır. Onlara ümumilikdə 195 nəfərlik heyət xidmət edir. Mərkəz dövlət tərəfindən ideal şəkildə təchiz olunur. Uşaqların təlim-tərbiyəsi ilə yanaşı, müxtəlif sənətə sahib olması, idman, incəsənət üçün bütün şərait vardır.

Şəhərcikdə bədii proqram təşkil olunub. Uşaqlar Azərbaycan-Türkiyə qardaşlığını tərənnüm edən zəngin bədii proqramla çıxış ediblər.

Komitə sədri Bahar Muradova və Türkiyə ailə və sosial xidmətlər nazirinin müavini Kübra Gürhan Yığıtbaşı uşaqlar qarşısında çıxışlarında onların layiqli, təhsilli vətəndaş olması üçün hər zaman dövlətin dəstək verəcəyini, Azərbaycan-Türkiyə qardaşlığının əbədiliyini ifadə ediblər.

"Saray" Uşaq Evləri Şəhərciyindəki tədris, təlim və yaşayış yerləri ilə tanışlıq olub.

Xatırladaq ki, Türkiyənin ailə və sosial xidmətlər naziri Dərya Yanıkın dəvəti ilə Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradovanın rəhbərlik etdiyi Azərbaycan nümayəndə heyətinin qardaş ölkəyə səfərinin məqsədi qarşılıqlı təcrübənin öyrənilməsi və əməkdaşlıq əlaqələrini daha da genişləndirməkdir.

## TÜRK PA tədbirində DOST konsepsiyası təqdim olunub

Türkdilli Ölkələrin Parlament Assambleyasının (TÜRK PA) "Əhalinin sosial cəhətdən həssas qruplarının sahibkarlıq fəaliyyətinə həvəsləndirilməsi: reallıqlar və perspektivlər" mövzusunda Bakıda keçirdiyi seminarda Azərbaycanın mühüm sosial nailiyyətlərindən biri olan DOST konsepsiyasından bəhs olunub.

AZƏRTAC xəbər verir ki, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki DOST Agentliyinin İdarə Heyətinin sədri Fərid Məmmədov ölkəmizdə vətəndaş rifahının təminatı sahəsində xüsusilə son illər inqilabi xarakter alan islahatları diqqətə çatdırıb.

Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın təşəbbüsü ilə yaradılan DOST Agentliyi və DOST mərkəzləri barədə məlumat verilib. DOST mərkəzlərində əmək və məşğulluq, sosial təminat, ünvanlı dövlət sosial yardımı, əlillik və reabilitasiya, pensiya, sosial sığorta və s. üzrə 154 növ xidmətin "bir pəncərə"dən operativ, şəffaf və nəzakətli, vətəndaş rahatlığı prinsipi əsasında göstərildiyi vurğulanıb.

2025-ci ilə qədər ölkəmizdə DOST mərkəzlərinin sayının 17-yə çatacağı, 55 DOST filialının yaradılacağı, DOST xidmətlərinin bütün ölkə ərazisini əhatə edəcəyi bildirilib.

Seminarda DOST Agentliyinin DOST Xidmətləri Departamentinin direktoru Aygün Musayeva təqdimatla çıxış edərək burada həyata keçirilən xidmətlər barədə seminar iştirakçılarına məlumat verib.

Tədbir çərçivəsində TÜRK PA nümayəndələri 4 saylı DOST Mərkəzini ziyarət ediblər. Qonaqlar mərkəzdə göstərilən xidmətlərlə yaxından tanış olublar.

DOST Agentliyi sədrinin müşaviri Ruslan Mirzəliyev TÜRK PA nümayəndələrini mərkəzin iş prinsipi, xidmət bölmələri, 142 Çağrı mərkəzinin fəaliyyəti barədə məlumatlandırıb.

Qonaqlar şəhid ailələrinin, müharibə ilə əlaqədar xəsarət almış hərbi qulluqçuların və əlilliyi müəyyən edilmiş şəxslərin müraciətləri üzrə vahid əlaqələndirmə mərkəzləri ilə də tanış olub, vətəndaşlara xidmət göstərilməsi prosesini izləyiblər.

Görüş qarşılıqlı müzakirə və fikir mübadiləsi şəraitində davam etdirilib.

# Görkəmli yazıçı Mir Cəlalın hekayə və romanlarının yer aldığı üç kitabın təqdimat mərasimi keçirilib

Aprelin 22-də "Ədibin Evi"ndə XX əsr milli ədəbi-bədii fikir tarixinin görkəmli nümayəndəsi, yazıçı, alim və pedaqoq Mir Cəlalın hekayə və romanlarının yer aldığı üç kitabın - "Qayğılar", "Mir Cəlal dünyası" və "V teni pod ivoy" kitablarının təqdimat mərasimi keçirilib.






AZƏRTAC xəbər verir ki, təqdimat mərasimində tanınmış elm və mədəniyyət xadimləri, habelə ədibin doğmaları iştirak ediblər.

"Ədibin Evi" Ədəbiyyata Dəstək Fondunun icraçı direktoru Şəfəq Mehrəliyeva çıxış edərək tədbirin əhəmiyyətindən söz açıb, yazıçı-alim Mir Cəlalın bənzərsiz yaradıcılığından və yeni işıq üzü görən kitabların məziyyətlərindən danışıb.

Sonra "Ədibin Evi"ndə görülən işlər haqqında məlumat verən Ş.Mehrəliyeva yaxın gələcəkdə həyata keçiriləcək layihələrdən də bəhs edib.

Qeyd edilib ki, Mir Cəlalın çoxşaxəli yaradıcılığı nəinki müasirlərinə, özündən sonra gələn nəsillərə də örnəkdir. Bu gün təkcə Azərbaycanda deyil, onun sərhədlərindən kənarda da görkəmli ədibin həyat və yaradıcılığı geniş şəkildə öyrənilir və əsərləri çap olunaraq maraqla oxunur.

"Mir Cəlal dünyası" kitabının müəllifi Qafar Hüseynov çıxış edərək kitabla bağlı fikirlərini bölüşüb, görkəmli yazıçı-alimin zəngin yaradıcılığından söz açıb.

Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü, professor Təhsin Mütəllibov vurğulayıb ki, Mir Cəlal zəngin, mənalı, şərəfli bir müəllim, alim, yazıçı ömrü yaşayıb. Müəllimlik onun fəaliyyətində aparıcı yer tutub: "Mir Cəlal müəllim əsl şəxsiyyət idi. Səbirli, müdrik, alicənab, həssas, sadə və səmimi bir insan olan Mir Cəlal müəllim həmişə tələbələrin mövqeyindən çıxış edər, onların qayğısına qalardı. O, səmərəli elmi-pedaqoji fəaliyyət göstərib. Onun xatirəsi həmişə bizim üçün əzizdir. Bilirsiniz ki, Mir Cəlal müəllim xüsusi, özünəməxsus gülüşə malik idi. Onun hekayələrində özünəməxsusluq ondan ibarətdir ki, bütün maraqlı cəhətləri izləmək olur. Açıq görünür ki, Mir Cəlal müəllim haradan başlayıb, haraya gedib, hansı mərhələləri keçib".

Kitablar haqqında fikirlərini bölüşən T.Mütəllibov hər üç nəşrin orijinal əsər olduğunu söyləyib. Bildirib ki, belə işlərin ərsəyə gəlməsi Mir Cəlal müəllimin zəngin yaradıcılığı üçün qiymətli nəticədir.

Mir Cəlalın əsərlərinin qısa bir zamanda rus dilinə tərcümə olunduğunu deyən yazıçının qızı, Bakı Dövlət Universitetinin kafedra müdiri, professor Ədibə Paşayeva diqqətə çatdırıb ki, o, "Bir gəncin manifesti" romanını 1938-ci ildə yazmasına baxmayaraq, əsər artıq ilk dəfə 1937-1939-cu illərdə hissə-hissə "Revolyusiya və kultura" jurnalında dərc edilib. Mir Cəlalın əsərləri çox qısa bir zamanda rusdilli oxucuların marağına səbəb olurdu: "Onun hekayələri öz aktuallığını bütün zamanlarda saxladığı üçün biz qərara gəldik ki, onun hekayələrini yeni rus oxucusuna çatdıraq. Hər tərcüməçi Mir Cəlal müəllimin dərinliyini olduğu kimi oxucuya çatdıra bilməz. Ona görə də biz bu məsələyə çox diqqətlə yanaşmışıq. Çalışmışıq ki, tərcümə məsələsində onun üslubuna toxunmadan, orijinallığı qoruyaq".

Xalq yazıçısı Elçin Əfəndiyev deyib ki, XX əsr Azərbaycan ədəbiyyatşünaslığının ən görkəmli simalarından biri olan Mir Cəlal həm də Azərbaycan pedaqoqluğunun ən dəyərli nümayəndələrindəndir: "Bunu böyük şövq və minnətdarlıq hissi ilə ona görə deyirəm ki, universitetdə Mir Cəlal müəllim mənim müəllimim olub, onun rəyi ilə aspiranturada saxlanılmışam. Amma universitetin yox, Nizami adına Ədəbiyyat İnstitutunun aspiranturasına daxil oldum, elmi rəhbərim isə Mir Cəlal müəllim oldu və o üç ildə ki, mən "Azərbaycan bədii nəsri ədəbi tənqiddə (1945-1965)" mövzusunda namizədlik dissertasiyasını işlədim, Mir Cəlal müəllimi daha artıq hiss etdim, onun şəxsiyyətinin xüsusiyyətlərini, xasiyyətinin çalarlarını daha yaxından gördüm.

Mir Cəlal müəllim ilk dəfə universitetdə bizim auditoriyaya daxil olanda biz gördük ki, çox möhtəşəm bir varlıq gəldi, ilk gündən hiss etdik ki, dəyərli bir alimlə qarşılaşdıq. Mir Cəlal müəllim pedaqoji fəaliyyətə başladığı ilk gündən böyük şəxsiyyət kimi tələbələrin sevimlisinə çevrildi".

Tədbirdə AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun şöbə müdiri, professor Şirindil Alışanov və Milli Məclisin deputatı, akademik Nizami Cəfərov çıxış edərək görkəmli yazıçı, alim və pedaqoq Mir Cəlalın elmi irsindən, bənzərsiz yaradıcılığından, böyük insani keyfiyyətlərindən danışıblar.

Dünyaşöhrətli pianoçu, Azərbaycanın Əməkdar artisti Adilə Əliyeva xatirə tədbirinin sonunda Vaqif Mustafazadənin əsərlərini ifa edib.

# Azərbaycan Heydər Əliyev Fondunun təşkilatçılığı ilə 59-cu Venesiya Biennalesində təmsil olunur

Azərbaycan Heydər Əliyev Fondunun təşkilatçılığı ilə 59-cu Venesiya Biennalesində - Beynəlxalq İncəsənət Sərgisində təmsil olunur.



AZƏRTAC xəbər verir ki, Biennaledə ölkəmiz "Sevmək üçün doğulanlar" ("Born to love") mövzusundakı milli pavilyonla iştirak edir. Şəhərin ən izdihamlı məkanlarından birində - Müqəddəs Mark Meydanındakı qədim "Procuratie Vecchie" binasında Azərbaycandan olan 7 rəssam - Juk (Nərmin İsrafilova), Infinity, Ramina Səadatxan, Fidan Kim (Novruzova), Fidan Axundova, Sabiha Xankişiyeva, Əqdəs Bağırzadənin əsərləri təqdim edilir.

Venesiya Biennalesi bütün incəsənət xadimləri və həvəskarları üçün səbirsizliklə gözlənilən hadisədir. Çünki bu, dünyanın çağdaş incəsənətində ən nüfuzlu və mötəbər sərgi-aksiya hesab olunur. Azərbaycan pavilyonunda müasir incəsənət üzrə 7 rəssam müasir texnika və üsullarla mövzu üzrə ideyalarını, eyni zamanda ölkəmizin zəngin mədəni və tarixi xüsusiyyətlərini sərgi iştirakçılarına çatdırır.

Sərgidə təmsil olunan müəllif-rəssam Ramina Səadətxan Venesiya Biennalesində ilk dəfə iştirak etməsi ilə fəxr etdiyini deyir.

Fotoqraf-rəssam Əqdəs Bağırzadə Biennaledə "The other side of me" layihəsi ilə çıxış edir. "Bir azərbaycanlı, bir foto-rəssam kimi mən, doğrudan da, qürur duyuram ki, bu festivalda, bieannaledə iştirak elədim. Bu, Heydər Əliyev Fondunun dəstəyi və iştirakı ilə ərsəyə gəlib. Doğrudan da, Azərbaycanı burada təmsil etmək bizim üçün böyük məsuliyyətdir", - deyə o, qeyd edib.

Heydər Əliyev Fondu 2004-cü ildən müasir incəsənətin və gənc rəssamların yaradıcılığının inkişafına dəstək verən layihələr həyata keçirir. Venesiya Biennalesində iştirak da bunlardan biridir.

İki ildən bir keçirilən Venesiya Biennalesində ölkəmiz 2007-ci ildən iştirak edir. Azərbaycan bu il artıq 8-ci dəfədir müasir incəsənət sahəsində dünyanın ən nüfuzlu sərgilərindən hesab olunan Venesiya Biennalesində təmsil olunur. Venesiyadakı Azərbaycan pavilyonu noyabrın 27-dək açıq olacaq.

# Heydər Əliyev Mərkəzində "Oxu günü" olub




Aprelin 22-də Heydər Əliyev Mərkəzində "Gəlin birgə oxuyaq!" devizi altında "Oxu günü" keçirilib.

AZƏRTAC xəbər verir ki, Heydər Əliyev Mərkəzi, Təhsil Nazirliyi və "Regional İnkişaf" İctimai Birliyinin təşkilatçılığı ilə 4-cü dəfə keçirilən "Oxu günü" uşaq və gənclərin elmə, təhsilə, eyni zamanda kitaba marağının artırılması, onların dünyagörüşünün inkişaf etdirilməsi məqsədi daşıyır.

Tədbirin rəsmi hissəsində çıxış edən Xalq yazıçısı Çingiz Abdullayev kitabın müqəddəs olduğunu deyib. Diqqətə çatdırıb ki, bütün dinlər kitabla, məsələn, islam "Quranla", xristianlıq "İncillə" başlayır. Əgər bir xalqın alimləri çoxdursa, o xalq inkişaf edir.

Xalq yazıçısı Azərbaycanın işıqlı gələcəyi naminə çoxlu kitab oxumağı tövsiyə edib. Bakı Kitab Mərkəzi, Respublika Uşaq-Gənclər İnkişaf Mərkəzi, 3 nömrəli Uşaq-Gənclər İnkişaf Mərkəzi və Firidun bəy Köçərli adına Respublika Uşaq Kitabxanasının tərəfdaşlığı ilə reallaşan tədbirdə ümumtəhsil məktəb və liseylərin şagirdləri müxtəlif təqdimatlarla çıxış ediblər. "Oxu günü"ndə, həmçinin iştirakçılara bədii-elmi kitabların sərgisində yeni nəşrlərlə tanış olmaq, şair və yazarlarla görüş, ustad dərslərində iştirak, interaktiv yarışlarda biliklərini sınamaq imkanları yaradılıb.

Tədbirdə şagirdlər görkəmli Azərbaycan ədiblərinin obrazlarını və məşhur əsərlərdən personajları canlandırıb, müxtəlif əsərlər əsasında səhnəciklər təqdim olunub, əlyazma kitabların hazırlanması, xəttatlıq sənəti və digər mövzularda ustad dərsləri təşkil edilib, kitabların müzakirəsi keçirilib, kitablarla fleşmob, xoreoqrafik etüdlər nümayiş etdirilib. "Oxu günü"ndə müxtəlif kitablar, o cümlədən Heydər Əliyev Fondunun nəşrləri sərgilənib.

"Oxu günü" tədbirinin iştirakçıları təəssüratlarını da bölüşüblər. Bakı şəhəri 30 nömrəli tam orta məktəbin 5-ci sinif şagirdi Aydan Rəcəbli bildirib ki, Qırmızıpapaq obrazını canlandırır. "Oxu günü"ndə iştirakçılara Qrimm qardaşlarının əsərləri haqqında məlumat verəcək. Mütaliəyə böyük marağı olan Aydan Rəcəbli deyib: "Çalışıram ki, çoxlu kitab oxuyum. Oxumaq nitqi inkişaf etdirir, dünyagörüşü artırır".

Bakı Avropa Liseyinin 2-ci sinif şagirdi Mirşəhla Ağayeva qeyd edib ki, "Oxu günü" çox xoşuna gəlib. Burada yeni kitablarla tanış olmuşam.

Tədbirdə məktəblilərin intellektual səviyyəsini yoxlamaq üçün ümumi dünyagörüşü və bədii ədəbiyyat sahəsini əhatə edən viktorina keçirilib. Suallara düzgün cavab verən şəxslərə kitablar və müxtəlif hədiyyələr təqdim olunub.

# Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Vətəndaş Qəbulu Mərkəzində 2022-ci ilin may ayında vətəndaşların qəbulu cədvəli

| *Qəbulu aparan şəxs* | *Qəbul günü* |
|---|---|
| **Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri**<br>Əliyeva Fərəh Şirməmməd qızı | **4** |
| **Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Hüquq ekspertizası şöbəsinin müdiri**<br>Əliyev Şahin Məhərrəm oğlu | **5** |
| **Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri**<br>Vəliyev Ədalət Məqsəd oğlu | **5** |
| **Azərbaycan Respublikasının Birinci vitse-prezidentinin Katibliyinin rəisi**<br>Həsənov Altay Tofiq oğlu | **6, 13, 20** |
| **Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Gənclər siyasəti və idman məsələləri şöbəsinin müdiri**<br>Məmmədəliyev Yusuf Ülfət oğlu | **6** |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Hüquq-mühafizə orqanları ilə iş şöbəsinin müdiri**<br>Ələsgərov Fuad Murtuz oğlu | **10,24** |
| **Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Dövlət qulluğu və kadr məsələləri şöbəsinin müdiri**<br>Məcidov Tələt Tahir oğlu | **11** |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Hərbi məsələlər şöbəsinin müdiri**<br>Əliyev Məhərrəm Abış oğlu | **12** |
| **Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Qanunvericilik və hüquq siyasəti şöbəsinin müdiri**<br>Kərimov Gündüz Hacı oğlu | **13** |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının İqtisadi siyasət və sənaye məsələləri şöbəsinin müdiri**<br>Əmirov Natiq Ərziman oğlu | **16** |
| **Azərbaycan Respublikası Prezidentinin mətbuat katibi**<br>Qasımov Azər Məhəmməd oğlu | **17** |
| **Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Qeyri-hökumət təşkilatları ilə iş və kommunikasiya şöbəsi** | **17** |
| **Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Hüquq-mühafizə orqanları ilə iş şöbəsinin Əfv məsələləri sektoru** | **18** |
| **Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri**<br>İsmayılov Süleyman Abbas oğlu | **19** |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Ərazi-təşkilat məsələləri şöbəsinin müdiri**<br>Nağdəliyev Zeynal Səfər oğlu | **20** |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının İqtisadi məsələlər və innovativ inkişaf siyasəti şöbəsinin müdiri**<br>Mövsümov Şahmar Arif oğlu | **23** |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Dövlət nəzarəti məsələləri şöbəsinin müdiri**<br>Həsənov Kərəm Əvəz oğlu | **25** |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri**<br>Hacıyev Hikmət Fərhad oğlu | **26** |
| * * * | |
| **Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi Prezidentin İşlər müdiri**<br>Quluzadə Ramin Namiq oğlu | **27** |
| * * * | |
| **Azərbaycan Respublikasının Təhlükəsizlik Şurası**<br>**Azərbaycan Respublikasının Təhlükəsizlik Şurasının katibi**<br>Usubov Ramil İdris oğlu | **27** |
| * * * | |
| **Azərbaycan Respublikası Prezidentinin Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) xüsusi nümayəndəsi**<br>Hüseynov Emin Zamin oğlu | **31** |
| * * * | |
| **Azərbaycan Respublikası Prezidentinin Şuşa rayonunda xüsusi nümayəndəsi**<br>Kərimov Aydın Zöhrab oğlu | **31** |

**Qeyd: Vətəndaşlar Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Vətəndaş Qəbulu Mərkəzində qəbul olunurlar.**
**Ünvan: Bakı şəhəri, Nərimanov rayonu, Zaur Nudirəliyev, 79**
**Qəbula yazılış qəbul gününə ən geci 1 iş günü qalmış dayandırılır.**
**Qəbul saat 14:00-dan başlayır.**
**Əlaqə üçün: Çağrı mərkəzi**

# DSX-nin Göytəpədə yerləşən hərbi hissəsində gənc əsgərlər and içiblər





Aprelin 22-də Dövlət Sərhəd Xidmətinin (DSX) Göytəpə şəhərində yerləşən hərbi hissəsində gənc əsgərlərin andiçmə mərasimi keçirilib.




DSX-nin Mətbuat mərkəzindən bildiriblər ki, gənc əsgərlər təntənəli şəkildə hərbi anda gətirildikdən sonra Dövlət Sərhəd Xidmətinin rəisi general-polkovnik Elçin Quliyevin təbriki şəxsi heyətə çatdırılıb.

Çıxış edənlər gənc əsgərlərin Dövlət Sərhəd Xidmətinin heyəti sırasına daxil olmalarının sərhəd mühafizəsi tarixinin şanlı dövrünə təsadüf etdiyini vurğulayıb, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə Vətən müharibəsində işğalçı düşmən qüvvələrinə qarşı mətinliklə döyüşmüş sərhədçilərin müqəddəs torpaqlarımızda dövlət sərhədlərinin toxunulmazlığını ən yüksək səviyyədə təmin etdiklərini bildiriblər.

Tədbirdə Vətənə, dövlətə sədaqət andı içərək müqəddəs sərhədlərimizi şərəflə qorumaq məsuliyyətini öz üzərinə götürən gənc əsgərlərin hərbi anda daim sadiq qalacaqlarına əminlik ifadə olunaraq onlara müvəffəqiyyətlər arzulanıb.

Andiçmə mərasimi gənc əsgərlərin təntənəli marşla tribuna önündən keçidi ilə başa çatıb.

*"Azərbaycan"*

# Dünya azərbaycanlıları Zəfər sevincini Qarabağda da yaşadılar

"Əmin olduğumu bildirmək istəyirəm ki, biz bu münaqişənin də ləğv olunmasına, aradan götürülməsinə nail olacağıq, Azərbaycanın ərazi bütövlüyü bərpa olunacaqdır, işğal olunmuş torpaqlar azad ediləcək, yerindən-yurdundan didərgin düşmüş qaçqınlar öz doğma torpaqlarına qayıdacaqlar".

Əbədiyaşar şəxsiyyət, xalqımızın Ümummilli Lideri Heydər Əliyev bu sözləri Dünya Azərbaycanlılarının 2001-ci ilin noyabr ayında keçirilən I Qurultayında demişdi. Bu gün Ulu Öndərin ruhu şaddır. Ona görə ki, artıq torpaqlarımız azaddır və onun layiqli davamçısı olan Prezident İlham Əliyev növbəti qurultay üçün Azərbaycana gəlmiş soydaşlarımızı bu dəfə Şuşada salamladı…

## Prezident dünya azərbaycanlılarını bu dəfə Şuşada salamladı

Pezident İlham Əliyevin dünya azərbaycanlılarının ikinci, üçüncü və dördüncü qurultaylarında etdiyi çıxışlar müxtəlif ölkələrdən gəlmiş soydaşlarımızın yaxşı xatirəsindədir. İlham Əliyev 16 il əvvəl, 2006-cı il martın 16-da ilk dəfə dövlət başçısı kimi çıxış etdiyi Dünya Azərbaycanlılarının II Qurultayında demişdi: "Biz Dağlıq Qarabağın heç vaxt - nə bü gün, nə sabah, nə 10 ildən sonra, nə də 100 ildən sonra Azərbaycandan ayrılmasına razılıq verməyəcəyik". Eyni zamanda dövlət başçısı danışıqlara da toxunaraq bəyan etmişdi ki, bu proses əbədi ola bilməz, çünki Azərbaycan xalqının və iqtidarının səbri tükənir.

Dünya Azərbaycanlılarının III Qurultayında da İlham Əliyev qətiyyətlə bildirmişdi ki, Azərbaycanın ərazi bütövlüyü bərpa ediləcəkdir. IV Qurultaydan bir neçə ay əvvəl isə Aprel döyüşləri baş vermişdi və görünən o idi ki, İlham Əliyevin Ali Baş Komandanlığı ilə ordumuz tezliklə torpaqlarımızı işğaldan azad edəcək.

Bəli, İlham Əliyev dedi və etdi. Bu illər ərzində inkişaf edən, güclənən Azərbaycan dövləti Qarabağda ikinci erməni dövlətinin yaradılmasına imkan vermədi və 44 günlük müharibədə torpaqlarını işğaldan azad etdi. Bu Zəfərlə İlham Əliyev Ulu Öndər Heydər Əliyevin vəsiyyətini yerinə yetirdi, xalqımızı qürurlandırdı, dünyanın müxtəlif ölkələrində yaşayan soydaşlarımızı fərəhləndirdi.

Beləliklə, 2006 və 2011-ci illərdə Bakıda Heydər Əliyev Sarayında, 2016-cı ildə isə Heydər Əliyev Mərkəzində dünya azərbaycanlılarını salamlayan İlham Əliyev bu dəfə onları Qarabağda - Zəfərimizin rəmzi olan Şuşada bir araya gətirdi. Dünya azərbaycanlılarının həmrəylik mesajı bu dəfə Şuşadan dünyaya bəyan olundu. Və bu mesajda xalqımızın tarixi zəfəri, Qarabağın Azərbaycan olduğu ifadə edildi.

Bu mənada Dünya Azərbaycanlılarının V Qurultayının ruhu da, məzmunu da fərqli idi. Ona görə ki, bu qurultay Şuşada keçirilirdi. Ona görə ki, İlham Əliyevin onları yalnız dünya azərbaycanlılarının lideri yox, həm də döyüş meydanında Zəfər çalmış Ali Baş Komandan kimi salamladı. İlham Əliyev onları ən böyük arzularının həyata keçməsini təmin edən dövlət başçısı kimi qarşıladı. Elə buna görə də Prezident İlham Əliyev Dünya Azərbaycanlılarının V Qurultayını Zəfər qurultayı adlandırdı: "Biz bu gün azad Qarabağda, azad Şuşada Dünya Azərbaycanlılarının Qurultayını keçiririk. Bu qurultayın adı Zəfər qurultayıdır və bu təbiidir. Çünki tarixi Zəfərdən sonra ilk dəfədir ki, dünya azərbaycanlıları toplaşır, qurultay keçirir və ümumiyyətlə, Zəfər adı xalqımıza çox yaraşır".

## Qalib xalqın nümayəndələri

Elə V Qurultayın iştirakçısı olan soydaşlarımızın da ovqatı fərqli və həm də vüqarlı idi. Ona görə ki, Zəfər sevincini bu dəfə işğaldan azad olunmuş torpaqlarımızda, Qarabağın tacı olan Şuşada yaşadılar. Onlar Zəfər yolu ilə gələrək, ordumuzun qəhrəman əsgər və zabitlərinin hansı çətin coğrafi şəraitdə xalqımıza qələbə sevinci bəxş etdiyini gördülər. Qeyd edək ki, V Qurultayda 65 ölkədən 400 nəfərə yaxın diaspor nümayəndəsi iştirak etdi. Şübhəsiz ki, bu tədbirdə daha çox sayda soydaşımız iştirak etmək arzusunda olub.

Vətən müharibəsindəki Zəfərin təməlində dayanan əsas səbəb İlham Əliyevin müdrik siyasətidir. Məhz bu siyasət Azərbaycanı tarixinin ən güclü dövlətinə çevirdi, 2020-ci ilin Vətən müharibəsində isə dövlətimizin ərazi bütövlüyünü təmin etdi. Bu siyasətin ən böyük uğurlarından biri də xalqımızın milli həmrəyliyini təmin etməsi, dünyanın hər yerində yaşayan soydaşlarımızı vahid amallar ətrafında birləşdirməsidir.

Qeyd edək ki, əvvəlki qurultaylarda Prezident İlham Əliyev dövlətimizin taleyüklü məsələləri ilə bağlı müxtəlif ölkələrdən olan soydaşlarımıza mühüm tövsiyələr vermişdi. Dövlət başçısı informasiya müharibəsinin gücləndiyi bir şəraitdə Azərbaycan həqiqətlərinin müxtəlif ölkələrə çatdırılmasının, erməni yalanlarının ifşası istiqamətində fəaliyyətin daha da genişləndirilməsinin vacibliyini vurğulamışdı. Bu baxımdan Vətən müharibəsinə gedən yolda dünyanın müxtəlif ölkələrində yaşayan soydaşlarımızın mühüm xidmətləri oldu. Təkcə Vətən müharibəsi dövründə soydaşlarımızın diaspor təşkilatları dünyanın 30-dan çox olkəsində 200-dək aksiya keçiriblər və bu, milli həmrəyliyimizin təntənəsi olmaqla, erməni yalanlarının qarşısının alınmasında mühüm rol oynadı. V Qurultayda Prezident İlham Əliyev bu barədə deyib: "Biz hamımız - həm Azərbaycanda yaşayan Azərbaycan vətəndaşları, həm də dünya azərbaycanlıları bir nöqtəyə vururduq, bir hədəfə çatmaq üçün çalışırdıq. Mən deyirdim ki, hər birimiz hər gün öz əməyimizlə, işimizlə, hərə öz yerində bu müqəddəs günü yaxınlaşdırmalıyıq. Torpaqlarımızın işğaldan azad olunmasından daha vacib və ali vəzifə yox idi".

Vətən müharibəsindəki qələbə müxtəlif ölkələrdə yaşayan soydaşlarımızın qürur mənbəyidir. Çünki onlar indi qalib xalqın təmsilçiləridir. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, Şuşada keçirilən qurultayın çox böyük tarixi mənası var. V Qurultaydan sonra yaşadıqları ölkələrə qayıdacaq soydaşlarımızın isə deməyə daha çox sözləri var. Həm də azad Şuşanı görmək və Müzəffər Ali Baş Komandanla görüşmək tamamilə başqa bir hissdir.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***



# İşığımız yanır, yolumuz çəkilir, sularımız gur axır...

## İlham Əliyev Qarabağ və Şərqi Zəngəzurda reallaşdırdığı möhtəşəm quruculuqla doğma yurdlara yeni həyat gətirir

Bu gün Qarabağ və Şərqi Zəngəzurda aparılan bərpa, yenidənqurma prosesi illərlə yağmalanıb dağıdılan, viran qoyulan yurd yerlərimizə yeni nəfəs gətirib. İndi bölgənin çiçəklənmə dövrü başlayıb. Yazın gəlişi ilə quruculuq işləri daha geniş vüsət alıb.

Böyük Zəfərdən sonra geniş tikinti-quruculuq meydanına çevrilən bölgədə bütün infrastrukturlar yenidən qurulur. Yeni avtomobil və dəmir yolları, körpülər, tunellər, hava limanları, elektrik və su xətləri, müasir yaşayış kompleksləri, məktəblər, xəstəxanalar, su-elektrik stansiyaları tikilir, tarixi-mədəni, dini abidələrimiz bərpa edilir.

### 9 su anbarı, 15 yol infrastrukturu

İşğal altında olan torpaqlarımızı 44 günə düşməndən təmizləyən Müzəffər Komandan İlham Əliyev aparılan bütün tikinti-quruculuq işlərinin Baş memarı kimi görülən işlərlə mütəmadi olaraq maraqlanır, tövsiyə və tapşırıqlarını verir.

Aprelin 21-də İlham Əliyev Şuşa səfəri çərçivəsində Füzulidə Köndələnçay su anbarlarında aparılacaq təmir-bərpa işləri, Şuşa rayonunun Daşaltı kəndində Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunun və bu yolun üzərindəki tunellərin inşası, Şuşa şəhərində inzibati binanın əsaslı təmiri və konfrans zalının tikintisi ilə tanış olması da söylənən fikirlərin bariz təcəssümüdür.

Ümumiyyətlə, işğaldan azad olunmuş ərazilərin bərpasını iqtisadi qüdrəti hesabına həyata keçirən Azərbaycan bu sahədə də öz standartlarını yaradıb. Mina problemi, eyni zamanda pandemiyanın yaratdığı çətinliklərə rəğmən, bərpa və yenidənqurma işləri bütün istiqamətlər üzrə sürətlə və planlı şəkildə aparılır. Su anbarlarının gələcək istismarı, hidroehtiyatların ölkənin su təsərrüfatı sisteminə inteqrasiyası da bərpa prosesinin və Böyük qayıdış planının tərkib hissəsidir.

İlham Əliyev Şuşa səfəri zamanı ilk olaraq Köndələnçay su anbarlarında aparılacaq təmir-bərpa işləri ilə tanış oldu. Xatırladaq ki, işğaldan azad olunmuş ərazilərdə ümumilikdə 9 su anbarı tikilir və ya təmir olunur. Qarabağın zəngin su ehtiyatlarının düzgün və səmərəli idarə olunması bütövlükdə regionun iqtisadi inkişafını sürətləndirəcək. Köndələnçay-1, Köndələnçay-2 və Aşağı Köndələnçay su anbarlarının bərpası ilə Füzuli rayonu ərazisində 6200 hektar əkin sahəsinin suvarılması mümkün olacaq.

Prezident Şuşa rayonunun Daşaltı kəndində Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunun və bu yolun üzərindəki tunellərin inşası ilə tanış oldu. Ümumiyyətlə, Qarabağ və Şərqi Zəngəzurun dirçəlişi istiqamətində reallaşan layihələrin əsas tərkib hissələrindən biri yol infrastrukturunun qurulmasıdır.

Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunun önəmi ilk növbədə onun Zəngəzur dəhlizinin magistralı ilə birləşməsindədir. Yolun uzunluğu 81,6 kilometr, hərəkət zolaqlarının sayı 4-6, hərəkət zolağının eni isə 3,5 metrdir. Yolboyu 7 tunelin tikintisi aparılır. Bir neçə tuneldə qazma işləri artıq tamamlanıb, digərlərində isə qazma, partlatma və qırma üsulları ilə qaya qruntlardan ibarət hissələrin kənarlaşdırılması işləri davam edir. Bundan başqa, tunellərdə havalandırma və izolyasiya sistemləri də quraşdırılır. Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunda tunellərin inşası ilə yanaşı, yolboyu müxtəlif hissələrdə torpaq yatağının, körpülərin, yeraltı keçid və suötürücü boruların tikintisi də layihəyə uyğun şəkildə icra olunur. Yolun tikintisinin 2024-cü ildə başa çatdırılması planlaşdırılır.

İlham Əliyev Şuşada bir sıra yeni tikilən obyektlərlə də maraqlandı. Mədəniyyətimizin paytaxtında tullantıların idarə olunması üçün poliqon yaradılır. Burada məişət tullantıları Avropa standartlarına uyğun xüsusi yeraltı konteynerlərdə yerləşdiriləcək. Poliqonda 4 çeşid üzrə 600 ədəd SMART yeraltı konteyner və 11 ədəd xüsusi texnika nəzərdə tutulub. Ərazidə söküntü materiallarının çeşidlənməsi də aparılacaq. Şəhərin su təchizatı sisteminin dayanıqlığının təmini də iki mərhələdə paralel layihələrlə həyata keçiriləcək.

Şuşada həmçinin inzibati binanın və konfrans zalının tikintisi ilə tanış olan İlham Əliyev bir daha öz göstəriş və tapşırıqlarını verdi.

### Azərbaycan yalnız öz gücünə Qarabağ və Şərqi Zəngəzurda xariqələr yaradır

Göründüyü kimi, Prezident aparılan təmir, bərpa və yenidənqurma işləri ilə yerində tanış olur və işlərin gedişatı ilə şəxsən maraqlanır. Bütün bu proseslərin, yəni Qarabağın yenidən qurulması proqramının icrası üçün dövlət büdcəsindən 2,2 milyard manat vəsait ayrılıb. Bu ilin birinci rübündə isə həmin məbləğdən 346 milyon manat, yaxud 16 faizə yaxın hissəsi artıq icra olunub.

Hazırda Ağdam və Füzuli şəhərlərində baş planlara uyğun quruculuq prosesi gedir. Bu ilin sonunadək Şuşa, Cəbrayıl, Kəlbəcər, Zəngilan, Qubadlı şəhərlərinin, Hadrut və Suqovuşan qəsəbələrinin baş planları hazırlanacaq.

Aprelin 12-də keçirilən müşavirədə İlham Əliyev görülən işlərdən danışaraq qarşıda reallaşdırılacaq layihələr barədə xalqı məlumatlandırarkən bildirdi ki, Qarabağ və Zəngəzur nümunəvi bölgə kimi inkişaf edəcək. Azərbaycan vətəndaşları orada rahat, firavan yaşayacaqlar. Eyni zamanda dünya üçün də bu inkişaf bir nümunə olacaq. Çünki bu torpaqlar Azərbaycanın qədim əraziləridir.

Göründüyü kimi, Qarabağı 44 günə "dəmir yumruq"la düşməndən təmizləyən Baş Komandan indi "dəmir iradə" ilə 30 il ərzində viran qoyulan yurd yerlərimizi yenidən qurur, keçmiş məcburi köçkünlərin Qarabağ və Şərqi Zəngəzura qaytarılması üçün kompleks tədbirlər görür. İnfrastruktur qurulur, yollar, körpülər, yaşayış binaları, sosial obyektlər tikilir, kənd təsərrüfatı, sənayenin müxtəlif növlərinin yaradılması, turizmin inkişaf imkanları öyrənilir, artıq bununla bağlı müxtəlif layihələrə start verilib.

Birinci vitse-prezident Mehriban xanım Əliyevanın rəhbərliyi və təşəbbüsü ilə Heydər Əliyev Fondu tərəfindən tarixi-mədəni-dini abidələrimiz bərpa olunur, bir çoxu yenidən tikilir. Erməni işğalından azad etdiyimiz ərazilərə dövlətimiz öz gücü, öz vəsaiti və doğru planları ilə yeni həyat gətirir. Tezliklə keçmiş məcburi köçkünlərimiz burada yeni həyata başlayacaqlar.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# Azərbaycan parlamenti TÜRK PA-ya yardımını heç bir zaman əsirgəmir

## Milli Məclisdə qurumun komissiya iclası keçirilib

Aprelin 22-də Milli Məclisdə TÜRK PA-nın Sosial, mədəni və humanitar məsələlər komissiyasının 9-cu iclası keçirilib.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, "TÜRK PA-nın üzv ölkələrində sosial sahibkarlığın dəstəklənməsi" mövzusuna həsr edilmiş iclasa TÜRK PA-nın Sosial, mədəni və humanitar məsələlər komissiyasının sədri, Qırğız Respublikasının Joqorku Keneşinin üzvü Aybek Osmonov moderatorluq edib. Tədbiri giriş nitqi ilə açan Aybek Osmonov iştirakçıları salamlayaraq iclasa evsahibliyi edən Azərbaycan tərəfinə, Milli Məclisə təşəkkürünü bildirib.

Aybek Osmonov TÜRK PA-nın Sosial, mədəni və humanitar məsələlər komissiyasının dünən keçirilən "Əhalinin sosial cəhətdən həssas qruplarının sahibkarlıq fəaliyyətinə həvəsləndirilməsi: reallıqlar və perspektivlər" mövzusunda seminarının türk dövlətləri, bütövlükdə dünya ölkələrinin qarşılaşdıqları yoxsulluq, miqrasiya, işsizlik problemlərinin həlli yollarının axtarılması baxımından əhəmiyyətinə toxunub. O, sosial cəhətdən həssas qrupların sahibkarlıq fəaliyyətinə cəlb edilməsi, yoxsulluğun azaldılması istiqamətində komissiyanın bugünkü iclasının da yeni imkanlar yaradacağına inamını bildirib.

Sonra TÜRK PA-nın baş katibi Mehmet Süreyya Er çıxış edərək türk dünyasının qədim şəhərlərindən biri olan Bakıda qardaş ölkələrin təmsilçiləri ilə bir araya gəlməkdən məmnunluğunu və TÜRK PA-ya yardımını heç bir zaman əsirgəməyən Azərbaycan parlamentinə minnətdarlığını ifadə edib.

Gündəliyin qəbulundan sonra "TÜRK PA-nın üzv ölkələrində sosial sahibkarlığın dəstəklənməsinə dair" komissiyanın hesabat layihəsinə baxılıb. Layihə ilə bağlı TÜRK PA-nın Sosial, mədəni və humanitar məsələlər üzrə komissiyasının sədr müavini Nizami Cəfərov məruzə edib.

Nizami Cəfərov bildirib ki, TÜRK PA-nın ötən il Türküstanda keçirilən 10-cu plenar iclasında Sosial, mədəni və humanitar məsələlər komissiyasının 9-cu iclasının gündəliyinin əsas maddəsi kimi "TÜRK PA ölkələrində sosial sahibkarlığa dəstək" məsələsinə baxılması qərara alınıb. O, qeyd edib ki, sosial sahibkarlıq siyasətinin səmərəli həyata keçirilməsini təmin etmək, məhsuldarlığın inklüziv və davamlı şəkildə artımını sürətləndirmək, o cümlədən sosial inklüzivliyi təşviq etmək və həssas qrupların müdafiəsi ilə əlaqədar zəruri təminatları təmin etmək üçün məqsədyönlü tədbirlərə, kompleks dövlət yanaşmasına ehtiyac var.

Sonra komissiyada hesabat layihəsi təsdiq olunub və assambleyanın plenar iclasında məsələ üzrə məruzəçi TÜRK PA-nın Sosial, mədəni və humanitar məsələlər komissiyasının sədr müavini, Milli Məclisin deputatı Nizami Cəfərov seçilib. Sonra Qazaxıstan Respublikası Parlamenti Məclisinin üzvü Lazzat Ramazanova müzakirəyə çıxarılan "Sosial sahibkarlığın inkişafı haqqında" model qanun layihəsi barədə məlumat verib.

Qanun layihəsinin müzakirələrində Türkiyə Böyük Millət Məclisinin üzvləri İbrahim Aydemir, Hüda Kaya, Qazaxıstan Respublikası Parlamenti Senatının üzvü Dinar Nuketaeva sənədlə bağlı fikirlərini bildiriblər, təkliflərini səsləndiriblər.

Müzakirələrdən sonra komissiya "Sosial sahibkarlığın inkişafı haqqında" model qanun layihəsini təsdiqləyib və sənədin plenar iclasa təqdim edilməsi üçün Qazaxıstan Respublikası Parlamenti Məclisinin üzvü Lazzat Ramazanovanı məruzəçi təyin edib.

Sonra iclasda Sosial sahibkarlığın dəstəklənməsi üzrə komissiyanın tövsiyə qərarlarının layihəsi də müzakirə edilərək təsdiqlənib və məsələ üzrə Qırğız Respublikasının Joqorku Keneşinin üzvü Aybek Osmonov məruzəçi təyin olunub.

Komissiyanın katibi Baurjan Datkayevin məlumatını da dinlədikdən sonra parlamentarilər TÜRK PA-nın Sosial, mədəni və humanitar məsələlər komissiyasının 2023-2028-ci illər üçün iclaslarının mövzularını, həmçinin model qanunların adlarını təsdiq ediblər.

***R.CƏFƏRLİ,***
***"Azərbaycan"***

## 23 Aprel Ümumdünya Kitab və Müəlliflik Hüququ Günüdür



# Dövrlər, insanlar, mədəniyyətlər arasında mənəvi körpü

Aprel ayı bütün dünyada müəlliflik hüququ və ümumən əqli mülkiyyətin qorunması sahəsində iki tarixi günlə əlamətdardır. Bunlardan biri 23 Aprel Ümumdünya Kitab və Müəlliflik Hüququ, digəri Beynəlxalq Əqli Mülkiyyət günləridir. Hər günün isə özünəməxsus tarixi var.

### Dünya ədəbiyyatı üçün simvolik gün

23 Aprel Ümumdünya Kitab və Müəlliflik Hüququ Günü UNESCO-nun baş konfransının 1995-ci ilin 25 oktyabr - 16 noyabrda Parisdə keçirilən 28-ci sessiyasının qərarına əsasən təsis edilmişdir. O vaxtdan bəri bütün dünyada bu tarix əlamətdarlıqla qeyd olunur. Sual doğa bilər: niyə məhz 23 aprel? Bu günün kitab və müəlliflərlə bağlı əsas özəlliyi nədən ibarətdir?! UNESCO-nun bu seçimi, təbii ki, təsadüf deyil. 23 aprel dünya ədəbiyyatı üçün simvolik mahiyyət daşıyır. Bu tarix dünya ədəbiyyatının üç nəhənginin vəfat etdiyi gündür: Uilyam Şekspir, Migel de Servantes və İnka Qarsilaso dela Veqa. Ümumdünya Kitab və Müəlliflik Hüququ Günü kimi bu tarixin seçilməsi də onların simasında bütün dünyada kitablara, onları yaratmış müəlliflərə göstərilən hörmət və sayğının əlamətidir. Bununla insanlar mütaliəyə həvəsləndirilir, mütaliə bir zövq kimi cəmiyyətdə təşviq edilir. Keçmişlə gələcək, nəsillər və mədəniyyətlər arasında körpü rolunu oynayan kitabın sehirli gücü göstərilir. Həmin gün münasibətilə keçirilən tədbirlərin tərkib hissəsi kimi UNESCO-nun təşkilatçılığı, kitab sənayesi təmsilçilərinin (naşirlər, kitab ticarətçiləri və kitabxanalara aid beynəlxalq qurumlar) iştirakı ilə hər il dünyanın şəhərlərindən biri Ümumdünya Kitab Paytaxtı seçilir. Beləliklə, bəşəriyyət üçün kitab bir dəyər kimi aktuallaşdırılır. Zaman və məkan sərhədlərini aşaraq ideyaların paylaşımında, insanın zəka gücünün artmasında, dünyada sülhün qorunmasında, yoxsulluğun azaldılmasında onun misilsiz rolu diqqətə çatdırılır.

### Kitab biliklərin ən mötəbər və zəngin qaynağıdır

Müasir dünyamızda texnologiyalar insanın məlumatlar almaq, müxtəlif sahələrdə biliklər əldə etmək imkanlarını hər nə qədər genişləndirsə də, kitab yenə də bilik mənbəyi kimi öz statusunu qoruyur. Kitab bu gün də biliklərin ən mötəbər və zəngin qaynağıdır. Biliklərin yayılmasını həyata keçirən müxtəlif kommunikasiya texnologiyaları əsas materialları məhz kitablardan əldə edir. Kitab biliklərin qorunması üçün də ən etibarlı vasitədir. Çünki müvafiq texniki həllər hansısa texnogen, siyasi, iqtisadi və s. amillərin, kənar müdaxilələrin təsiri ilə sıradan çıxa, günlərin birində əlçatan olmaya bilər. Kitablar isə hər zaman əlçatandır, qorunur və bəşəriyyətin minilliklər boyu zərrə-zərrə topladığı bilikləri öz səhifələrində mühafizə edir. Bu dəyəri formalaşdıranlarsa təbii ki, müəlliflərdir.

Kitab yazmaq, düşüncələri qələmə alaraq onu nəşr etdirmək, yayımı ilə məşğul olmaq kifayət qədər ağır intellektual zəhmət tələb edən işdir. Aprelin 23-nün Ümumdünya Kitab və Müəlliflik Hüququ Günü kimi qeyd edilməsi isə yazarların intellektual əməyinə, müəlliflik hüququna beynəlxalq ictimaiyyət tərəfindən verilən yüksək dəyərin ifadəsidir.

Bu təşəbbüsə qoşulan ölkələr sırasında Azərbaycan da var. 1997-ci ildən başlayaraq hər il 23 aprel ölkəmizdə Ümumdünya Kitab və Müəlliflik Hüququ Günü kimi təntənəli şəkildə qeyd olunur. Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyi bu münasibətlə silsilə tədbirlər, o cümlədən milli və beynəlxalq konfranslar keçirir, müəlliflər və hüquq sahibləri ilə görüşlər, sərgilər təşkil edir. Belə sərgilərdə görkəmli müəlliflərin əsərləri, eləcə də agentliyin nəşr etdirdiyi müxtəlif materiallar nümayiş olunur. Bu cür tədbirlərlə Azərbaycan da qlobal səviyyədə kitabla bağlı bu xoş, faydalı missiyaya qoşulur, həmrəylik nümayiş etdirir.

### Müəllif hüquqları etibarlı qorunur

Bu da Azərbaycanda müəllif yaradıcılığına, kitab sənayesinin inkişafına, müəlliflərin hüquqlarının qorunmasına dövlət tərəfindən göstərilən xüsusi diqqət və qayğının təzahürüdür. Müstəqillik illərində ölkəmizdə həyata keçirilən hüquqi dövlət quruculuğu proseslərinin önəmli istiqaməti kimi bu sahədə də mükəmməl qanunvericilik bazası yaradılıb. Əsərlərin könüllü qeydiyyatı sistemi qurulub. Müəlliflər və hüquq sahibləri kitablarını könüllü şəkildə Əqli Mülkiyyət Agentliyində qeydiyyatdan keçirə və onun qeydiyyatı haqqında şəhadətnamə ala bilirlər. Bu da müəlliflərə öz hüquqlarını yüksək səviyyədə qorumaq imkanı verir.

Yalnız 2021-ci ildə müəllif hüquqlarının obyektləri olan əsərlər üzrə 405 müəllifin 851 əsəri qeydiyyatdan keçirilmiş, əsərin qeydiyyatı haqqında 863 şəhadətnamə verilmişdir, o cümlədən "Elektron xidmət" bölməsi vasitəsilə 231 müəllifin 371 əsəri qeydiyyata alınmış və əsərin qeydiyyatı haqqında 371 şəhadətnamə verilmiş, hüquqların verilməsi ilə bağlı 9 müqavilə qeydiyyata düşmüşdür.

Kitabların rəsmi qeydiyyatının tətbiq edildiyi 1996-cı ildən 2022-ci il 1 yanvaradək agentlikdə 14261 əsər və əlaqəli hüquqların obyektləri, o cümlədən "Elektron xidmət" bölməsi vasitəsilə 419 müəllifin 787 əsəri qeydiyyatdan keçirilmişdir.

Ötən il ərzində müəllif-hüquq məsələləri üzrə 820-yə yaxın müraciət və sorğuya cavab verilmiş, agentliyin ictimai əsaslarla fəaliyyət göstərən "Hüquq məsləhətxanası" müəlliflərin və digər hüquq sahiblərinin istifadəsində olmuş, onlara qaldırılan məsələlərin həllində, həmçinin iddia ərizələrinin tərtib edilməsində hüquqi köməklik göstərilmişdir.

Hüquqların təminatı və piratçılığa qarşı mübarizə tədbirləri çərçivəsində nəzarət markalarının tətbiqi prosesi də davam etdirilmiş, bununla bağlı bir sıra təşkilatların səlahiyyətli nümayəndələri, o cümlədən naşirlərlə görüşlər keçirilmiş, müvafiq izahatlar verilmişdir. Keçən il müəlliflik hüququ obyektlərinin hüquq sahiblərinin müraciətləri əsasında 352100 nəzarət markası verilmişdir.

Ümumiyyətlə, müəllif hüquqlarının pozulmasına qarşı mübarizə tədbirləri çərçivəsində müvafiq dövlət qurumları ilə birgə tədbirlərin nəticəsi olaraq, 2005-ci illə müqayisədə ölkəmizdə piratçılığın səviyyəsi kitab satışı sahəsində 61 faizdən 20 faizə düşmüşdür. Hazırda bu istiqamətdə fəaliyyət davam etdirilir.

Azərbaycan dövlətinin müəllif hüquqlarının qorunması sahəsində əldə etdiyi nailiyyətlər onun beynəlxalq əqli mülkiyyət sistemində də mövqelərini möhkəmləndirir. Belə ki, 2021-ci il 4-8 oktyabrda Ümumdünya Əqli Mülkiyyət Təşkilatının (ÜƏMT) üzv dövlətlərinin Assambleyalarının İsveçrənin Cenevrə şəhərində olan 62-ci sessiyasında ÜƏMT komitələrinə keçirilən seçkilərdə ölkəmiz yenidən bu təşkilatın aparıcı struktur bölmələrindən sayılan Koordinasiya Komitəsinin, Proqram və Büdcə Komitəsinin üzvü olmuşdur. ÜƏMT-nin assambleyalarının vəzifəli şəxslərinin seçkiləri zamanı agentliyin idarə heyətinin sədri Kamran İmanov yekdilliklə təşkilatın 100-dən artıq dövlətin üzvü olduğu "Müəlliflik hüququna dair Müqaviləsi"nin assambleyasının sədri seçilmişdir. Azərbaycan nümayəndəsinin belə mötəbər vəzifəyə layiq görülməsi dövlət başçısının uğurlu siyasəti nəticəsində ölkəmizin beynəlxalq nüfuzunun artmasının növbəti göstəricisidir.

### Erməni miflərinin ifşası

Son illər ölkəmizdə Ümumdünya Kitab və Müəlliflik Hüququ Gününə həsr olunan konfranslar "Qədim mətnlər və klassik mənbələr erməniçilik uydurmalarını ifşa edir" devizi altında keçirilir. Görkəmli alimlərin, mütəxəssislərin qatıldığı belə tədbirlərdə qədim mətnlər, tarixi mənbələr, faktlar əsasında erməni saxtakarlıqları və plagiatı ifşa edilir.

Ümumiyyətlə, qeyd etmək lazımdır ki, erməni saxtakarlıqlarının və plagiatının ifşası agentliyin fəaliyyətində həmişə prioritet istiqamət kimi saxlanılır. Azərbaycan xalqına məxsus olan müəllif əsərlərinin, ənənəvi mədəni (folklor) nümunələrinin, biliklərin və digər qeyri-maddi mədəni irs nümunələrinin əsrlər boyu ermənilər tərəfindən oğurlanması, mənimsənilməsi və saxtalaşdırılaraq erməni nümunələri kimi təqdim olunması hallarına qarşı mütəmadi olaraq tədbirlər görülür.

Bununla əlaqədar yalnız keçən il mədəni irsin qorunması və erməni plagiatına qarşı mübarizə tədbirləri çərçivəsində müxtəlif formatlı tədbirlər təşkil edilmiş, erməni plagiatını ifşa edən yazılar hazırlanmış, o cümlədən "Azərbaycan" qəzetinin 2021-ci il 23 aprel tarixli nömrəsində agentliyin idarə heyətinin sədrinin "Erməni miflərinin dağıldığı, həqiqət və ədalətin zəfər çaldığı tarixi dövr" adlı məqaləsi dərc olunmuşdur. Məqalə geniş rezonans doğurmuşdur. Rəhbərliyin müxtəlif informasiya agentliklərinə verdiyi geniş müsahibələrdə də ermənilərin tarixən etdiyi saxtakarlıqlar və plagiat elmi dəlil və sübutlarla təkzib olunmuşdur.

Bundan başqa, erməni uydurmalarını ifşa edən milli və beynəlxalq konfranslar keçirilmiş, bununla yanaşı, bir sıra kitab və kitabçalar, o cümlədən "Qafqaz Albaniyası, onun sakinləri və işğaldan azad edilmiş ərazilərdə mədəni sərvətlər", "Tarixi xalqlar arasında öz yerlərini təsdiq etməyə çalışan hay-ermənilər Müqəddəs Kitabın mətnini təftiş etməkdən də çəkinmirlər", "Armeniya" termininin istər toponim, istərsə də etnonim olsun, indiki ermənilərlə heç bir əlaqəsi yoxdur və onlar tərəfindən mənimsənilib" kitabları hazırlanaraq buraxılmış, həmçinin "Erməniçilik uydurmaları digər xalqların hüquqlarına xələl gətirir", "Erməni genosidi", yoxsa erməni terroru?", "Öz-özünü təkzib edən "erməniçiliyin müəllif hüququ", "Erməni müəlliflərinin kitablarındakı uydurmalara "müəlliflik hüququ" və s. kitabçalar müxtəlif dillərdə təkrar nəşr edilmişdir.

Bu il də Əqli Mülkiyyət Agentliyi və Mədəniyyət Nazirliyinin birgə təşkilatçılığı ilə Ümumdünya Kitab və Müəlliflik Hüququ Günü münasibətilə "Qədim mətnlər və klassik mənbələr erməniçilik saxtakarlıqlarını və uydurmalarını ifşa edir və ya Azərbaycan torpaqlarına hay-erməni iddialarının davam etdirilməsi haqqında" mövzusunda konfrans-vebinar keçirildi. Tədbirin aktuallığını diktə edən amil əsrlər boyu davam edən, ildən-ilə artan və yeni dövrün elmi-texniki nailiyyətlərindən istifadə etməklə hazırkı günümüzdə daha geniş vüsət alan, qonşu xalqların, ilk növbədə Azərbaycan xalqının torpağına, mədəni irsinə və tarixinə yönəlmiş təcavüzkar erməni saxtakarlığı fenomeninin və erməni mifologiyasının ifşa edilməsidir.

Əqli Mülkiyyət Agentliyinin bu tədbirlə bağlı hazırladığı materiallarda belə bir həqiqət xüsusi vurğulanır ki, tarixə aid yalanlarla dolu müasir erməni müəlliflərinin kitabları bir-birinə istinadən, həqiqətə uyğun olmayan "faktları" tirajlayır və bununla "ermənisayağı mənbə", yəni "dəlillər" sistemi yaratmaqdadır. Qeyd olunanlar istər hay-erməni tərəfindən keçmişdə yazılan, istərsə də müasir müəlliflərin əksəriyyətinə aiddir.

### Geosiyasi yalanlar: "ermənisayağı mənbə"

O ki qaldı böyük həvəslə istinad edilən "qədim erməni mətnləri"nə, onların əlyazmaları, orijinalları, adətən, tapılmır, yaxud qat-qat sonrakı köçürmələr şəklində əksini tapmış olur. Bunların kökündə erməni saxtakarlığı durur. Servantesin məşhur aforizmində deyildiyi kimi, "Don bəzəyər də, ifşa edər də".

Odur ki, mütəmadi olaraq, 23 aprelə aid keçirilən konfranslarda Əqli Mülkiyyət Agentliyinin məqsədi hay-erməni saxtakarlıqlarını və uydurmalarını qədim mətnlərə və klassik mənbələrə söykənərək ifşa etməkdir. Agentliyin idarə heyətinin sədri Kamran İmanov bu barədə deyir: "Erməniçilik "Azərbaycan mədəni ənənələrinin mənimsənilməsi erməni ənənəsi" ilə yanaşı, folklor yaradıcılığının bir növünə - mif yaradıcılığına çox meyillidir. Ermənilərin bu meyli, həqiqətən də, "milli istedaddır", istər "böyük Ermənistan", istər "Cənubi Qafqazda erməni avtoxtonluğu", yaxud "yenilməz erməni ordusu", istərsə də "sivilizasiyanın erməni ilk ocağı" haqqında miflər, "erməni soyqırımı", yaxud Azərbaycanda ermənilərin hüquqlarının pozulması haqqında miflər olsun. Və əlbəttə ki, bu, Cənubi Qafqazın ilk növbədə Azərbaycanın bütün mədəni irsinin "ağıllı ermənilər"dən başlandığı barədə mifdir". K.İmanov bildirir ki, bu mifologiya "böyük torpaqlar" stereotipini və qonşulara qarşı ərazi iddialarını bir-birinə bağlayır, məhz bu mifologiya qonşuların mədəni irsinin mənimsənilməsinə "təbiilik" məqsədi güdür, hətta "legitimlik" gətirməyə yönəlir. Nəhayət, məhz bu mifologiya erməni siyasətçilərinin, dövlət xadimlərinin, alimlərinin, hətta kütlənin dünyagörüşünü və əxlaqını müəyyən edir. Ermənilərin "müstəsnalığı" haqqında irəli sürdükləri mif, xarici aləmə yönəldilmiş "əzabkeşlik" uydurması erməni düşüncəsində xüsusi ambisiya və iddialar yaradaraq, hayların təbii olan adilik rolunu hər cür aradan götürməyə çalışır, ermənilərin "xüsusi missiya"sını irəli sürür və bununla beynəlxalq hüququn müasir sülh quruculuğunun təməl daşı kimi tanınmasına mane olur. Və şübhəsiz ki, sadalanan amillər müasir erməni identikliyini formalaşdırır. Tədqiqatlardan da göründüyü kimi, erməni identikliyi neqativ sxem əsasında qurulur, digərlərinin identikliyini inkar edir, onlara qarşı çıxış edir. Buna xidmət edən isə göstərdiyimiz erməni mifologiyası, yalanlar, saxtakarlıqlar, uydurmalar və feyklərdir.

Erməni miflərini saymaqla qurtarmaz. Onların hamısı məqsəd quruluşuna və praktiki təyinatına görə birləşərək, siyasi mifologiya kateqoriyasına aid olunur və erməni etnik aləminin mənzərəsinin bir hissəsinə çevrilir.

Müasir politoloqların, o cümlədən S.B.Luryenin araşdırmalarına əsasən, digər xalqlardan fərqli olaraq, erməni siyasi düşüncəsinin xüsusiyyəti geosiyasi xarakter daşıyaraq, onların yaşadığı yerlər əsasında müəyyən coğrafi xəritə qurmaq və həmin yerləri özləri üçün növbəti "Ermənistan" adlandırmaqdan ibarətdir.

"Lakin erməniçilik mifomaniyası bununla bitmir. Erməniçiliyin sifarişi ilə muzdlu xarici müəlliflər tərəfindən yazılan çoxlu sayda "əsərlər" riyakarlığa əsaslanaraq, tarixi saxtalaşdırmağa yol açır, dərc olunan kitab və məqalələrə çevrilərək, dünyaya yalan toxumu səpir, beynəlxalq ictimai rəyi çaşdıraraq, uydurmaları qəbul etmək qarşısında qoyur. Çünki bəllidir ki, "bəziləri qəsdən yalan səpir, digərləri isə aldanaraq yalan yayır", - deyən Kamran İmanov bu məsələyə münasibət bildirir.

### Kitablar həqiqətə xidmət etməlidir

Doğrudan da, həqiqətlər kitabdan başlayır və bütün həqiqətlər kitabdadır. Təbii ki, yalanla dolu kitablarda yox. Uydurmalar isə qəbul edilmədiyi halda "əzabkeş" xalqın millətçiləri təcavüz və terrora, fitnəkarlığa və xəyanətkarlığa əl atır, təhrik edir. Bəli, bədnam qonşularımızın millətçi müəllifləri tərəfindən yazılan kitablar bu qəbildəndir.

Həyat yalan üzərində deyil, həqiqət üzərində qurulur. Bu, təkzibolunmaz bir gerçəklikdir. Yaşadığımız tarixi dövr isə miflərin dağıldığı, həqiqətin və ədalətin zəfər çaldığı dövrdür! Böyük sərkərdə, Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə rəşadətli Azərbaycan əsgərləri və zabitləri tərəfindən "qələbə daşıyan erməni ordusu" mifi puç edildi. Bu miflə yanaşı, "erməni motivasiyası", yəni torpaqların qorunmasında müstəsna cəsarət göstərilməsi mifi də dağıdıldı.

Azərbaycan Prezidenti İlham Əliyev 22 iyul 2021-ci ildə Daşkəsən rayonuna səfəri zamanı demişdir: "Onlar 30 il ərzində özləri haqqında olmazın yalanlar uydururdular, dünyaya qəbul etdirməyə çalışırdılar ki, guya onların müzəffər ordusu var, yenilməz ordusu var, erməni xalqı döyüşkən xalqdır, erməni ordusu ən güclü ordudur. Bəs nə oldu? Məhv etdik, darmadağın etdik, 44 gün ərzində yox etdik. Göstərdik ki, Azərbaycan xalqı müzəffər xalqdır. Göstərdik ki, onların bütün təbliğatı mifdir, mifologiyadır".

Yalançı erməni miflərinin ifşası eyni zamanda kitabın, müəllifliyin ali missiyasına xidmətdir. Çünki kitabın mahiyyətində həqiqət meyarı durur. Hər bir kitab doğruya xidmət etməlidir. Həqiqətə söykənməyən, gerçəkləri qələmə almayan müəllif bununla yalana xidmət edir, xalqlar və mədəniyyətlər arasında nifaq toxumu səpir, yeni münaqişələrin, insan faciələrinin əsasını qoyur. Bu isə yolverilməzdir və belə hallara qarşı mübarizə aparılmalıdır. Xalqımız 44 günlük Vətən müharibəsindəki tarixi qələbə ilə bəşəriyyətə qarşı yönəlmiş ağır bir təhdidin - erməni faşizminin başını əzdi, onu məhv etdi.

Azərbaycanın amalı dünyaya sülhü, mədəniyyətlər arasında dialoqu, faydalı əməkdaşlığı, mənəvi idealları təbliğ etməkdir. Kitab isə bunun əsrlər boyu özünü doğrultmuş ən effektiv vasitəsidir. Ona görə də 23 Aprel Ümumdünya Kitab və Müəlliflik Hüququ Günü bizim üçün əlahiddə önəm daşıyır.

***İradə ƏLİYEVA,***
***"Azərbaycan"***

---

# "Şuşa" adından istifadə etmək üçün xüsusi qaydalar tətbiq ediləcək

Aprelin 22-də Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu, Gənclər və idman, İqtisadi siyasət, sənaye və sahibkarlıq və Mədəniyyət komitələrinin video-konfrans formatında birgə iclası keçirilib.



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, iclasın gündəliyinə birinci oxunuşda iki məsələ - "Azərbaycanın mədəniyyət paytaxtı - Şuşa şəhəri haqqında" qanunda dəyişiklik edilməsi və Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsində, "Sahibkarlıq fəaliyyəti haqqında", "Tarix və mədəniyyət abidələrinin qorunması haqqında", "Bədən tərbiyəsi və idman haqqında", "Mədəniyyət haqqında" və "Reklam haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihələri daxil edilib.

Milli Məclis Sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli iclası açaraq diqqətə çatdırıb ki, ölkə Prezidenti tərəfindən "Azərbaycanın mədəniyyət paytaxtı - Şuşa şəhəri haqqında" qanuna əlavə və dəyişikliklərin edilməsi və bundan irəli gələrək bir sıra qanunlara uyğunlaşdırma xarakterli düzəlişlərin edilməsi ilə əlaqədar qanun layihələri təqdim olunub.

Komitə sədri bildirib ki, Şuşa şəhərində "Azərbaycanın mədəniyyət paytaxtı - Şuşa şəhəri haqqında" Azərbaycan Respublikasının Qanunu və digər normativ-hüquqi aktlarla müəyyən edilən hüquqi tənzimləmə tətbiq edilir. Bu hüquqi tənzimləmə Şuşa şəhərinin ərazisində abidələrin bərpası, qorunması, öyrənilməsi, memarlıq və şəhərsalma fəaliyyəti, reklam fəaliyyəti, habelə müxtəlif səviyyəli tədbirlərin keçirilməsi və digər sahələri əhatə edir. Şuşa şəhərində mövcud abidələrin tam həcmdə qorunması məqsədilə bu qanunun 7.5-ci maddəsindən "arxeoloji" sözünün çıxarılması təklif edilir. Eyni zamanda "Şuşa" adından istifadə etmək üçün xüsusi qaydaların tətbiq edilməsi məqsədilə həmin qanuna 3-1-ci maddənin əlavə edilməsi təklif olunur.

Qeyd edilib ki, yeni maddədə nəzərdə tutulan hallarla bağlı Şuşa Şəhəri Dövlət Qoruğu öz adından və rəsmi "Şuşa" adından istifadə etməkdə müstəsna hüquqa malikdir. Əlavəyə əsasən, hüquqi şəxslərin, o cümlədən media subyektlərinin adlarında, mükafatların və təltiflərin adlarında, yerli, ölkə və ya beynəlxalq səviyyəli tədbirlərin, o cümlədən idman və digər yarışların, konsertlərin, festivalların, sərgilərin, konfransların, seminarların adlarında, kommersiya və reklam məqsədilə, əmtəə nişanlarında və coğrafi göstəricilərdə "Şuşa" sözündən istifadəyə yalnız müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qurumun razılığı ilə yol verilir.

Milli Məclis Sədrinin müavini, Gənclər və idman komitəsinin sədri Adil Əliyev çıxış edərək "Bədən tərbiyəsi və idman haqqında" qanuna təklif olunan dəyişiklikdən bəhs edib. Bildirib ki, qanuna yeni 40.1-1-ci maddə əlavə olunur. Əlavəyə əsasən, Şuşa şəhərinin ərazisində idman yarışlarının "Azərbaycanın mədəniyyət paytaxtı - Şuşa şəhəri haqqında" Azərbaycan Respublikası Qanununun tələbləri nəzərə alınmaqla keçirilməsi təklif olunur. Qeyd olunub ki, dəyişiklik uyğunlaşdırma xarakteri daşıyır.

Sonra İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili "Sahibkarlıq fəaliyyəti haqqında" qanuna təklif olunan dəyişiklikdən danışıb. Bildirib ki, "Azərbaycanın mədəniyyət paytaxtı - Şuşa şəhəri haqqında" qanunda bəzi sahibkarlıq fəaliyyəti növlərinin Şuşada qadağan olunmasını nəzərdə tutan maddə var. "Sahibkarlıq fəaliyyəti haqqında" qanunda isə bu öz əksini tapmayıb. Burada 5-ci maddə yalnız qanunla müəyyən edilmiş hallarda sahibkarlıq fəaliyyətinin məhdudlaşdırılmasına imkan verir. Qanuna "və ya onun ayrı-ayrı növlərinin qadağan olunması" sözlərinin əlavə edilməsi təklif olunur. Dəyişiklik uyğunlaşdırma xarakteri daşıyır və "Azərbaycanın mədəniyyət paytaxtı - Şuşa şəhəri haqqında" qanunun maddələrinin icrasına şərait yaradır.

Təqdim olunan layihəyə əsasən, Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsində, "Tarix və mədəniyyət abidələrinin qorunması haqqında", "Mədəniyyət haqqında" və "Reklam haqqında" qanunlarda da uyğunlaşdırma xarakterli bir sıra əlavə və dəyişikliklər nəzərdə tutulub.

Qanun layihələri ətrafında aparılan geniş müzakirələrdə deputatlar fikirlərini, qeyd və təkliflərini açıqlayıblar. Çıxışlarda sənədlərin vacibliyi, dəyişikliklərin məqsədəmüvafiq olduğu qeyd edilib. Millət vəkilləri Şuşa şəhərinin tarixi-mədəni əhəmiyyəti, onun Azərbaycan xalqı üçün xüsusi mənəvi dəyərindən bəhs ediblər, Şuşaya xüsusi qayğı və həssaslıqla yanaşılmasının önəmini vurğulayıblar.

Onlayn iclasda parlamentin birinci vitse-spikeri Əli Hüseynli müzakirələrdə səslənən fikirlərə münasibət bildirib, sualları cavablandırıb.

Sonra gündəlikdəki hər iki qanun layihəsi birinci oxunuşda Milli Məclisin plenar iclasına tövsiyə olunub.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***




## Şamaxı və Qobustanda yağıntıların çoxalması və düzgün aqrotexniki qulluq tədbirləri dəmyə əkinlərə müsbət təsir göstərib

**"Şamaxı və Qobustan rayonlarında bu il ümumilikdə 72 min hektar sahədə payızlıq taxıl əkini aparılıb. Bu sahələrin 66 min hektara yaxını suvarılmayan ərazilərinin payına düşür.**

Qlobal iqlim dəyişikliyi və atmosfer yağıntılarının azalması dəmyə əkinlərə kifayət qədər mənfi təsir göstərir. Bununla belə, aqrotexniki qulluq tədbirlərinin düzgün aparılması sahələrdən əvvəlki illərdə olduğu qədər məhsul götürməyə imkan verir. Bu baxımdan hər iki rayonun taxılçı fermerləri sahələrdə texnoloji xəritəyə uyğun olaraq aqrotexniki qulluq tədbirləri həyata keçirməlidir".

Bu fikirlər Kənd Təsərrüfatı Nazirliyinin Şamaxı və Qobustanda fermerlərlə keçirdiyi görüşlərdə səslənib. Bildirilib ki, taxılçılıqda hazırda ən mühüm aqrotexniki qulluq tədbirlərindən biri gübrələmə prosesini başa çatdırmaq, zərərvericilərə qarşı mübarizə aparmaqdır. Alaq otlarına qarşı mübarizənin vaxtında aparılması məhsuldarlığın aşağı düşməsinin qarşısını alır, yekun nəticədə fermer daha bol məhsul əldə edir. Hər iki rayonda Dövlət Aqrar İnkişaf Mərkəzlərinin əməkdaşları tərəfindən taxıl sahələrinə mütəmadi baxış keçirilir, monitorinqlər aparılır. Monitorinqlərin nəticələri taxıl sahələrində vəziyyətin qənaətbəxş olduğunu, aqrotexniki qulluq tədbirlərinin vaxtında və düzgün həyata keçirildiyini göstərir. Eyni zamanda mart-aprel aylarında havaların yağıntılı keçməsi taxılın inkişafına müsbət təsir göstərib. Digər rayonlarda olduğu kimi, Şamaxı və Qobustandan olan fermerlər də taxıl sahələrində karbamid gübrəsindən istifadə ediblər və gübrələmə prosesindəki fərqli yanaşma taxılın inkişafına öz müsbət təsirini göstərib. Qeyd olunub ki, düzgün toxum seçimi, gübrənin sahələrə normativlərə uyğun verilməsi vacibdir və bununla bağlı fermerlər arasında maarifləndirmə işləri il boyu davam edir.

Müzakirələr zamanı taxıl sahələrində mövcud durum, suvarma məsələləri, gübrə ilə təminat, əkin sahələrində alaq otlarına və zərərvericilərə qarşı mübarizənin təşkili, bəyan prosesinin gedişi və digər mövzular ətrafında fikir mübadiləsi aparılıb, fermerlərin sualları ətraflı cavablandırılıb, səsləndirilən təkliflər qeydə alınıb.

## Beton və nov kanallar su itkisinin qarşısını alır

Zərdab rayonu ərazisində olan 40595 hektar torpaq sahələrinin suvarılması Zərdab Suvarma Sistemləri İdarəsi tərəfindən həyata keçirilir. Ümumilikdə idarənin balansında 69 ədəd nasos stansiyası mövcuddur ki, həmin nasos stansiyalarında 110 aqreqat quraşdırılıb.

Cari ildə əkin sahələrinin su təminatının yaxşılaşdırılması məqsədilə əlavə nasos stansiyanın quraşdırılması isə suvarmada yarana biləcək problemləri aradan qaldırıb. Ümumilikdə bu il Zərdab rayonunda 19 min hektar sahəyə yaxın taxıl əkilib. Hazırda taxıl sahələrinin suvarılması davam edir.

Zərdablı fermerlər bu il sahələrdən bol məhsul gözləyirlər. Bunun səbəbi isə əkin aparılan torpaqların vaxtında suvarılmasıdır.

Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətindən AZƏRTAC-a bildirilib ki, sahələrə verilən suyun bir hissəsi Kür çayından götürülməklə nasos stansiyaları vasitəsilə kilometrlərlə məsafədə beton və nov kanallarla əkin sahələrinə çatdırılır. İdarənin balansında olan suvarma kanallarının ümumi uzunluğu 1250 kilometrdir. Bunun 92 kilometri nov kanallardır. Suvarmada önəmli yerə malik olan beton və nov kanallar su itkisinin qarşısını almaqla yanaşı, su istifadəçilərini fasiləsiz suvarma suyu ilə təmin edir. Bu il daha 700 metr suvarma kanalının beton üzlüyə alınması planlaşdırılır. Bundan başqa, kanallar üzərində olan hidrotexniki qurğuların da təmiri mütəmadi olaraq aparılır.

Qeyd edək ki, Zərdab Suvarma Sistemləri İdarəsinin əsas su mənbələri Kür, Türyançay və Göyçay çaylarıdır. Suvarma nasos stansiyaları vasitəsilə mexaniki üsulla aparılır. Rayonda hər il taxıl, pambıq, yem bitkiləri, bostan-tərəvəz və çəltik əkilir.




## Keyfiyyətli səpin "ağ qızıl"ın üzağlığı üçün əsas şərtdir

### Neftçalalı fermerlər bu il daha çox pambıq yetişdirməyi hədəfləyiblər

Traktor sahənin o biri başına gedib qayıdır. Torpaq mülkiyyətçisi Məhəmməd Quliyev "MKT" MMC Neftçala filialının pambıq istehsalına nəzarət şöbəsinin müdiri Namiq Bağırovla malalanmış sahəyə girir, traktor gedən istiqamətə doğru bir neçə addım atdıqdan sonra ayaq saxlayırlar. Mexanizatora işarə edirlər ki, dayansın.

Toxumun torpağa lazımi dərinlikdə düşüb-düşməməsini yoxlamaq üçün əllərindəki kiçik taxta parçası ilə torpağı didirlər. N.Bağırov üzünü mülkiyyətçi M.Quliyevə tutaraq: "Lap yaxşıdır", - deyir. Traktorçu Məhyəddin Kazımov da onun sözünə şərik çıxır: "Yaxşı yox, buna əla demək olar. Arat da çox yaxşı alınıb", - deyir və sonra sanki fikrini təsdiqləmək üçün əyilərək yerdən bir ovuc torpaq götürüb sıxır, barmaqlarının izi qalmış torpağı yerə atır. Torpaq un kimi ovulur. N.Bağırov gülümsəyərək deyir: "Görürəm, illəri yelə verməmisən. Təkcə əkində deyil, becərmə zamanı səliqəli, keyfiyyətli kultivasiya çəkdiyini, şum aparmağını, digər işləri də bacarıqla etdiyini yaxşı bilirəm". Traktorçu cavabı ləngitmir: "Deyirsən, yəni keyfiyyətsiz də iş görə bilərəm?! Gör nə vaxtdan bu "dəmir"lə dostluq edirəm! Uzun müddət kolxozumuzun sədri olmuş rəhmətlik Nuruş Əliyev ən çətin, məsuliyyətli işləri mənə tapşırardı. Deyəsən, özümü təriflədim. Buna görə üzr istəyirəm. Nə isə, söhbət qoyunu qurda verər", - deyib "dəmir köhlən"in kabinəsinə qalxır, traktoru hərəkətə gətirir.

Biz isə torpaq mülkiyyətçisi, M.Quliyevə bir neçə sualla müraciət edirik. O da cavabında bildirir: "Pambıq yetişdirmək sərfəlidir. Əvvəla, müqavilə bağladığın şirkət həmişə sənə kömək edir, şumdan tutmuş yığıma qədər hər gün yanında olur, istənilən texnikanı, gübrəni, lazımi dərmanları verir, sahəni alaq otlarından təmizlətmək, suvarmanı aparmaq üçün pul ödəyir, digər tərəfdən yetişdirdiyin pambığı yığmaqda, satmaqda problemlə qarşılaşmırsan. Bunlar çox mühüm şərtlərdir. Bunların sayəsində keçən il hər hektardan 55 sentner məhsul götürmüşəm. Cari il ötən ildəkindən də çox pambıq əkmək üçün müqavilə bağlamışam. İnşallah, yenə hər şey yaxşı olacaq".

Qaramanlı kəndinin çölləri ilə Salyan-Neftçala şose yoluna sarı yönəlirik. Hər tərəfdə qızğın iş gedir. Yedəklərinə Türkiyə istehsalı olan "Cansa" çiyidsəpən aqreqatları, malalar qoşulmuş traktorlar sahələrə tələsir. Qabaq-qənşər gələnlər saxlayıb "MKT" filialının şöbə müdiri Namiq Bağırovla salamlaşır, hansı mülkiyyətçinin sahəsinə getdikləri barədə sorğuya cavab verirlər. N.Bağırov da öz göstərişlərini verir.

Müsahibimdən yol boyu öyrənirik ki, filial keçən ili çox yaxşı nəticələrlə başa vurub. 4 min 869 hektar sahədən 16 min 651 ton pambıq yığılıb. Məhsuldarlıq 34,2 sentner olub. Bu, ölkədə pambıqçılıqla məşğul olan şirkətlər arasında ən yüksək göstəricidir. Yaxşı haldır ki, istehsal edilən pambığın 90 faizi maşınlarla yığılıb. Bu da mülkiyyətçilər və fermerlərə məhsulun maya dəyərinin aşağı salınmasında, xalis gəlirin yüksəldilməsində kömək etmişdir. Lakin pambığın faydası təkcə bunlarla məhdudlaşmır, növbəli əkinin həyata keçirilməsində də onun çox mühüm rolu vardır. Belə ki, pambıq digər bitkilər üçün yaxşı sələfdir. Pambıq əkilən sahəyə növbəti il arpa, buğda, yonca və s. bitkilər əkdikdə daha yüksək məhsul götürmək olur. Sadaladığımız məziyyətləri nəzərə alan neftçalalı sahibkarlar daha çox "ağ qızıl" yetişdirməyi qarşılarına məqsəd qoymuşlar.

Təkcə "MKT" Neftçala filialı üzrə 1088 fermer 5 min 49 hektarda pambıq əkini aparacaq. İndiyədək 1000 hektardan çox sahəyə çiyid səpilib. Hazırda əkin sürət götürür. Su qoyulan sahələr mütəxəssislər tərəfindən hər gün diqqətlə nəzərdən keçirilir. Torpaq arata düşən kimi dərhal səpinə başlanılır. Texnika sarıdan isə heç bir çətinlik yoxdur. 11 şum traktoru, 34 müxtəlif növ mala, 63 "Cansa" markalı toxumsəpən aqreqat, habelə digər texnikalar torpaq mülkiyyətçilərinin və fermerlərin ixtiyarındadır.

Neftçalada pambıq istehsalı və tədarükü ilə bir neşə şirkətin yerli təşkilatları məşğul olur. 2021-ci ildə həmin təşkilatlar tərəfindən 22 min 871 ton məhsul tədarük edilmişdir. Rayon üzrə hər hektarın məhsuldarlığı 32,9 sentner olmuşdur ki, bu da əvvəlki ildəkindən çoxdur. Yüksək məhsuldarlıq, yaxşı qazanc pambıqçılığa marağı daha da artırmışdır. Cari ildə 2 min torpaq mülkiyyətçisi və fermer 8 min 757 hektarda pambıq yetişdirməyi planlaşdırmışdır. Bu da keçən ildəkindən 2 min hektara yaxın çox əkin sahəsi deməkdir. Səpini optimal müddətdə başa çatdırmaq üçün kifayət qədər çiyid, texnika, ammofos gübrəsi vardır. Havalar istiləşdikcə səpin sürət götürür. İşlərin gedişi göstərir ki, "ağ qızıl" bu il də neftçalalıların üzünü ağ edəcək.

*Seyran CAVADOV, "Azərbaycan"*



## Bu günlər kəndlini evdə tapmaq çətindir

### Goranboyda yaz-tarla işlərinin qızğın vaxtıdır

Regionların sosial-iqtisadi inkişafı dövlət proqramlarında nəzərdə tutulan tədbirlərin icrası Goranboy rayonunun da inkişafına böyük təkan vermişdir. Xüsusən kənd təsərrüfatı məhsulları istehsalçılarına yaradılan şərait, verilən hərtərəfli dəstək aqrar sektorun inkişafını sürətləndirmişdir.

Əvvəlki illərdə olduğu kimi, ötən il də rayon üzrə kənd təsərrüfatı məhsullarının istehsalı xeyli, daha dəqiq desək, 6,8 faiz artmışdır. Bu isə 124 milyon 894,4 min manatlıq məhsul deməkdir. Onun 48 milyon 459 min manatı heyvandarlıq, 76 milyon 435,4 min manatı bitkiçilik məhsullarının payına düşür. Rayonda bitkiçilik üzrə daha çox taxıl, tərəvəz, bostan və yem bitkiləri, eləcə də şəkər çuğunduru, günəbaxan, kartof, dən üçün qarğıdalı, üzüm və digər kənd təsərrüfatı məhsulları istehsal edildi.

Goranboyda son dövr pambıqçılıq və tütünçülüyə daha çox maraq var. Keçən il 2647,3 hektardan 7,4 min ton pambıq, 8 hektardan 13,2 ton tütün toplanaraq təhvil verilmişdir. Rayonda pambığın becərilməsi və tədarükü ilə, əsasən, "MKT İstehsal Kommersiya", "Azərpambıq" və "Goran-Cotton" MMC-lər məşğul olur. Cari ilin məhsulu üçün 2561,2 hektarda şum aparılmışdır. Hazırda həmin sahələrə çiyid səpilir.

Tütünün isə rayonun Qarqucaq, Zeyvə, Şəfəq, Yenikənd və Qaraçinar kəndlərində, ümumilikdə 8 hektar sahədə əkilməsi nəzərdə tutulmuşdur. Artıq həmin sahələr şumlanmışdır. Cari il 4 hektarda "Verciniya", 4 hektarda isə "Berley" sortlarının əkilməsi planlaşdırılmışdır. Paralel olaraq tütünqurutma məntəqələrində təmir-bərpa işləri də aparılmışdır. Həmçinin tütünün becərilməsi üçün tələb olunan bütün zəruri tədbirlər görülmüş, o cümlədən işçi qüvvəsi, müxtəlif növ gübrələr, herbisitlər və dərmanlar tədarük edilmiş, kənd təsərrüfatı texnikaları saz vəziyyətə gətirilmişdir.

Rayonda iqtisadi cəhətdən səmərəli olan baramaçılığa da meyil var. Cari il rayonda baramaçılığın inkişafı məqsədilə yem bazasının təminatı üçün 2600 yeni tut tingi əkilmişdir. Bununla tut ağaclarının sayı 33600 çatmışdır. Aldığımız məlumata görə, cari il nəzərdə tutulan 130 qutu baramanın saxlanılması üçün 41 yaşayış məntəqəsində 55 kümxana müəyyən edilmişdir. Kümxanalarda təmir-bərpa və dezinfeksiya işləri yekunlaşmışdır. Ötən il rayonda 6000 kiloqram barama istehsal edən kümçülər cari il bu rəqəmi bir qədər də artırmaq əzmindədirlər. Yaxın günlərdə Şəki damazlıq məntəqəsindən inqubasiya olunmuş ipəkqurdlarının gətirilməsi və kümçülərə təhvil verilməsinə başlanacaq.

*Sabir ƏLİYEV, "Azərbaycan"*

## Muğanlı-İsmayıllı-Qəbələ avtomobil yolunda yenidənqurma işləri davam edir

Bu yol üzərində inşa edilən asma körpü və yeraltı tunel uzunluğuna və hündürlüyünə görə Azərbaycanda bir ilkdir. Avtomobil yolu paytaxt Bakı ilə İsmayıllı, Qəbələ, Oğuz, Şəki, Qax, Zaqatala və Balakən rayonlarını birləşdirən ən qısa yol olacaq.

Layihə başa çatdıqdan sonra paytaxt Bakı istiqamətindən şimal-qərb rayonlarına doğru hərəkət edən sürücülər Ağsu çayı üzərində hündürlüyü 76 metr, uzunluğu 1135 metr olan asma körpüdən keçəcəklər. Asma körpüdən çıxan avtomobillər 300 metrlik asfalt yolla hərəkət etdikdən sonra, uzunluğu 865, hündürlüyü 9 metr olan dördzolaqlı yola daxil olacaqlar. Sürücülər asma körpüdən, eləcə də yeraltı tuneldən keçməklə həm az məsafə qət edəcək, həm də mənzil başına daha tez və rahat çatacaqlar.

Hazırda dörd ərazidə ümumi uzunluğu 2,6 kilometr olan svay istinad divarlarının, drenaj sistemlərinin tikintisi və digər mühəndis işləri aparılır. Qurğular normalara əsasən, 9 ballıq zəlzələyə davamlı inşa edilir.

Layihə rəhbəri Zahir Həsənov bildirib ki, Muğanlı-İsmayıllı-Qəbələ avtomobil yolunun Muğanlıdan keçən hissəsində, Ağsu çayı vadisində dolamalar mövcuddur. Qışda, xüsusilə qarlı-şaxtalı havalarda hərəkət çətinləşir: "Bu layihə başa çatdıqdan sonra həmin problemlər də aradan qalxacaq. Şamaxıdan çıxan nəqliyyat vasitəsi heç bir dolama olmadan bu vadidən keçəcək və rahat hərəkət edəcək. Digər üstünlük ondan ibarətdir ki, yeni inşa edilən yol dörd zolaqdan ibarətdir. Bu da öz növbəsində hərəkəti asanlaşdıracaq".

Layihənin icrası nəticəsində həm məsafə qısalacaq, nəqliyyat xərcləri azalacaq, hərəkətin təhlükəsizliyi təmin olunacaq, həm də regionun potensialından istifadə etmək üçün yeni imkanlar yaranacaq, eyni zamanda turizm inkişaf edəcək.

İsmayıllı sakini Cəmil Xalidoğlu da yeni yolun turistlərin bölgələrə daha çox gəlib-getməyinə səbəb olacağını söyləyib: "Düzdür, turistlər indi də gəlib-gedir, amma çox vaxt qonaqlar yol narahat olduğuna görə bu ərazilərə gəlmirlər. Yeni yol rahat olacaq, məsafəni azaldacaq. Yeraltı tunel, asma körpü də bu yerlərə əlavə gözəllik qatacaq".

Muğanlı-İsmayıllı-Qəbələ yolu yenidənqurma nəticəsində 9,7 kilometr qısalaraq 76,8 kilometr təşkil edəcək. Mövcud ikizolaqlı yol genişləndirilərək dördhərəkət zolağından ibarət olacaq.



## Taxıl sahələrində ikinci suvarma aparılır

Mühüm strateji sahə olan taxılçılıq Ağdaş rayonunda kənd təsərrüfatının aparıcı istiqamətlərindəndir və hazırda hər yerdə yüksək məhsul üçün zəruri olan ikinci suvarma kampaniyası davam etdirilir.

Rayon Dövlət Aqrar İnkişaf Mərkəzindən AZƏRTAC-a bildirilib ki, cari ilin məhsulu üçün 16 min 62 hektar sahədə taxıl yetişdirilib. Əkinlərin 15 min 112 hektarı suvarılan sahələrdir. Hazırda bütün ərazi dairələrində bu zəruri aqrotexniki tədbirin yüksək keyfiyyətlə başa çatdırılması üçün ciddi səy göstərilir. Rayonda daha çox taxıl əkilən Yuxarı Nemətabad, Ərəb, Ərəbocağı, Qoşaqovaq, Qolqəti və bir sıra digər icra nümayəndəliklərində bu mühüm tədbir daha yüksək aqrotexniki tələblər səviyyəsində həyata keçirilir.

Sahələrin suvarılması mütəxəssislərin nəzarət altında aparılır.

Qeyd edək ki, rayonda əkinlər Türyançay, Yuxarı Şirvan kanalı və Kür çayı vasitəsilə suvarılır.

## Qobustanda aqrar sektorda ümumi məhsul buraxılışının həcmi 9,8 faiz artıb

Qobustan rayonunda kənd təsərrüfatı iqtisadiyyatın aparıcı sahəsidir.

Cari ilin birinci rübündə bu sahədə ümumi məhsul buraxılışının həcmində 9,8 faiz artım olub.

Rayon Statistika İdarəsindən AZƏRTAC-a bildirilir ki, 2022-ci ilin ilk üç ayında Qobustanda kənd təsərrüfatında ümumi məhsul buraxılışının həcmi ötən ilin eyni dövrü ilə müqayisədə 1 milyon 186,9 min manat artaraq 13 milyon 296,5 min manata çatıb.

Cari ilin birinci rübündə məhsul buraxılışında artım əsasən heyvandarlığın payına düşüb.






# Gənclik






● Qarabağ Azərbaycandır!



# Güclü Lider, vətənpərvər gənclik

**Müasir Azərbaycan dövlətinin qurucusu Ulu Öndər Heydər Əliyevin hakimiyyətinin hər iki dövründə gənclərə diqqət və qayğı xüsusi yer tutub. Ümummilli Lider bildirirdi ki, gələcəyimiz indiki gənclərə nəyi və necə öyrətməyimizdən asılıdır. Odur ki, zəngin idarəetmə təcrübəsinə malik olan dünya şöhrətli siyasətçi respublika rəhbərliyinə gəldiyi ilk vaxtdan öz siyasətində gənclərin savadlı, sağlam və vətənpərvər ruhda böyüməsinə daim qayğı göstərdi.**

Bu gün insanlarda qürur hissi doğuran həm də odur ki, Azərbaycanın gündən-günə güclənməsində, qüdrətlənməsində, dünya birliyində layiqli yer tutmasında gənclərin rolu böyükdür. Uğurlarımıza diqqət çəkərkən, bunun təbii ki, işgüzar və vətənpərvər gənclərin səyləri, qətiyyəti sayəsində qazanıldığının bir daha şahidi oluruq. Ölkəmizdə əhalinin 60 faizdən çoxunu gənclər təşkil edir. Gənclərə diqqət və qayğının dövlət siyasətinin əsas tərkib hissəsinə çevrilməsi onlara olan etimaddan irəli gəlir. Gəncləri Azərbaycanın gələcəyi, müasir Azərbaycanın qurucuları kimi dəyərləndirən Ulu Öndərin 1997-ci il 2 fevral fərmanına əsasən, bu günün Azərbaycanda Gənclər Günü olaraq dövlət səviyyəsində təntənə ilə qeyd edilməsi gənc oğlan və qızlarımıza sanki əlavə güc, stimul verir. Gənclərin ən sevimli məşğuliyyəti olan idmanla yanaşı, ictimai-siyasi işlərə geniş cəlb olunması bu strategiyanın təməl prinsiplərinə çevrilib. Odur ki, gənclər göstərilən etimadı fəaliyyətlərində ləyaqətlə doğrultmağa böyük səy göstərirlər.

Xatırladaq ki, müstəqilliyimizin ilk illərində digər sahələr kimi, orduda da vəziyyət acınacaqlı idi. Hərbi çağırışdan yayınma halları mövcud idi. Amma Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra ordu quruculuğu sahəsində də əsaslı islahatlar aparıldı. İnsanların dövlətçiliyə və orduya münasibəti dəyişdi. "Vətən mənə oğul desə, nə dərdim" prinsipi gənclərimizin fəaliyyətinin əsasına çevrildi. Gənclər çağırış məntəqələrinə könüllü gedərək hərbi xidmət borclarını yerinə yetirməyə başladılar. Təbii ki, bu da gənclər arasında vətənpərvərlik tərbiyəsinin yüksəlməsi ilə bağlı idi. Bu gün hər çağırış gənclərin böyük vətənpərvərlik coşqusu ilə qarşılanır.

Gənclərimiz bu gün Azərbaycanın xarici ölkələrdə təbliğatçılarıdır. Heydər Əliyev Fondunun vitse-prezidenti, Rusiya Azərbaycanlı Gənclər Təşkilatının sədri, İslam Əməkdaşlıq Təşkilatının Gənclər Forumunun baş əlaqələndiricisi Leyla xanım Əliyevanın gördüyü işlər gənclərimiz üçün örnəkdir. Onun fəaliyyətində tariximizin, mədəniyyətimizin təbliği prioritet istiqamətlərdəndir. Leyla xanım Əliyevanın təşəbbüsü ilə hər il nəinki respublikamızda, dünyanın bir çox xarici ölkələrində keçirilən "Xocalıya ədalət!" beynəlxalq kampaniyası çərçivəsində bütün dünya xalqlarına bəyan edilir ki, genosidə məruz qaldıqlarını saxta fakt və iddialarla sübuta yetirməyə çalışan ermənilər tərəfindən əsl soyqırıma məruz qalan Azərbaycan xalqıdır.

Təməli Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan gənclər siyasəti Prezident İlham Əliyev tərəfindən 19 ildir uğurla davam etdirilir. Dövlət başçısının ictimaiyyət nümayəndələri ilə görüşlərində dəfələrlə səsləndirdiyi kimi, hər bir dövlət onda güclü olur ki, onun qüdrətli iqtisadiyyatı və güclü ordusu var. Təbii ki, bu ordunun əsasını gənclər təşkil edir. Danılmaz faktdır ki, gənclərimizin bu gün dövlət başçısı İlham Əliyevin fərmanı ilə hərbi xidmətə böyük ruh yüksəkliyi ilə getmələri onlarda Vətən sevgisinin böyüklüyündən xəbər verir. Uğurlu siyasət, gənclərə göstərilən inam və etimad 2020-ci il İkinci Qarabağ savaşında öz möhtəşəmliyi ilə diqqət çəkdi. Bu möhtəşəmliyi daha əzəmətli edən isə, milli dövlətçiliyə sədaqətli, Prezidentinə güvənli vətənpərvər gənclər nəslinin yetişdirilməsidir. Güclü lider və vətənpərvər gənclik birliyinin təsdiqi Ulu Öndərin qərarları ilə bərabər, yeni dünyanın siyasi fenomeni, Vətən müharibəsinin qalib sərkərdəsi Prezident İlham Əliyevin "dəmir yumruğ"un Zəfərində 200 ildən artıq əsarət altında olan Azərbaycan torpaqlarının işğaldan azad edilməsini hədəfləyən uğurlu siyasi manevrlərində də aydın müşahidə edildi. Azərbaycan gəncləri tarixin və tərəqqipərvər bəşəriyyətin şahidliyi ilə 2020-ci il sentyabrın 27-də başlanan və 44 gün çəkən Vətən müharibəsindən Zəfər ilə çıxdılar. Onlar Prezident İlham Əliyevin gözləntilərini layiqincə doğrultdular.

Azərbaycan gəncliyi öhdəsinə düşən vəzifələri həmişə layiqincə yerinə yetirib, ölkədə gedən proseslərin daim önündə olub. Bu, ondan irəli gəlir ki, Azərbaycan dövləti gənclərə hər zaman malik olduqları bacarıq, qabiliyyət və intellektual imkanlar müqabilində geniş meydan verməyin tərəfdarı kimi çıxış edir, bu təbəqəyə daim böyük diqqət və qayğı ilə yanaşır. Ölkəmizin uğurlu idman nəticələri, eyni zamanda bu sahəyə dövlət tərəfindən göstərilən dəstək, dövlət proqramlarının yüksək səviyyədə icrası, əlbəttə ki, beynəlxalq idman qurumları tərəfindən də yüksək qiymətləndirilir. Əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulan və Prezident İlham Əliyevin uğurla davam etdirdiyi gənclər və idman siyasətinin müsbət nəticələri bu gün beynəlxalq arenada da öz təsdiqini tapır.

Ölkəmizdə gənclərin vətənpərvər ruhda böyüməsi, onların dinamik və hərtərəfli inkişafı üçün həyata keçirilən məqsədyönlü siyasətin mühüm istiqamətlərindən biri gənclərin fiziki tərbiyəyə marağını artırmaq, onların peşəkar və həvəskar şəkildə idmanla məşğul olmasını təşviq etməkdir. Məhz bunun nəticəsidir ki, idmançılarımız Azərbaycan bayrağını dünyanın müxtəlif ölkələrində ən uca zirvələrə qaldıra bilir, himnimizi səsləndirirlər.

Təsadüfi deyil ki, artıq bütün dünyada Vətənimiz idman ölkəsi kimi tanınır. Buna səbəb müxtəlif idman növlərində güclü idmançılarımızın olması ilə yanaşı, həm də evsahibliyi etdiyimiz beynəlxalq və respublika əhəmiyyətli kütləvi idman tədbirlərinin yüksək səviyyədə keçirilməsidir. Bütün bu fəaliyyətlər Azərbaycanda idmanın kütləvi xarakter almasına, gənclərin zərərli vərdişlərdən uzaqlaşaraq peşəkar və həvəskar şəkildə idmana marağının artmasına səbəb olur. Bir neçə gün bundan əvvəl Budapeştdə keçirilmiş Avropa Çempionatında da güləşçilərimiz uğurlu nəticələr əldə ediblər. Bu münasibətlə Prezident İlham Əliyev həmin çempionatda iştirak edən Azərbaycan millisinin üzvləri ilə görüşü zamanı güləş üzrə milli komandamızın bir daha xalqımızı sevindirdiyini, 16 medal qazanaraq Vətənə fərəhlə qayıtdığını məmnunluqla qeyd edib. Prezident İlham Əliyev görüş zamanı xüsusi olaraq vurğulayıb ki, idmançılarımız yarışa çıxanda unutmamalıdırlar ki, onlar müzəffər ölkəni və qalib xalqı təmsil edirlər. Həm gənclər, həm böyüklər arasında Avropada birinci yeri tutmaq böyük nailiyyətdir və bu, onu göstərir ki, güləşdəki ənənələrimiz yaşayır və güclü gənc nəsil yetişir. Əldə olunan uğurlar ölkəmizin və idmanımızın beynəlxalq nüfuzunu artırır.

Gənclərimizin vətənpərvər ruhda böyüməsində idman böyük rol oynayır və gənc nəsil vətənpərvərlik ruhunda tərbiyə olunur. Dövlətimiz buna nail olmaq üçün gənclərə bütün imkanları yaradır. Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu və Prezident İlham Əliyevin yeni mərhələyə qaldırdığı dövlət gənclər siyasəti respublikamızda yetişməkdə olan vətənpərvər gənclərin inkişaf yoluna işıq salıb, onları dövlət quruculuğunda və idarəçiliyində, bir sözlə, cəmiyyət həyatının bütün sahələrində iştirak edən güclü sosial təbəqəyə çevrilməsini təmin edib.

Milli Ordu sıralarında vətənpərvər gənclərin şücaəti və qəhrəmanlığı sayəsində əsrin qələbəsi kimi qiymətləndirilən Zəfərimizin memarı İlham Əliyevin adı güclü lider kimi xalqımızın qəlbinə əbədi həkk olunub. Dünyanın harasında yaşamasından asılı olmayaraq, sülhpərvər insanlar güclü lideri, qalib vətənpərvər Azərbaycan gənclərini xüsusi ehtiram və sevgi ilə xatırlayırlar. Ölkəmizdə gəncliyə dövlət qayğısı sabaha və uğurlara hesablanan bir siyasətdir və bu siyasət sağlam və intellektual nəslin formalaşmasına xidmət edir. Azərbaycan gəncliyi özünü sabahın əsl qayğıkeşi hesab edir. Nəinki Azərbaycanda, respublikamızdan kənarda yaşayan, təhsil alan və hər hansı müəssisədə çalışan azərbaycanlı gənclər də qalib liderinə, Azərbaycan Prezidenti İlham Əliyev siyasətinə, onun tələb və tövsiyələrinə həmişə sadiq və sədaqətli olmağa çalışırlar.

***Rəhman SALMANLI,***
***"Azərbaycan"***

● Gələcəyə dəstək

## Qoşulmama Hərəkatının Gənclər Şəbəkəsinin məlumat sessiyası keçirilib



**Azərbaycan Dövlət İqtisad Universitetində (UNEC) keçirilən tədbirdə çıxış edən Xarici İşlər Nazirliyinin Beynəlxalq Təhlükəsizlik İdarəsinin rəisi Yalçın Rəfiyev Qoşulmama Hərəkatı barədə tələbələrə məlumat verib. Sülhün, təhlükəsizliyin, beynəlxalq hüququn və ədalətin gücləndirilməsinə töhfə vermək məqsədilə Azərbaycanın 2011-ci ildə Qoşulmama Hərəkatı ailəsinə qoşulduğunu bildirib. Qısa müddət ərzində ölkəmizin böyük etimad və hörmət qazandığını, Azərbaycanın 2019-2022-ci illər üçün Qoşulmama Hərəkatının sədri seçildiyini, ölkəmizin sədrliyinin müddətinin bir il uzadıldığını diqqətə çatdırıb.**

Sonra Qoşulmama Hərəkatı Gənclər Şəbəkəsinin sədri Orduxan Qəhrəmanzadə və katibliyin rəhbəri Ceyran Cəfərova çıxış ediblər. Bildiriblər ki, Gənclər şəbəkəsinin əsas məqsədi üzv dövlətlərindən olan gənclərin davamlı tərəqqisinə nail olmaq, onların qarşılaşdıqları problemlərin aradan qaldırılması üçün vətəndaşı olduqları ölkələrin birgə və adekvat səyləri barədə fikir mübadiləsinə şəraitin yaradılmasıdır. Çıxış edənlər gələcək layihələr barədə məlumatı da tələbələrlə bölüşüb, gəncləri bu istiqamətdə fəal olmağa dəvət ediblər.

UNEC-in prorektoru dosent Şaiq Əsgərov Qoşulmama Hərəkatının 44 günlük Vətən müharibəsində ölkəmizə göstərdiyi dəstəkdən söz açıb. Prorektor tələbələrin Qoşulmama Hərəkatının Gənclər şəbəkəsində fəallığını artırmaq məqsədilə UNEC-də həmin şəbəkənin universitet üzrə nümayəndəliyinin yaradılmasını təklif edib.

Tədbirdə Qoşulmama Hərəkatının 60 illiyinə həsr edilən videoçarx nümayiş olunduqdan sonra tələbələrlə sual-cavab sessiyası keçirilib.

● İnkişaf təhsildən başlayır



# Gənclərin nüfuzlu xarici universitetlərdə təhsil almalarına imkan yaradılır

**Azərbaycan öz dövlət müstəqilliyini bərpa etdikdən sonra əksər sahələrdə olduğu kimi, təhsil sahəsində də bir sıra tədbirlər, layihələr və dövlət proqramları həyata keçirildi. Prezidentin 2007-ci il 16 aprel tarixli sərəncamı ilə təsdiq edilmiş "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı" çərçivəsində ölkə vətəndaşlarının dünyanın 32 ölkəsinin 350-dən çox nüfuzlu ali təhsil müəssisəsində təhsil almaları məqsədilə ümumilikdə 3558 təqaüd verildi.**

Dövlət başçısının 2018-ci il 11 noyabr tarixli sərəncamı ilə təsdiq edilmiş "2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı"nın əsas hədəfi isə qabaqcıl elmi nailiyyətlərdən, innovativ təlim-tədris texnologiyalarından yararlanaraq respublikada yeni nəsil mütəxəssislərin yetişdirilməsi, ali təhsil sisteminin məzmun və keyfiyyət göstəricilərinin beynəlxalq ikili diplom proqramları ilə müasirləşdirilməsidir. Həmin proqram çərçivəsində 4 ikili diplom proqramının icrasına başlanılıb. Bu gün ABŞ-ın Corc Vaşinqton Universiteti ilə Azərbaycan Dövlət Pedaqoji Universiteti və ADA Universiteti, Bakı Mühəndislik Universiteti ilə Koreya Respublikasının İnha Universiteti, Türkiyənin Ege Universiteti ilə Azərbaycan Dövlət Aqrar Universitetinin ikili diplom proqramları həyata keçirilir. Yerli ali təhsil müəssisələrinin akademik potensialının gücləndirilməsi üçün bu proqramlar çərçivəsində 127 Azərbaycan gəncinin xaricdə nüfuzlu universitetlərdə və elm mərkəzlərində doktorantura səviyyəsində təhsili maliyyələşdirilir. Həmçinin Azərbaycan gənclərinin xaricdə bakalavriat, magistratura və doktorantura səviyyələrində təhsilinin təşkili istiqamətində hökumətlərarası təqaüd proqramları da həyata keçirilir. Hazırda 700 nəfərə yaxın azərbaycanlı gənc həmin proqramlar çərçivəsində Çin Xalq Respublikası, Latviya, Macarıstan, Qazaxıstan, Rumıniya və digər ölkələrdə təhsil alır.

Bunlardan əlavə, 2016-cı ildən fəaliyyətə başlamış Azərbaycan-Fransız Universitetində geofizika mühəndisliyi, neft-qaz mühəndisliyi, kimya mühəndisliyi və kompüter elmləri olmaqla bakalavriat və magistratura səviyyəsində ikili diplom proqramları reallaşdırılır. Eyni zamanda ADA Universiteti, Azərbaycan Dövlət İqtisad Universiteti, Azərbaycan Memarlıq və İnşaat Universiteti, Bakı Dövlət Universiteti, Bakı Ali Neft Məktəbi və digər ali təhsil müəssisələrində də ikili diplom proqramları həyata keçirilir.

Dövlət başçısı İlham Əliyevin 2021-ci il 2 fevral tarixli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"in dünyada artan rəqabətə davam gətirə bilmək üçün iqtisadiyyatın uzunmüddətli inkişafının müasir və güclü təhsilə arxalanmasına, məhz təhsil vasitəsilə insan kapitalının milli sərvətdə iştirak payının davamlı şəkildə artırılmasına dair müddəaları ölkədə insan kapitalının inkişafı baxımından xüsusi əhəmiyyət kəsb edir.

Xəbər verildiyi kimi, 2022-ci il fevralın 28-də Prezident İlham Əliyev "Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022-2026-cı illər üçün Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında sərəncam imzalayıb. Bu sərəncam dövlət başçısının "Azərbaycan gənclərinin nüfuzlu xarici ali təhsil müəssisələrində təhsil imkanlarının genişləndirilməsi haqqında" 2021-ci il 30 sentyabr tarixli sərəncamının icrasını təmin etmək məqsədilə verilib.

"Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022-2026-cı illər üçün Dövlət Proqramı"nın əsas məqsədi gənclərə xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsilalma imkanları yaratmaqla, Azərbaycanın dayanıqlı inkişafını təmin edəcək və qlobal çağırışlara cavab verəcək yeni texnologiyaları çevik mənimsəyən, praktiki bilik və bacarıqlara yiyələnən, müasir və gələcək əmək bazarının tələblərinə cavab verən rəqabətqabiliyyətli və yüksəkixtisaslı peşəkar kadrların hazırlanmasını təmin etməkdir. Qeyd olunan dövlət proqramı bu sahədə mövcud olan beynəlxalq təcrübə və meyillər nəzərə alınaraq hazırlanıb. Sənəddə qeyd olunub: "Dövlət Proqramında bu sahədə müşahidə edilən qlobal trendlər və onların ölkə potensialına təsirləri qiymətləndirilmiş, mövcud vəziyyət təhlil edilmiş, uzunmüddətli dövr üçün strateji baxış formalaşdırılmış, hədəf göstəriciləri və prioritet istiqamətlər, o cümlədən icra müddətləri göstərilməklə müvafiq tədbirlər, əsas və digər icraçılar, gözlənilən təsirlər, icra mexanizmləri təsbit edilmişdir".

"Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022-2026-cı illər üçün Dövlət Proqramı"nın icrası müddətində hər il 400 nəfərdən çox olmamaqla ümumilikdə 2000 nəfərədək Azərbaycan Respublikası vətəndaşının xaricdə nüfuzlu ali təhsil müəssisələrində ali təhsilin bakalavriat və magistratura səviyyələrində təhsil almasının təmin edilməsi nəzərdə tutulub. Dövlət proqramı çərçivəsində xarici ali təhsil müəssisələrində təhsil yerlərinin ən azı 80 faizi ali təhsilin magistratura səviyyəsini əhatə edəcək.

Gənclərə xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsilalma imkanları yaratmaqla, onların Azərbaycanın gələcək inkişafını təmin edəcək və qlobal çağırışlara cavab verəcək müasir texnologiyaları çevik mənimsəyən, praktiki bilik və bacarıqlara yiyələnən, müasir və gələcək əmək bazarının tələblərinə cavab verən rəqabətqabiliyyətli və yüksəkixtisaslı peşəkar kadrlar kimi hazırlanmasını təmin etmək dövlət proqramının əsas məqsədidir.

"Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022-2026-cı illər üçün Dövlət Proqramı"nda Azərbaycan Respublikası vətəndaşı olan istedadlı, intellektual səviyyəsi və idarəçilik keyfiyyətləri yüksək olan perspektivli gənclərin nüfuzlu xarici ali təhsil müəssisələrində təhsil almaları nəzərdə tutulub. Bu baxımdan, dövlət proqramına əsasən, beynəlxalq fənn olimpiadalarının, beynəlxalq müsabiqələrin və yarışların qaliblərinə nüfuzlu xarici ali təhsil müəssisələrində ali təhsilin bakalavriat səviyyəsi üzrə təhsil almaq istiqamətində, bakalavriat səviyyəsini yüksək nəticələrlə başa vurmuş, intellektual səviyyəsi və idarəçilik keyfiyyətləri yüksək olan perspektivli gənclərə isə magistratura səviyyəsində üstünlük veriləcək.

Qeyd edək ki, artıq Təhsil Nazirliyi tərəfindən 2022-2023-cü tədris ili üçün prioritet ixtisas sahələri və nüfuzlu xarici ali təhsil müəssisələri üzrə təhsil proqramlarının siyahısı hazırlanıb. Prezident İlham Əliyevin müvafiq sərəncamı ilə təsdiq edilmiş "Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022-2026-cı illər üçün Dövlət Proqramı"nın həyata keçirilməsi üzrə Tədbirlər Planı"nın müvafiq bəndinə uyğun olaraq müəyyənləşdirilən siyahı hazırlanarkən təhsil müəssisələrinin "Times Higher Education (THE) World University Rankings" və "Academic Ranking of World Universities (Shanghai)" beynəlxalq reytinqlərindəki sıralamaları, həmçinin "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı" çərçivəsində təhsil təcrübəsi əsas hesab edilib. Bununla da dövlət proqramının 15 prioritet ixtisas sahələrinə (informasiya texnologiyaları, mühəndislik, statistika və verilənlərin təhlili, fundamental və tətbiqi elmlər, ictimai səhiyyə, təhsil, ətraf mühit, aviasiya və kosmos, dövlət idarəetməsi, nəqliyyat və logistika, energetika, iqtisadiyyat, maliyyə, arxitektura və dizayn, kənd təsərrüfatı) uyğun təhsil müəssisələrində bakalavriat və əsas etibarı ilə magistratura səviyyələrində Azərbaycan gənclərinin təhsili üçün imkan yaradılmasına diqqət yetirilib.

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***



Bir filmin taleyi

# İslamın ən böyük təbliğat filmi



## Çəkilişi dayandırıldı, yayımına qadağa qoyuldu, rejissoru ölümlə hədələndi, amma dünyada islama ən böyük rəğbət gətirən film oldu - "Çağırış"ın hekayəsi

Nədənsə, bu filmə, adətən, dini bayramlarımızda, islamın əlamətdar günlərində baxırıq. Nümayiş olunduğu an əlimizdəki pultu kənara qoyub başqa proqramların axtarışına çıxmır, dəfələrlə seyr etsək belə, hər dəfəsində ilk dəfə baxırmışıq kimi böyük hiss və həyəcanla ona köklənirik... Şübhəsiz, bu film islamın təşviqinə yönəlmiş sənət əsəridir, amma qəribədir ki, bu kinonun özünün də ərsəyə gəlməsi elə islam dininin yaranması və yayılması qədər mürəkkəb proseslərdən, çətinliklərdən, məhrumiyyətlərdən keçib.

Yəni bu filmin özünün də maraqlı yaranma tarixi, məşəqqətli çəkiliş və keşməkeşli yayımlanma taleyi olub.

Söhbət dünyanın dörd bir tərəfində yüz milyonlarla tamaşaçının sevə-sevə izlədiyi və könül bağı qurduğu "Çağırış" (The Message) filmindən gedir...

Elə filmin məşhur suriyalı rejissoru Mustafa Akkadın vurğuladığı kimi: "Bir filmdə tamaşaçı ya passiv izləyici olaraq qalır, ya da filmdəki xarakterlərlə özünü bütünləşdirərək onlarla bağ qurur. Müvəffəqiyyətli filmlərin sirri ikincisində gizlidir. "Çağırış"ı da müvəffəqiyyətli edən təməl səbəb, tam olaraq budur"...

### Kino islamı izah etməyin ən təsirli yollarından biridir

1930-cu ildə Suriyanın Hələb şəhərində anadan olan Mustafa Akkad gənc yaşlarından Hollivudda rejissor olmaq fikrinə düşür, amma yaşadıqları şəhərdə orta səviyyəli maddi durumu səbəbindən Akkadın bu niyyətini heç kim ciddiyə almır. Hətta bir gün gömrükdə məmur olan atası Akkada xəbərdarlıq edərək deyir ki, həqiqətən də Amerikaya getmək istəyirsənsə, məndən kömək gözləmə. Lakin Mustafa Akkad qəti qərarını verir və onu qarşıda gözləyən çətinliklərə rəğmən, Kaliforniya Universitetində teatr təhsili almaq üçün ABŞ-ın kinemotoqrafiya mərkəzi olan Los-Anceles şəhərinə yollanır. 18 yaşlı oğlunu Amerikaya yola salmaq üçün hava limanına gələn atası Mustafanın bir cibinə iki yüz dollar, digərinə isə Qurani-Kərim qoyaraq, "Sənə verə biləcəyim tək şey budur" deyir və oğlunu nagüman olduğu uzaq bir səfərə yola salır...

Dörd il təhsil alaraq universitetdən məzun olan Akkad bu təhsili kafi görməyərək, Cənubi Kaliforniya Universitetində teatr sahəsi üzrə magistr təhsilini də tamamlayır. Amerikada yaşamağa qərar verən Akkad rejissor olaraq 20 il ərzində, kassada kiçik büdcəli, iddiasız filmlər çəkir.

Həmçinin ailə quran və ata olan Mustafa Akkad ABŞ-dakı həyatından da razı idi, lakin uşaqları böyüdükcə onun zehnini bir fikir rahat buraxmırdı. Övladlarının islam haqqında yetərincə məlumat sahibi olmamasının məyusluğunu hiss edən Akkad, "Təkcə mənim övladlarım deyil, Qərb cəmiyyətləri də islam haqqında kifayət qədər məlumatı olmayanlardır. Bu səbəbdən islama qarşı qərəzlər həddindən artıq çoxdur" deyirdi. Buna görə də kino islamı izah etməyin ən təsirli yollarından biridir deyə düşünərək, özü islamın doğuluşu ilə bağlı film çəkmək üçün qollarını çırmalayır.

### Film çox həssas məzmuna malik idi

Mustafa Akkad film çəkmək üçün son dərəcə həvəsli və həyəcanlı olsa da, bu işi ərsəyə gətirmək o qədər də asan deyildi. Ən əsası, layihənin büdcəsini ödəməyə onun pulu çatmırdı. Bunun üçün ABŞ-da sponsor axtarsa da, Hollivudda islamla bağlı layihəsinin həyata keçməsi qəbullanmamışdı. Səbəblərdən biri də rejissorun indiyə qədər böyük filmlərə imza ata bilməməsi və kifayət qədər təsir gücünə malik olmaması idi. Buna görə də Mustafa Akkad pul tapmaq üçün islam dövlətlərinə yönəlmiş, Küveyt, Liviya və Mərakeş hökumətləri 10 milyon dollarlıq xərci birgə qarşılamağa razılaşdıqdan sonra filmin çəkiliş hazırlıqlarına başlanılmışdı.

Artıq maliyyə məsələsi ortadan qalxmışdı, amma daha böyük problem də həll olunmalı idi. Çünki filmin islamın doğuluşundan bəhs etməsi və Məhəmməd Peyğəmbərin həyatından hissələr təqdim etməsi baxımından çox həssas məzmuna malik idi. Ssenaridə hansısa səhv yanaşma və ya səhv ifadə bütün müsəlmanların reaksiyasına səbəb olardı. Buna görə də Mustafa Akkad ssenarini bir alim qrupunun nəzarəti ilə yazmağa qərar verir və bu məsələ ilə bağlı Qahirənin Əl-Əzhər Universitetinə müraciət edir. Universitet bu məsələni qəbul edir və komissiyanın nəzarəti altında bir il ərzində ssenari yazılır. Ssenari Harri A.L Kreyq tərəfindən ingilis dilində yazıldıqdan sonra ərəb dilinə tərcümə edilərək universitet alimlərinin komissiyasına təqdim edilir. Komissiyanın düzəlişindən sonra ingilis dilinə tərcümə edilmiş ssenari yenidən Kreyqə təhvil verilir. Həmçinin universitet, onlar tərəfindən təsdiqləndiyini göstərmək üçün, ssenarinin hər səhifəsinə möhür vurur.

### İslam birliyi üzvləri musiqidən istifadənin caiz olmayacağını bildirirlər və...

Akkad bundan sonra ssenarini əvvəlcə Livandakı Ali Şiə İslam Şurası tərəfindən təsdiqlədir. Eyni düşüncə ilə Səudiyyə Ərəbistanında yerləşən islam dünyasının nüfuzlu qurumlarından olan İslam Birliyinə getsə də, orada fərqli reaksiya ilə qarşılaşır. Çünki Misirdə nəşr olunan "Əl-Əhram" qəzeti filmlə bağlı "Məhəmməd Rəsulullah, baş rolda Antoni Kuin" başlıqlı bir məqalə hazırlayır. Bu xəbərə əsasən, filmdə Məhəmməd Peyğəmbərin canlandırılacağını düşünən İslam Birliyi üzvləri ssenarini oxumağı lazım bilmədən onu geri çevirirlər.

Mustafa Akkad birlik üzvlərini Məhəmməd Peyğəmbərin filmdə təsvir olunmayacağına və bəzi hadisələrin onun gözü ilə canlandırılacağına inandırmağa çalışır. Digər tərəfdən də filmdə musiqidən istifadə olunması başqa böyük problemə çevrilir. İslam Birliyi üzvləri musiqidən istifadənin caiz olmayacağını bildirərək çəkiləcəyi təqdirdə filmin Səudiyyə Ərəbistanında nümayişinə qadağa qoyulacağını açıqlayırlar. Birliyin yalnız bir üzvü filmin islama zərər verməyəcəyini düşünsə də, Akkad digərlərini buna inandıra bilmir.

### Müsəlman və xristian aktyorların iştirak etdiyi film eyni ssenari ilə ingilis və ərəb dillərində çəkilir

İslam Birliyinin bu qərarı ilə Küveyt hökuməti filmin sponsorluğundan vaz keçir və müqaviləni ləğv edir. Mustafa Akkad bu yaşananlardan sonra Səudiyyə Ərəbistanında filmin bir başqa sponsoru olan Mərakeş Kralı II Həsənin yanına gedir. Kral II Həsən filmə sponsorluq etməyə davam edəcəklərini və öz ölkəsində çəkiliş apara biləcəklərini söyləyir, amma Mustafa Akkada bir şərt qoyur: "Heç bir halda filmin Mərakeşdə çəkildiyini ön plana çıxarmayın".

Beləliklə, 1973-cü ildə Mustafa Akkad vaxt itirmədən Mərakeşdə "Məhəmməd Rəsulullah" adlandırdığı filmin çəkiliş hazırlıqlarına başlayır. Ən çox vaxt aparan Kəbə və Məkkənin dekorları olan hazırlıqlar 5 ay sürür.

Müsəlman və xristian aktyorların iştirak etdiyi film eyni ssenari ilə ingilis və ərəb dillərində çəkilməyə başlanır. Filmin ingilis versiyasında Həmzə bin Əbdülmüttəlibi Antoni Kuin, ərəb versiyasında isə aktyor Abdullah Əl-Qeysi oynayır. Mustafa Akkadın bu yola əl atmasının səbəbi islamın doğuluşunu Qərbə öz dillərində, öz aktyorları ilə və ən əsası öz məntiqləri ilə izah etməsi idi. Hətta bu məqsədlə Məkkədə gördükləri zülmə görə Məhəmməd Peyğəmbərin istəyi ilə Həbəşistana sığınan kiçik bir qrup müsəlmanın səhnəsi mümkün qədər uzun çəkilir. Ədaləti ilə məşhur olan xristian Həbəş Kralı Nəcaşinin xristianlıq və İsa Peyğəmbər haqqında dialoqlarına uzun yer ayrılır. İslam ölkələrində isə filmin ərəbcə və müsəlman aktyorları ilə daha çox diqqət çəkəcəyi düşünülür.

### Rejissora "15 gün ərzində ölkəni tərk et" əmri verilir

Filmin çəkilişinin 6-cı ayında Mərakeş Kralı II Həsən Mustafa Akkadı yanına çağırıb "15 gün ərzində ölkəni tərk et" deyir. Həm qovulmasından, həm də Mərakeşin sponsorluğunu itirməsindən şoka düşən Akkad bu əmrin səbəbini anlamağa çalışaraq böyük təəccüblə çəkiliş meydançasına qayıdır. Bu səbəbi isə bir müddət sonra öyrənir.

Belə ki, o zaman İslam ölkələrinin Sammiti Mərakeşin paytaxtı Rabatda keçirilməli idi. Filmin çəkilişinə razılıq verməyən Səudiyyə Ərəbistanı Kralı Faysal bin Əbdüləziz Əl Səud "Ya filmin çəkilişlərini dayandırın, ya da konfransa qatılmayacağam" deyir.

Əvvəlcə Küveyt, sonra isə Mərakeş olmaqla, iki ölkənin sponsorluğunu itirən Mustafa Akkad ölkəni tərk etmələri üçün verilən son tarixdən 3 gün əvvəl üçüncü sponsor ölkəyə üz tutur və Liviya lideri Müəmmər Qəddafidən görüş istəyir.

Qəddafi ilə görüşən Akkad ona həmin günə qədər filmin çəkilişlərindən olan səhnələri izlətdirir. Qəddafi müsəlmanların "Allahu Əkbər" nidaları altında Məhəmməd Peyğəmbəri məkkəli müşriklərin atdığı daşlardan qoruyaraq Kəbəyə aparmağa çalışdığı səhnəni seyr edərkən qəfildən "Allahu Əkbər" deyərək yerindən atılır. Otaqda bir qədər dolaşandan sonra Akkada dönüb "Səudiyyə Ərəbistanı niyə etiraz etdi? Bu filmi tamamlamaq lazımdır. Liviyada çəkilişlərə davam edin. Başqa nə lazımdır?" deyir.

Mustafa Akkad istəklərini sadalayır: "Kino avadanlıqlarını Mərakeşdən Liviyaya köçürmək və çəkiliş meydançasını yenidən düzəltmək üçün pul lazımdır. Bir də kütləvi səhnələri çəkmək üçün xeyli insan". Müəmmər Qəddafi köməkçilərinə "Maliyyə məsələsini tapın. Ordudan insanları çəkilişlərə yönəldin " deyir. Akkad isə əsgərlərin çox gənc və saçlarını qırxdırdıqları üçün çəkilişlərdə istifadə edilə bilməyəcəyini deyincə, Qəddafi ordu komandirinə "O zaman Xalqın Müqavimət Təşkilatının hərbçilərini göndərin" deyə göstəriş verir. Amma Qəddafi də Akkada öz şərtini söyləyir: "Mən qeyri-müsəlman aktyorların içki içməsini istəmirəm, amma içirlərsə, ictimai yerlərdə deyil, təkbaşına içsinlər".

Mustafa Akkad vaxt itirmədən Mərakeşə qayıdıb film avadanlıqlarını və xüsusi təlim keçmiş atları gəmi ilə Liviyaya daşıyır.

### "Biz müsəlmanıq, mövqelərimizi tərk edə bilmərik!"

Filmin çəkilişləri zamanı və ondan sonra maraqlı, qəribə hadisələr yaşanır. Bununla bağlı rejissor Mustafa Akkad müsahibələrində bəzi məqamları qeyd edib: "Film çəkildikdən bir neçə il sonra "Vəhşi" rolunu oynamış adam məni axtarıb tapdı və təhqir etdi. Nə olduğunu soruşanda belə cavab verdi: "Filmdə Həzrət Həmzəni öldürdüyümə görə küçədə insanlar mənə hücum edirlər".

Hətta "Vəhşi" rolunu oynayan Qana əsilli Salem Qedara bu mənfi obrazına görə iş yerini də itirir, buna görə də Akkad onun elektrikçi işi ilə təmin olunmasına kömək göstərir.

Filmin çəkilişi zamanı da xeyli çətinliklər yaşanır. Məsələn, "Vəhşi"nin "Həmzə"ni qətlə yetirdiyi epizod düz 5 dəfə çəkilir. Çünki aktyorlar "Həmzə"ni o qədər sevirdilər ki, onlar çəkiliş vaxtı sıx dayanaraq "Vəhşi"nin - Salem Qedaranın "Həmzə"ni öldürməsinə imkan vermirdilər. Yəni onlar "Həmzə"ni doğrudan da qoruyurdular.

Uhud döyüşünün çəkilişləri zamanı isə ssenari belə olub: Peyğəmbərin ordunun arxa hissəsini qorumaq üçün təpəyə yerləşdirdiyi oxatanlar mövqelərini tərk etdikcə ordu mühasirəyə alınır və müsəlmanlar iki dəstə arasında qalıb öz üstünlüklərini itirirlər. Bu zaman Peyğəmbər geri çəkilmək əmrini verir və əsgər təpələrə qalxaraq geri çəkilir. Səhnə çəkilməyə başladıqda rejissor geri çəkilmək əmri versə də, aktyorlar yerlərindən tərpənmirlər. Təxminən on dəfə bu hal təkrarlanır. Rejissor səhnəni saxlayıb aktyorlara niyə dediklərini etmədiklərini soruşur. Aldığı cavab isə hər kəsi təəccübləndirir: "Biz müsəlmanıq, mövqelərimizi tərk edə bilmərik!"

### "Məhəmməd Rəsulullah" çevrilib "Çağırış" olur

Beləliklə, Liviyada çəkilişləri yenidən başlayan film 1976-cı ildə tamamlanır.

Artıq sıra filmin nümayişinə gəlir. Lakin Səudiyyə Ərəbistanının yanaşmasına görə demək olar ki, bütün islam ölkələri filmin əleyhinə olur. Ssenarisi Əl-Əzhər Universitetində alimlər tərəfindən bəyənilsə də, islam ölkələri filmin nümayişini qadağan edirdilər. Bunun arxasındakı səbəb isə filmdə Məhəmməd Peyğəmbərin canlandırılması kimi yanlış məlumatlar idi. Ən qəribəsi isə o idi ki, filmini islam ölkələrində nümayiş etdirə bilməyən Akkad, Qərb ölkələrində də gözlənilməz reaksiyalarla qarşılanırdı.

Londonda yaşayan müsəlmanlar ekstremist təşkilatların rəhbərliyi altında filmin ekranlara çıxmasına etiraz edərək Mustafa Akkadı ölümlə hədələyirdilər. Uzun müddət cangüdənlərlə yaşamalı olan Akkad filmə etiraz edən islam icmaları ilə görüşməyə çalışsa da, kiçik bir qrupdan başqa heç kimə real vəziyyəti izah edə bilməyib. Lakin filmə baxmağa razı sala bildiyi kiçik bir qrup finalda dua səhnəsini gördükdə ayağa qalxaraq pərdənin qarşısında namaz qılmağa başlayır. Zalı tərk etdikdən sonra isə yanına gələn 3 nəfər Mustafa Akkaddan qərəzlərinə görə üzr istəyirlər. Sonra onlar Məhəmməd Peyğəmbərin adının yazıldığı filmin afişalarının da spirtli içkilərin satıldığı və istehlak edildiyi yerlərin divarlarına asılmasının onları çox narahat etdiyini bildirirlər. Bu səbəbdən də Akkad filmin adını "Məhəmməd Rəsulullah"dan "Ər-Risale" ("Çağırış") olaraq dəyişdirir.

ABŞ-da da müsəlman fəallar icması Vaşinqtonda filmin premyerasına etiraz edirlər. Bu zaman silahlı fəal zala daxil ola bilir və filmin yayımlanacağı təqdirdə girov götürdüyü qonaqları öldürəcəyini bildirir. Tələbinə uyğun olaraq verilən sözlərlə fəal razılaşdırılır və heç kimə zərər vermədən zaldan çıxarılır. Etirazçıların qəzəbi soyuyana qədər filmin Vaşinqtonda nümayişi təxirə salınır. Həmin gün Çikaqoda da filmə qarşı etiraz nümayişləri keçirilir. Şərq teatrının qarşısına toplaşan müxtəlif ölkələrin müsəlman vətəndaşları filmin nümayiş etdirilməməsi ilə bağlı bəyanatlar verirlər. Yalnız Akkad Əl-Əzhər Universitetinin razılığını nümayiş etdirdikdən sonra fəallar sakitləşir.

### "Peyğəmbərin dövründə sünni-şiə ayrı-seçkiliyi yox idi"

Sonrakı illərdə ön mühakimələrin zamanla qırıldığı və adı dəyişdirildiyi üçün ərəb və müsəlman aktyorların yer aldığı versiyası ilə film islam ölkələrində tək-tək nümayiş olunmağa başlayır.

İki ölkə istisna olmaqla, İran və Misir...

İranın sonuncu şahı filmin nümayişinə razılıq vermir. Mustafa Akkad da hakimiyyət nümayəndələri ilə görüşmək üçün İrana gedir. "Niyə filmi göstərmirsiniz?" deyə soruşduqda cavab alır ki, problem filmdə səslənən azandan qaynaqlanır. Filmdəki azan sünnilərə məxsus olub. Şiələrin azanında "Əliyyun Vəliyyullah" şəklində bir əlavə olduğundan o sünnilərinkindən fərqlənir. Bu zaman Mustafa Akkad İranın dini lideri ilə görüşür və Xomeyni ona "Peyğəmbərin dövründə sünni-şiə ayrı-seçkiliyi yox idi" deyə, filmin İranda yayımlanmasına icazə verir. Beləliklə, film il boyu İranın bütün kinoteatrlarında nümayiş etdirilir.

Filmin Misirdə də nümayiş olunması üçün Akkad bir neçə dəfə cəhd edir, lakin senzura şurası qərarını dəyişmir.

"Çağırış" 1977-ci ildə Türkiyədə xarici aktyorların rol aldığı versiyası ilə ekranlara çıxıb. 2018-ci ildə isə Səudiyyə Ərəbistanında həm ərəb, həm də ingilis dillərində yayımlanmasına icazə verilib.

Bu gün isə "Çağırış" bütün dünyanı fəth edərək dinindən, dilindən, millətindən asılı olmayaraq, milyonlarla insanın qəlbində özünə əbədi sevgi taxtı qurub.

Bir məqamı da hökmən qeyd etməliyik ki, məramı insanlığa sevgiyə, ədalətə, mərhəmətə köklənən "Çağırış" adlı möhtəşəm filmi ilə adını dünya kinomatoqrafiyasına qızıl hərflərlə həkk etdirən məşhur suriyalı rejissor Mustafa Akkad özü təəssüf ki, elə insanlıq əleyhinə həyata keçirilən terrorun qurbanına çevrilərək faciəli şəkildə həlak olub. 75 yaşlı Mustafa Akkad, 34 yaşlı qızı Rima Akkad Monla birlikdə 2005-ci ildə qohumlarının toyu üçün getdikləri İordaniyanın paytaxtı Əmmanda hotelə edilən bombalı hücumda həyatlarını itiriblər.

### "Çağırış"ın film kimi real həyat hekayəsi

Bəli, bu, islam dininin yaranmasına və sonuncu peyğəmbərimizin həyatına işıq tutan ən sanballı ekran əsəri "Çağırış"ın film kimi real həyat hekayəsi idi. Pərdə arxasında nə qədər çətinliklər, problemlər yaşansa da, peşəkar rejissorun məharəti sayəsində maneələr filmin möhtəşəm alınmasına heç bir xələl gətirməyib, əksinə, bəhs etdiyi mövzusu, obrazların aktyorlar tərəfindən inamla canlandırılması, insanlığa vermək istənilən mesajları baxımından bir o qədər canayaxın, tamaşaçı sevgisinə ünvan olub.

Heç şübhəsiz, "Çağırış" ona baxan xristianları, yəhudiləri və digər din mənsublarını islam bayrağı altında birləşdirmir, amma mütləq sevgi, ədalət, mərhəmət çətirinin altında toplayır...

*Necə ki, elə "Çağırış" filmində Həzrəti Həmzə obrazını canlandıran məşhur aktyor Antoni Kuin bu barədə səmimi hisslərini dilə gətirib: "İslam dininin zühuruna həsr olunan "Çağırış" filmi mənə psixoloji cəhətdən çox təsir etdi. Çəkilişlər bitdikdən sonra Akkada belə dedim: "Mən müsəlman olmadım. Amma islam dininə daha çox hörmət edirəm. Müsəlmanların inancı sayəsində mənim də özümə olan inancım yenidən canlandı".*

**Yasəmən MUSAYEVA,**
**"Azərbaycan"**

# Tərtərdə şəhid ailələri və qazilər üçün iftar süfrəsi açılıb



Tərtər Rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə Vətən müharibəsi şəhidlərinin ailə üzvləri və qaziləri üçün iftar süfrəsi təşkil olunub. "Tərtər" istirahət mərkəzində təşkil olunan iclasda yerli icra və hüquq-mühafizə orqanlarının rəhbərləri, YAP rayon təşkilatının və rayon Ağsaqqallar Şurasının sədrləri, din xadimləri də iştirak ediblər.

Torpaqlarımızın azadlığı uğrunda canlarından keçən Vətən oğullarının xatirəsi bir dəqiqəlik sükutla yad olunduqdan sonra rayon icra hakimiyyətinin başçısı Müstəqim Məmmədov müqəddəs ramazan ayı münasibətilə iftara toplaşanları təbrik edib. Tarixə 44 günlük müharibə kimi düşən Vətən müharibəsindən, Milli Ordunun qazandığı şanlı qələbədən, şəhidlərin gənclərə nümunə olan qısa, lakin şərəfli ömür yolundan danışıb, Vətən müharibəsində şəhidlərin qanının yerdə qalmadığını, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə torpaqlarımızın işğaldan azad edildiyini, böyük qələbənin tarixi əhəmiyyətini xüsusi qeyd edib. Bildirib ki, ölkəmizdə şəhid ailələrinə və qazilərə göstərilən diqqət və qayğıkeşlik dövlət siyasətinin prioritet istiqamətlərindən biridir.

Tərtər "Cümə" məscidinin imamı Sadiq Cəfərov, din xadimləri Saleh Ədilov, Nəriman Əliyev tərəfindən şəhidlərin ruhuna dualar oxunub. On bir ayın sultanı olan ramazanın fəzilətlərindən danışılıb, bu ayda görülməsi vacib sayılan xeyirxah əməllərdən, savab işlərdən söz açılıb, ölkəmizə əmin-amanlıq və sülh arzulanıb.

**Lazım QULİYEV,**
**"Azərbaycan"**

# Tələbələr fransız dilində "Əziz Şuşa, sən azadsan!" adlı tədbir keçirmişlər

Gəncə Dövlət Universitetində Fransız dili kafedrasının təşkilatçılığı ilə "Şuşa ili" çərçivəsində "Əziz Şuşa, sən azadsan!" adlı tədbir keçirilmişdir. Tədbirdə Azərbaycan-Fransa İnstitutunun direktor müavini Jonatan Ünlü iştirak etmişdir.



Azərbaycanın Dövlət himni səsləndirildikdən sonra 2022-ci ilin "Şuşa ili" elan edilməsi barədə Prezident İlham Əliyevin müvafiq sərəncamı Azərbaycan və fransız dillərində səsləndirilmişdir. Tədbir sənədli filmin nümayişi və şəhidlərin xatirəsinin bir dəqiqəlik sükutla yad olunması ilə davam etmişdir.

Universitetin humanitar məsələlər üzrə prorektoru Gülsüm Fətəliyeva çıxış edərək Azərbaycan Silahlı Qüvvələrinin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə 30 ilə yaxın işğalda qalmış ərazilərimizin azad edilməsindən, hazırda azad edilmiş torpaqlarımızda aparılan abadlıq və quruculuq işlərindən danışmışdır.

Sonra tələbələrin ifasında "Əziz Şuşa, sən azadsan!" bədii kompozisiya nümayiş olunmuş, fransız dilində mahnı səsləndirilmiş, Azərbaycanın xalq mahnısı "Sarı gəlin" ifa edilmiş, "Qalib əsgər" adlı tamaşa göstərilmişdir. Universitetin 3-cü kurs tələbələrinin ifasında "Qarabağ şikəstəsi" tədbir iştirakçılarına xoş ovqat yaşatmışdır.

Onu da qeyd edək ki, tədbirdən öncə 3 universitet - Azərbaycan Dillər Universiteti, Gəncə Dövlət Universiteti və Naxçıvan Dövlət Universitetində fransız dili ixtisasında oxuyan tələbələr arasında keçirilən "Natiqlik" müsabiqəsinin nəticələri elan olunmuşdur. Gəncə Dövlət Universitetinin fransız dili ixtisasının 4-cü kurs tələbəsi Müjgan Məmmədova qalib gələrək yayda Fransanın Lion şəhərinə 2 həftəlik səyahət paketini qazanmışdır. 2-ci yerə isə 3-cü kurs tələbəsi Arzu Xəlilova layiq görülmüşdür.

**Sabir ƏLİYEV,**
**"Azərbaycan"**

# Gimnastlarımız finala yüksəldilər




## Bakıda keçirilən Dünya kubokunda 31 ölkənin 126 idmançısı medallar uğrunda mübarizə aparır









Dünən Bakıda Milli Gimnastika Arenasında Bədii Gimnastika üzrə Dünya Kubokuna start verilib.

Yarışın açılış mərasimində çıxış edən gənclər və idman nazirinin müavini Mariana Vasileva paytaxtımızın gimnastika növləri üzrə daha bir nüfuzlu yarışı qəbul etməsini ölkəmizdə idmana göstərilən diqqət və qayğının nümunəsi kimi dəyərləndirib. Bakının dünya gimnastikasının əsas mərkəzlərindən biri olduğunu deyən Mariana Vasileva Azərbaycanda idman uğurlarının artdığını və gimnastikanın ildən-ilə daha da inkişaf etdiyini diqqətə çatdırıb.

Nazir müavini qeyd edib ki, ölkəmizdə yaradılan şərait həm idmançıların hazırlığı, həm də beynəlxalq yarışları yüksək səviyyədə təşkil etməyə imkan verir. Milli Gimnastika Arenası təkcə Azərbaycanın deyil, əcnəbi gimnastların da sevimli mərkəzlərindən birinə çevrilib. Bütün qitələrdən gimnastlar böyük həvəslə buraya təlim-məşqlərə və yarışlara gəlirlər. Bu gün Bakı dünya gimnastikasının əsas mərkəzlərindən biridir.

"Bütün bunlar Azərbaycan dövlətinin idmana qayğısı sayəsində mümkün olub. Bu qayğıya, yaradılan yüksək şəraitə görə Azərbaycan Prezidenti İlham Əliyevə və ölkəmizin Birinci vitse-prezidenti Mehriban xanım Əliyevaya minnətdarıq", - deyə M.Vasileva əlavə edib.



Tamaşaçıların qarşıdakı günlərdə gimnastların maraqlı və rəngarəng çıxışlarını izləyəcəklərini diqqətə çatdıran nazir müavini idmançılara uğurlar arzulayıb və dünya kuboku yarışlarını açıq elan edib.

Xəbər verildiyi kimi, Bədii Gimnastika üzrə Dünya Kuboku aprelin 24-dək davam edəcək. Yarışda 31 ölkədən 42-si fərdi və 84-ü qrup komandasının (14 qrup) üzvü olmaqla 126 gimnast mübarizə aparır.

Yarışda ölkəmizi fərdi növdə Arzu Cəlilova və Zöhrə Ağamirova, qrup hərəkətləri proqramında isə Güllü Ağalarzadə, Ləman Əlimuradova, Kamilla Əliyeva, Zeynəb Hümmətova, Yelizaveta Luzan və Darya Sorokina təmsil edirlər.

3 gün davam edəcək yarışda gimnastlar ayrı-ayrı alətlər və çoxnövçülük üzrə mübarizə aparacaqlar. Ən çox icra xalı toplayan gimnast və qrup komandasına ənənəvi "AGF Trophy" Kuboku təqdim olunacaq.

Turnirin birinci günündə fərdi gimnastlar top və halqa, qrup hərəkətləri komandası isə 5 halqa ilə təsnifat mərhələsində güclərini sınayıblar. İlk olaraq fərdi gimnastlar top və halqa ilə proqramlarını icra ediblər.Yekunda Azərbaycan idmançısı Arzu Cəlilova həm top, həm də halqa ilə kompozisiyalarda 3-cü yeri tutaraq finala adlayıb. Digər təmsilçimiz Zöhrə Ağamirova isə halqa ilə icra etdiyi proqrama görə 4-cü olub və finala vəsiqə qazanıb. Çoxnövçülükdə Arzu Cəlilova və Zöhrə Ağamirova müvafiq olaraq 3-cü və 5-ci pillələrdə qərarlaşıblar.

Günün ikinci yarısında komandaların qrup yarışlarına start verilib. Güllü Ağalarzadə, Ləman Əlimuradova, Kamilla Əliyeva, Zeynəb Hümmətova, Yelizaveta Luzan və Darya Sorokinadan ibarət komandamız qrup hərəkətləri üzrə 5 halqa ilə kompozisiya icra edib. Komandamızın təsnifat mərhələsində çıxışı hakimlər tərəfindən 33,050 xalla qiymətləndirilib. Yekunda ikinci yeri tutan gimnastlarımız finala adlayıb və bazar günü medallar uğrunda mübarizə aparacaqlar.

Qeyd edək ki, bu, ölkəmizdə bədii gimnastika üzrə təşkil olunan 9-cu Dünya kubokudur - Bakı 2005 və 2019-cu illərdə bu növ üzrə dünya çempionatına və VIII Dünya Kubokuna evsahibliyi edib.

***Rizvan CƏFƏROV, "Azərbaycan"***



## "Azərsu" Açıq Səhmdar Cəmiyyəti Gəncə şəhərinin su təchizatı və kanalizasiya sisteminin yenidən qurulması işlərinin satın alınması üçün

### *açıq tender elan edir*

Tender iştirakçılarına təklif olunur ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları oxşar təcrübəyə, lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, Moskva prospekti 67 ünvanında yerləşən "Azərsu" Açıq Səhmdar Cəmiyyətinin Satınalmaların təşkili və müqavilələrin idarə olunması şöbəsindən (Əlaqələndirici şəxs: Abışev Murad Çingiz oğlu, telefon: + 99 412 431 47 67/87 - daxili 1087, E-mail: murad.abishev@azersu.az və Novruzov İntizam Cəmil oğlu, telefon: + 99 412 431 47 67 - daxili 2259, E-mail: intizam.novruzov@azersu.az) ala bilərlər.

**İşlərin qısa təsviri:**
**Su və kanalizasiya şəbəkəsinin tikintisi və digər əlaqədar işlər.**
**Tenderdə iştirak haqqı: 500,00 (beş yüz) AZN**
**"Azərsu" Açıq Səhmdar Cəmiyyəti**
**VÖEN: 9900001751**
**Bank: "Kapitalbank" ASC-nin 1 saylı Nəsimi filialı**
**Kodu: 200112**
**VÖEN: 9900003611**
**Yerli valyutada hesab nömrəsi**
**AZ65AIIB33070019441100216111**
**Xarici valyutada hesab nömrəsi**
**AZ55AIIB33170018401100216111**
**M/h: AZ37NABZ01350100000000001944**
**SWIFT AIIBAZ2X**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Tender iştirakçıları tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *Tenderdə iştirak etmək üçün ərizə;*
- *İştirak haqqının ödənilməsini təsdiq edən bank sənədi;*
- *Tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 65 bank günü ərzində qüvvədə olmalıdır);*
- *Tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (Təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır);*
- *Tender iştirakçısının tam adı, nizamnaməsi (hüquqi şəxslər üçün), qeydiyyatdan keçdiyi rekvizitləri;*
- *Malgöndərənin (podratçının) işin icrası üçün müqavilə imzalayacağı subpodratçı barədə konkret subpodratçının adı göstərilməklə məlumatlar (Əlavə №19);*
- *Malgöndərənin (podratçının) son bir ildəki (əgər daha az müddət fəaliyyət göstərirsə, bütün fəaliyyəti dövründəki) maliyyə vəziyyəti barədə bank tərəfindən verilmiş arayış;*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərinin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergiödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması barədə arayış;*
- *İddiaçının satınalma müqaviləsini bağlamaq səlahiyyətinin olması (Şəxsin səlahiyyətli olması barədə əmr təqdim edilməlidir);*
- *Öz əmlakından sərbəst və məhdudiyyətsiz istifadə etmək imkanı, habelə ödəmə qabiliyyəti olması barədə arayış;*
- *Müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması barədə arayış (Ədliyyə Nazirliyindən alınmış müvafiq arayış);*
- *Satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi barədə arayış;*
- *Azərbaycan Respublikası dövlət standartlarına uyğun olaraq I və II məsuliyyət səviyyəli bina və qurğuların tikinti-quraşdırma işlərinin yerinə yetirilməsi üzrə verilmiş xüsusi razılıq (lisenziya) və onun əsasında həyata keçirilməsinə icazə verilən işlərin siyahısı;*
- *Malgöndərənin (podratçının) son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq edilmiş maliyyə hesabatının surəti (Vergi orqanının rəsmi blankında və ya elektron sənədin notarial qaydada təsdiq edilmiş surəti təqdim edilməlidir);*
- *Mühasibat balansları, mənfəət və zərər haqqında hesabat;*
- *Kənar audit tərəfindən tərtib olunmuş son bir ildəki audit hesabatları (əgər varsa);*
- *Satınalma müqaviləsinin icrasını təmin etmək üçün müvafiq sahədə peşəkarlığının, təcrübəsinin, texniki və maliyyə imkanlarının, işçi qüvvəsinin, idarəetmə səriştəsinin, etibarlığının olması (Son beş il (01 yanvar 2017 - 31 dekabr 2021) ərzində ümumi məbləği 20 milyon AZN-dən az olmayan, oxşar işi əhatə edən (oxşarlıq layihə və texniki spesifikasiyalarda təsvir edilən fiziki ölçüyə, mürəkkəbliyə, metodlara, texnoloqiyaya və digər xüsusiyyətlərə əsaslanmalıdır) ən azı iki sifarişi baş podratçı kimi qənaətbəxş şəkildə icra etməsi haqda məlumat və təsdiqedici sənədlər, son beş il (01 yanvar 2017 - 31 dekabr 2021) ərzində ən azı 25 milyon AZN dövriyyə tələb olunur) və TMV 1.6-cı bəndində tələb olunan digər tələblər. Tenderdə iştirak üçün iki və ya daha artıq tərəfdaş şirkətdən ibarət birgə müəssisə yaratdıqda, TMV 1-ci və 2-ci bəndində tələb olunan sənədlər hər bir şirkət üçün ayrılıqda təqdim edilməlidir.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (1 əsli və 1 surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun keçiriləcəkdir.

Tender iştirakçıları tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **02 iyun 2022-ci il** saat 16:00-a qədər, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə **10 iyun 2022-ci il** saat 16:00-a qədər Bakı şəhəri, Moskva prospekti 67 ünvanında yerləşən "Azərsu" Açıq Səhmdar Cəmiyyətinin Satınalmaların təşkili və müqavilələrin idarə olunması şöbəsinə təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır. Tender iştirakçılarının təklifləri Bakı şəhəri, Moskva prospekti 67 ünvanında yerləşən "Azərsu" Açıq Səhmdar Cəmiyyətində **13 iyun 2022-ci il** saat 16:30-da açılacaqdır.

Tender iştirakçılarının səlahiyyətli nümayəndələri zərflərin açılışında iştirak edə bilərlər.

***Tender komissiyası***

## Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Sosial Müdafiə Fondu

### *açıq tender elan edir*

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Sosial Müdafiə Fondu fondun aparatında və digər struktur bölmələrində əmək pensiyalarının, sosial müavinətlərin, sosial yardımların, eləcə də ayrı-ayrı kateqoriya şəxslərə Azərbaycan Respublikası Prezidenti tərəfindən təyin edilmiş təqaüdlərin və kompensasiyaların ödəniş kartları, habelə zərurət olduğu halda digər ödəniş alətləri və üsulları vasitəsi ilə nağdsız qaydada ödənilməsini həyata keçirmək məqsədilə göstəriləcək bank xidmətlərinin satın alınması ilə əlaqədar tenderə dəvət edir.

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə, texniki imkanlara və təcrübəyə malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyən təşkilatlar müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, Yasamal rayonu Həsən bəy Zərdabi 80 ((012) 530 29 03, e.poçt: tender@sosial.gov.az) ünvanında yerləşən fondun aparatının inzibati binasından ala bilərlər.

**Tender 1 LOT üzrə keçirilir.**

| | |
|---|---|
| **İştirak haqqı:** | **300,00 (üç yüz) manat** |
| **VÖEN:** | **1300050781** |
| **Bank:** | **Dövlət Xəzinədarlığı Agentliyi** |
| **H/h:** | **AZ46CTRE00000000000007018504** |
| **M/h:** | **AZ41NABZ01360100000000003944** |
| **VÖEN:** | **1401555071** |
| **Kod:** | **210005** |
| **SWIFT:** | **CTREAZ22** |

"Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununun (bundan sonra - Qanun) 29.2-ci maddəsinə əsasən tenderdə iştirak haqqı heç bir halda geri qaytarılmır.

Tenderdə iştirak etmək üçün tələb olunan sənədlər:

1. İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə, bank lisenziyası (notarial təsdiq edilməsi mütləqdir) və rekvizitləri;
2. Tender təklifi (təkliflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);
3. Tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (tender təklifinin təminatının qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır);
4. Azərbaycan Respublikasında vergilərə və digər məcburi ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərinin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergiödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması (uçotda olduğu vergi orqanından alınmalıdır. Sənədin notarial təsdiq edilməsi mütləqdir); 05.01.2022-ci il tarixdən sonra alınmış arayış qəbul ediləcəkdir;
5. İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti (2021-ci il üzrə);
6. İddiaçının son bir ildəki maliyyə vəziyyəti birləşdirilmiş (konsolidə edilmiş) maliyyə hesabatlarına dair müstəqil auditorun hesabatı;
7. Satınalma müqaviləsinin icrasını təmin etmək üçün müvafiq sahədə peşəkarlığının, təcrübəsinin, texniki imkanlarının, işçi qüvvəsinin, idarəetmə səriştəsinin, etibarlığının olması barədə təsdiqedici sənəd (malgöndərən (podratçı) tərəfindən hazırlanır);
8. Satınalma müqaviləsini bağlamaq səlahiyyətinin olması (malgöndərənin (podratçının) kommersiya qurumunun dövlət reyestrindən çıxarışın və vergi uçotunda olduğunu təsdiq edən sənəd (notarial təsdiq edilmiş);
9. İri sahibkarlıq meyarına uyğun olması barədə məlumat (Dövlət Statistika Komitəsindən alınmalıdır, sənədin notarial təsdiq edilməsi mütləqdir); 10.05.2021-ci il tarixdən sonra alınmış arayış qəbul ediləcəkdir;
10. Öz əmlakından sərbəst və məhdudiyyətsiz istifadə etmək imkanı, habelə ödəmə qabiliyyəti olması (uçotda olduğu vergi orqanından alınmalıdır. Sənədin notarial təsdiq edilməsi mütləqdir); 05.01.2022-ci il tarixdən sonra alınmış arayış qəbul ediləcəkdir;
11. Müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması barədə məlumat;
12. Satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi barədə məlumat (malgöndərən (podratçı) Daxili İşlər Nazirliyindən və ya "ASAN xidmət" mərkəzlərindən (məhkumluq ilə bağlı arayış) alır. 05.01.2022-ci il tarixdən sonra alınmış arayış qəbul ediləcəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (notarial qaydada təsdiq olunmuş surətləri) tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). Tender proseduru qanuna uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri 02.06.2022-ci il saat 17:00-a qədər, tender təklifi və bank təminatını möhürlənmiş ikiqat zərfdə 10.06.2022-ci il saat 17:00-a qədər Bakı şəhəri, Yasamal rayonu, Həsən bəy Zərdabi 80 ünvanında yerləşən fondun aparatının inzibati binasına təqdim etməlidirlər. Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır. İddiaçıların təkliflərinin açılışı 13.06.2022-ci il saat 17:00-da Bakı şəhəri, Yasamal rayonu, Həsən bəy Zərdabi 80 ünvanında yerləşən fondun aparatının inzibati binasında Tender komissiyasının iştirakı ilə aparılacaqdır. Açılışda iddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

Müvafiq orqanlardan tələb olunan sənədlərin alınması cari ayı əhatə etməsi mütləqdir.

***Tender komissiyası***

## Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Sosial Müdafiə Fondu

### *açıq tender elan edir*

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Sosial Müdafiə Fondu (bundan sonra - Fond) fondun Aparatında əməkhaqlarının, dövlət icbari şəxsi sığortası üzrə sığorta ödənişlərinin, birdəfəlik müavinətlərin və digər struktur bölmələrində əməkhaqlarının, əmək pensiyalarının, sosial müavinətlərin, sosial yardımların, eləcə də ayrı-ayrı kateqoriya şəxslərə Azərbaycan Respublikası Prezidenti tərəfindən təyin edilmiş təqaüdlərin və kompensasiyaların ödəniş kartları, habelə zərurət olduğu halda digər ödəniş alətləri və üsulları vasitəsi ilə nağdsız qaydada ödənilməsini həyata keçirmək məqsədilə göstəriləcək bank xidmətlərinin satın alınması ilə əlaqədar tenderə dəvət edir.

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə, texniki imkanlara və təcrübəyə malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyən təşkilatlar müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, Yasamal rayonu Həsən Bəy Zərdabi 80 ((012) 530 29 03, e.poçt: tender@sosial.gov.az) ünvanında yerləşən fondun aparatının inzibati binasından ala bilərlər.

**Tender 1 LOT üzrə keçirilir.**

| | |
|---|---|
| **İştirak haqqı:** | **300,00 (üç yüz) manat** |
| **VÖEN:** | **1300050781** |
| **Bank:** | **Dövlət Xəzinədarlığı Agentliyi** |
| **H/h:** | **AZ46CTRE00000000000007018504** |
| **M/h:** | **AZ41NABZ01360100000000003944** |
| **VÖEN:** | **1401555071** |
| **Kod:** | **210005** |
| **SWIFT:** | **CTREAZ22** |

"Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununun (bundan sonra - Qanun) 29.2-ci maddəsinə əsasən tenderdə iştirak haqqı heç bir halda geri qaytarılmır.

Tenderdə iştirak etmək üçün tələb olunan sənədlər:

1. İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə, bank lisenziyası (notarial təsdiq edilməsi mütləqdir) və rekvizitləri;
2. Tender təklifi (təkliflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);
3. Tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (tender təklifinin təminatının qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır);
4. Azərbaycan Respublikasında vergilərə və digər məcburi ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərinin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergiödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması (uçotda olduğu vergi orqanından alınmalıdır. Sənədin notarial təsdiq edilməsi mütləqdir); 05.01.2022-ci il tarixdən sonra alınmış arayış qəbul ediləcəkdir;
5. İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti (2021-ci il üzrə);
6. İddiaçının son bir ildəki maliyyə vəziyyəti birləşdirilmiş (konsolidə edilmiş) maliyyə hesabatlarına dair müstəqil auditorun hesabatı;
7. Satınalma müqaviləsinin icrasını təmin etmək üçün müvafiq sahədə peşəkarlığının, təcrübəsinin, texniki imkanlarının, işçi qüvvəsinin, idarəetmə səriştəsinin, etibarlığının olması barədə təsdiqedici sənəd (malgöndərən (podratçı) tərəfindən hazırlanır);
8. Satınalma müqaviləsini bağlamaq səlahiyyətinin olması (malgöndərənin (podratçının) kommersiya qurumunun dövlət reyestrindən çıxarışın və vergi uçotunda olduğunu təsdiq edən sənəd (notarial təsdiq edilmiş);
9. İri sahibkarlıq meyarına uyğun olması barədə məlumat (Dövlət Statistika Komitəsindən alınmalıdır, sənədin notarial təsdiq edilməsi mütləqdir); 10.05.2021-ci il tarixdən sonra alınmış arayış qəbul ediləcəkdir;
10. Öz əmlakından sərbəst və məhdudiyyətsiz istifadə etmək imkanı, habelə ödəmə qabiliyyəti olması (uçotda olduğu vergi orqanından alınmalıdır. Sənədin notarial təsdiq edilməsi mütləqdir); 05.01.2022 -ci il tarixdən sonra alınmış arayış qəbul ediləcəkdir;
11. Müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması barədə məlumat;
12. Satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi barədə məlumat (malgöndərən (podratçı) Daxili İşlər Nazirliyindən və ya "ASAN xidmət" mərkəzlərindən (məhkumluq ilə bağlı arayış) alır. 05.01.2022-ci il tarixdən sonra alınmış arayış qəbul ediləcəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (notarial qaydada təsdiq olunmuş surətləri) tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). Tender proseduru qanuna uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri 02.06.2022-ci il saat 17:00-a qədər, tender təklifi və bank təminatını möhürlənmiş ikiqat zərfdə 10.06.2022-ci il saat 17:00-a qədər Bakı şəhəri, Yasamal rayonu, Həsən bəy Zərdabi 80 ünvanında yerləşən fondun Aparatının inzibati binasına təqdim etməlidirlər. Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır. İddiaçıların təkliflərinin açılışı 13.06.2022-ci il saat 17:00-da Bakı şəhəri, Yasamal rayonu, Həsən bəy Zərdabi 80 ünvanında yerləşən fondun Aparatının inzibati binasında Tender komissiyasının iştirakı ilə aparılacaqdır. Açılışda iddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

# Tender təklifləri üçün sorğu
## Malların Satın alınması üzrə Çərçivə Sazişi
### *(Yerli Rəqabətli Tender - 4 Lot)*

**Satınalan təşkilat:** Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi / Məşğulluğa Dəstək Layihəsi
**Ölkə:** Azərbaycan Respublikası
**Layihənin adı:** Məşğulluğa Dəstək Layihəsi
**Çərçivə Sazişinin Adı:** Aktivlərin Satın alınması
**TÜDNo.:** AZ-MLSPP-9044-FA/2-GOODS
**Kredit No.:** 9044-AZ

1. Azərbaycan Respublikasının Hökuməti Dünya Bankından Məşğulluğa Dəstək Layihəsinin həyata keçirilməsi məqsədilə maliyyə vəsaiti almışdır və bu əldə olunan vəsaitin bir hissəsini Çərçivə Sazişi əsasında Aktivlərin Satın alınması üçün Çərçivə Sazişi bu TÜD ilkin satınalma əsasında həyata keçirilərək bağlanacaq müqavilələrdən irəli gələn ödənişlərə ayırmaq niyyətindədir. Bu müqavilə üzrə Borcalan, müqavilədə akkreditiv vasitəsilə həyata keçirilməsi nəzərdə tutulan ödənişlər istisna olmaqla, Dünya Bankının İnvestisiya Layihələrinin Maliyyələşdirilməsi üzrə Ödəniş Təlimatlarında müəyyən edildiyi kimi, birbaşa ödənişin metodundan istifadə etməklə ödənişləri həyata keçirməlidir.

2. Satınalan təşkilat İlkin Satınalma prosesini Çərçivə Sazişini bağlamaq məqsədilə həyata keçirir. Satınalan təşkilat Çərçivə Sazişinə əsasən yeganə Alıcıdır. Satınalan təşkilat müvafiq Tender iştirakçılarından aktivlərin satın alınması üçün möhürlənmiş təkliflərin təqdim etməsinə dəvət edir. (Çərçivə Sazişinin müddəti ərzində miqdarlar təxminidir):

Aktivlər Qrupu - LOT 1
1 Avtomexanik xidmətləri (600 dəst)
2 Avtoelektrik xidməti (300 dəst)
3 Avtomobil təkərlərinin bərpası və təmiri xidmətləri (680 dəst)
4 Avtomatik yağlama xidmətləri (100 dəst)
5 Avtomobil təmizləmə xidmətləri (600 dəst)
6 Kiçik dəmirçi dükanı (700 dəst)
7 Avtomobil rəngləmə (140 dəst)

Aktivlər Qrupu - LOT 2
1 Kiçik foto emalatxanası (500 dəst)
2 Çap xidməti (300 dəst)
3 Telefon təmiri (200 dəst)

Aktivlər Qrupu - LOT 3
1 Broller inkubatoru (100 dəst)
2 Dönər dükanı (400 dəst)
3 Kiçik dülgər dükanı - 1 (800 dəst)
4 İstixana işi (700 dəst)
5 Döşəmə və parket cilalama xidməti (200 dəst)
6 PVC qapı və pəncərələrin istehsalı (700 dəst)
7 Çörək məmulatlarının istehsalı (1200 dəst)

Aktivlər Qrupu - LOT 4
1 Ayaqqabı təmiri və istehsalı (100 dəst)
2 Kişi bərbərxanası (800 dəst)
3 Qadın gözəllik salonu (1000 dəst)
4 Kiçik dərzi dükanı (1200 dəst)
5 Aqroturizm (100 dəst)
6 Çatdırılma xidməti (200 dəst)
7 Xalça yuma xidməti (80 dəst)
8 Kombi ustası və quraşdırılması xidməti (200 dəst)
9 Su sızıntısı aşkarlama xidməti (100 dəst).

3. Bağlanacaq Çərçivə Sazişi "Yeganə İstifadəçi" olacaqdır. "Çərçivə Sazişi əsasında satınalma hüququ olan yeganə istifadəçi Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi / Məşğulluğa Dəstək Layihəsidir.

4. Çərçivə Sazişi "Bir neçə təchizatçı" ilə bağlanacaqdır.

5. Çərçivə Sazişi əsasında bağlanacaq müqavilələr Çərçivə Sazişində göstərilən İkinci Satınalma prosesi yolu ilə həyata keçiriləcəkdir. Lakin Çərçivə Sazişinin bağlanması Satınalan təşkilata, o cümlədən iştirak edən təchizatçılara, Çərçivə Sazişi əsasında bağlanacaq müqavilələr əsasında Mal almaq öhdəliyi qoymayacaqdır. Təchizatçılarla bağlanan Çərçivə Sazişi, Çərçivə Sazişi əsasında müqavilənin onlarla bağlanacağına heç bir zəmanət vermir.

6. Tender Dünya Bankının "İLM Borcalanları üçün Satınalma Qaydaları" 2016-cı il iyul, 2017-ci il noyabr və 2018-ci il avqust aylarında qəbul olunmuş ("Satınalma Qaydaları") ilə müəyyən edilmiş bir Təkliflər üçün Dəvətnamə (TÜD) istifadə edilərək Yerli Rəqabətli Tender yolu ilə aparılacaq və Satınalma Qaydalarında müəyyən olunmuş bütün uyğun İddiaçılara açıqdır.

7. İddiaçılar bir və ya daha çox "LOT" üzrə təklif verə bilərlər.

8. Çərçivə Sazişi imzalandığı tarixindən etibarən 2 il müddətinə bağlanacaq və qənaətbəxş olması şərtilə, illik əsasda ən çox iki (2) il əlavə müddətə uzadıla bilər. (Müddət + 1 + 1)

9. İlkin satınalma prosesi ilə Qapalı Çərçivə Sazişi(ləri) quracaqdır.

10. Maraqli olan İddiaçılar əlavə məlumatı Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi / Məşğulluğa Dəstək Layihəsinin Layihə Koordinatoru Fəqan Əsgərovdan fagan.asgarov@esp.az mail ünvanına müraciət etməklə əldə edə bilər və iş saatları (09:00 - 17:00) ərzində sənədləri nəzərdən keçirə bilərlər.

11. Maraqlı olan İddiaçılar tender sənədlərinin ingilis dilindəki tam toplusunu aşağıda göstərilən ünvana məktub təqdim etməklə və geri qaytarılmayan 500 AZN və ya 300 ABŞ dolları ödəməklə əldə edə bilərlər. Ödəniş birbaşa depozit və ya Əmək və Əhalinin Müdafiəsi Nazirliyi nəzdində fəaliyyət göstərən Məşğulluğa Dəstək Layihəsi, Layihə İdarəetmə Qrupunun aşağıda göstərilən hesabına köçürmə yolu ilə keçirilə bilər. Tender sənədləri kuryer vasitəsilə göndəriləcəkdir.

**ABŞ Dollar hesabı**
**Azerbaijan Republic Ministry of Labor**
**and Social Protection of Population**
**Tax ID 1700093011**
**IBAN: AZ49IBAZ38190048409330186120**
**International Bank of Azerbaijan**
**Bank code (BIC): 805250**
**Corr acc: AZ03NABZ01350100000000002944**
**SWIFT: IBAZAZ2X**

**AZN hesabı**
**Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi**
**VÖEN: 1700093011**
**IBAN: AZ93IBAZ38090029449330186120**
**Azərbaycan Beynəlxalq Bankı**
**Bank Kodu (BIC): 805250**
**M/H: AZ03NABZ01350100000000002944**
**SWIFT: IBAZAZ2X**

12. Təkliflər 25 may 2022-ci il tarixədək Bakı vaxtı ilə 15:00-dan gec olmayaraq aşağıdakı ünvana göndərilməlidir. Təkliflərin elektron şəkildə təqdim edilməsinə icazə verilmir. Gecikmiş təkliflər qəbul olunmayacaqdır. Yalnız tender sənədlərini əldə etmək üçün Satınalan təşkilata rəsmi müraciət etmiş və İddiaçı qismində qeydiyyatdan keçmiş İddiaçıların tender təklifləri qəbul ediləcəkdir. Tender təklifləri İddiaçıların təyin edilmiş nümayəndələrinin və iştirak etmək istəyən hər kəsin iştirakı ilə 25 may 2022-ci il tarixdə (Bakı vaxtı ilə 15:00) aşağıdakı ünvanda açıq şəkildə açılacaqdır.

13. Yuxarıda nəzərdə tutulan ünvan:

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi /**
**Məşğulluğa Dəstək Layihəsi**
**Fəqan Əsgərov, Layihə Koordinatoru**
**Nazim Hikmət küç., 27**
**Rich Plaza, 1-ci giriş, 2-ci mərtəbə**
**AZ1100, Bakı, Azərbaycan**
**Tel: (99412) 5253449**
E-mail: **fagan.asgarov@esp.az**

# Specific Procurement Notice (SPN)
## Request for Bids Framework Agreement(s) for Goods
### *National Bidding (4 Lots)*

**Procuring Agency:** Ministry of Labor and Social Protection of Population / Employment Support Project
**Country:** The Republic of Azerbaijan
**Name of Project:** Employment Support Project
**Framework Agreement Title:** Procurement of Assets
**RFB Reference No.:** AZ-MLSPP-9044-FA/2-GOODS
**Loan No.:** 9044-AZ

1. The Government of the Azerbaijan Republic has received financing from the World Bank toward the cost of the Employment Support Project, and intends to apply part of the proceeds toward payments under Call-off Contracts that may be awarded under the Framework Agreement (FA) for Procurement of Assets concluded through this RFB Primary Procurement process. For this contract, the Borrower shall process the payments using the Direct Payment disbursement method, as defined in the World Bank's Disbursement Guidelines for Investment Project Financing, except for those payments, which the contract provides to be made through letter of credit.

2. The Procuring Agency is undertaking the Primary Procurement with a view to concluding a Framework Agreement. The Procuring Agency is the sole Purchaser under the Framework Agreement. The Procuring Agency now invites sealed Bids from eligible Bidders for Procurement of Assets as per following list and Lots (Quantities are estimates for during the term of Framework Agreement):

Assets Group - Lot 1
1 Auto mechanic services (700 sets)
2 Auto electric services (300 sets)
3 Car tire restoration and repair services (740 sets)
4 Auto lubrication services (100 sets)
5 Car cleaning services (700 sets)
6 Small blacksmith shop (700 sets)
7 Car painter (140 sets)

Assets Group - Lot 2
1 Small photo workshop (580 sets)
2 Printing service (300 sets)
3 Phone repair (200 sets)

Assets Group - Lot 3
1 Broiler incubator (100 sets)
2 Doner shop (400 sets)
3 Small carpenter's shop - 1 (800 sets)
4 Greenhouse business (6 sets)
5 Floor and parquet polishing service (200 sets)
6 Manufacture of PVC doors and windows (760 sets)
7 Production of bakery products (1300 sets)

Assets Group - Lot 4
1 Shoe repair and production (100 sets)
2 Men's barber shop (800 sets)
3 Women's beauty salon (1400 sets)
4 Small tailor's shop (1200 sets)
5 Agrotourism (100 sets)
6 Delivery service (200 sets)
7 Carpet washing service (10 sets)
8 Combi master and WC area installation service (200 sets)
9 Water leak detection service (100 sets)

3. The Framework Agreement to be concluded will be "Single-User. The Single-User entitled to purchase under the Framework Agreement is Ministry of Labor and Social Protection of Population / Employment Support Project.

4. The Framework Agreement to be concluded will be "Multi-Supplier."

5. The selection of FA Suppliers to be awarded a Call-off Contract will be done through a Secondary Procurement process as defined in Framework Agreement. However, the conclusion of a Framework Agreement shall not impose any obligation on the Procuring Agency, including participating Purchasers, to purchase Goods under a Call-off Contract. The conclusion Framework Agreement does not guarantee that a FA Supplier will be awarded a Call-off Contract.

6. Bidding will be conducted through National Competitive Procurement using a Request for Bids (RFB) as specified in the World Bank's "Procurement Regulations for IPF Borrowers" July 2016, Revised November 2017 and August 2018 ("Procurement Regulations"),and is open to all eligible Bidders as defined in the Procurement Regulations.

7. Bidders may submit Bids for one or more "lots".

8. The Framework Agreement shall be concluded for a Term of 2 years from the commencement date stated in the Framework Agreement, and may be extended subject to satisfactory performance, for a maximum of up to two (2) additional years on yearly basis (i.e Terms +1 +1).

9. The Primary Procurement shall establish a Closed Framework Agreement(s).

10. Interested eligible Bidders may obtain further information from Ministry of Labor and Social Protection of Population / Employment Support Project, fagan.asgarov@esp.az, Attn: Fagan Asgarov, Project Coordinator and inspect the Bidding document during office hours (09:00 am to 17:00 am) at the address or link given below.

11. The Bidding document in English may be purchased by interested Bidders upon the submission of a written application to the address below and upon payment of a nonrefundable fee of 500 AZN or 300 USD. The method of payment will be direct deposit or wire transfer to the below account in favor of the Ministry of Labor and Social Protection of Population / Employment Support Project. The document will be sent by courier.

**USD ACCOUNT**
**Azerbaijan Republic Ministry of Labor and Social Protection of Population**
**Tax ID 1700093011**
**IBAN: AZ49IBAZ38190048409330186120**
**International Bank of Azerbaijan**
**Baku Branch**
**Bank code (BIC): 805250**
**Corr acc: AZ03NABZ01350100000000002944**
**SWIFT: IBAZAZ2X**

**AZN ACCOUNT**
**Azerbaijan Republic Ministry of Labor and Social Protection of Population**
**Tax ID 1700093011**
**IBAN: AZ93IBAZ38090029449330186120**
**International Bank of Azerbaijan**
**Baku Branch**
**Bank code (BIC): 805250**
**Corr acc: AZ03NABZ01350100000000002944**
**SWIFT: IBAZAZ2X**

12. Bids must be delivered to the address below on or before 25 May, 2022 (15:00 pm local Baku time). Electronic Bidding will not be permitted. Late Bids will be rejected. Only the bids of applied to the Procuring Agency and officially registered Bidders will be accepted. Bids will be publicly opened in the presence of the Bidders' designated representatives and anyone who chooses to attend, at the address below on 25 May, 2022 (15:00 pm local Baku time).

13. The address(es) referred to above is:

**Ministry of Labor and Social Protection of Population / Employment Support Project**
**Mr. Fagan Asgarov, Project Coordinator**
**27, Nazim Hikmet str.,**
**Rich Plaza, 1st entrance, 2nd floor**
**AZ1100, Baku, Azerbaijan**
**Tel: (99412) 5253449**
E-mail: **fagan.asgarov@esp.az**

# İqtisadiyyat Nazirliyinin İqtisadi Elmi-Tədqiqat İnstitutu 2022-ci il üçün doktorantura və dissertantura proqramlarına qəbul elan edir

İqtisadiyyat Nazirliyinin İqtisadi Elmi Tədqiqat İnstitutu Nazirlər Kabinetinin 5 mart 2022-ci il tarixli 140s nömrəli sərəncamı ilə təsdiq olunmuş "Azərbaycan Respublikasının ali təhsil müəssisələrinin, elmi müəssisə və təşkilatların 2022-ci il üçün doktorant və dissertant hazırlığı üzrə qəbul planları"na əsasən, 2022-ci il üçün fəlsəfə doktoru hazırlığı üzrə doktorantura (əyani və qiyabi) və dissertanturaya, elmlər doktoru hazırlığı üzrə isə dissertanturaya qəbul elan edir.

Sənədlər **21 aprel - 16 may 2022-ci il** tarixlərində İqtisadiyyat Nazirliyinin İqtisadi Elmi Tədqiqat İnstitutunun Elmi katibliyinə saat 11:00-dan 17:00-dək (şənbə, bazar və bayram günləri istisna olmaqla) şəxsən təqdim edilməlidir.

Qəbul 12 ixtisas üzrə keçiriləcəkdir:
- 5301.01 - Daxili fiskal siyasət və dövlət maliyyəsi;
- 5302.01 - Ekonometriya; iqtisadi statistika;
- 5303.01 - Mühasibat uçotu;
- 5304.01 - İqtisadi fəaliyyət növləri;
- 5306.01 - Texnoloji innovasiyalar iqtisadiyyatı;
- 5307.01 - İqtisadi nəzəriyyə;
- 5308.01 - Ümumi iqtisadiyyat;
- 5309.01 - Sənayenin təşkili və dövlət siyasəti;
- 5310.01 - Dünya iqtisadiyyatı;
- 5311.01 - Müəssisələrin təşkili və idarə olunması;
- 5312.01 - Sahə iqtisadiyyatı;
- 5313.01 - Demoqrafiya.

**Fəlsəfə doktoru proqramı üzrə doktoranturaya** (əyani və qiyabi) ali təhsil pilləsinin magistratura səviyyəsini bitirən (magistr dissertasiyasını müdafiə edən), yaxud təhsili ona bərabər tutulan Azərbaycan Respublikasının vətəndaşları müsabiqə əsasında qəbul olunurlar.

Doktoranturanın (keçmiş aspiranturanın) tam kursunu bitirmiş şəxs eyni ixtisas üzrə təkrarən doktoranturaya qəbul oluna bilməz.

Doktoranturaya qəbul olmaq istəyənlər xarici dildən (ingilis, fransız, alman dillərindən biri), fəlsəfədən və ixtisas fənnindən ali təhsil pilləsinin magistratura səviyyəsi üçün qüvvədə olan tədris proqramları həcmində qəbul imtahanları verirlər.

Xarici dil üzrə imtahan Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi tərəfindən keçirilir. Xarici dil üzrə qüvvədə olan beynəlxalq dil sertifikatına (IELTS, TOEFL, TestDaF, DELF, DALF, STANAG) malik olanlar xarici dil üzrə qəbul imtahanından azad olunurlar. Beynəlxalq dil sertifikatının imtahan nəticələrinin keçid balına ekvivalentliyi DİM tərəfindən müəyyənləşdirilir.

Xarici dildən imtahanda iştirak etməyənlər və ya keçid balını toplamayanlar fəlsəfə üzrə imtahana, fəlsəfə üzrə imtahanda iştirak etməyənlər ixtisas fənnindən imtahana buraxılmırlar.

**Fəlsəfə doktoru proqramı üzrə dissertanturaya** ali təhsil pilləsinin magistratura səviyyəsini bitirən (magistr dissertasiyasını müdafiə edən), yaxud təhsili ona bərabər tutulan, müvafiq tədqiqat sahəsində müəyyən müvəffəqiyyətləri olan və əsas iş yeri ali təhsil müəssisəsi, elmi müəssisə və təşkilat olan, azı iki il elmi və ya elmi-pedaqoji iş stajına malik elmi və elmi-pedaqoji kadrlar sənəd təqdim edə bilərlər.

Bu yolla fəlsəfə doktoru elmi dərəcəsi almaq istəyən şəxslər xarici dildən (ingilis, fransız, alman dillərindən biri) ali təhsil pilləsinin magistratura səviyyəsi üçün qüvvədə olan tədris proqramları həcmində Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzində imtahan verirlər. Xarici dil üzrə qüvvədə olan beynəlxalq dil sertifikatına (IELTS, TOEFL, TestDaF, DELF, DALF, STANAG) malik olanlar xarici dil üzrə qəbul imtahanından azad olunurlar. Beynəlxalq dil sertifikatının imtahan nəticələrinin keçid balına ekvivalentliyi DİM tərəfindən müəyyənləşdirilir.

**Elmlər doktoru proqramı üzrə dissertanturaya daxil olmaq istəyənlər üçün** fəlsəfə doktoru elmi dərəcəsinin olması əsas şərtdir.

**Tələb olunan sənədlər:**

**Fəlsəfə doktoru və elmlər doktoru elmi dərəcələri üzrə**
- *ərizə (Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin İqtisadi Elmi Tədqiqat İnstitutunun direktorunun adına);*
- *kadrların şəxsi-qeydiyyat vərəqi (iş yerində imzalanmış və möhürlənmiş);*
- *tərcümeyi-hal;*
- *4 ədəd fotoşəkil (3x4 sm ölçüdə);*
- *ali təhsil müəssisəsini bitirmək haqqında diplomlar və diplomlara əlavələrin notarial qaydada təsdiq edilmiş surətləri (əsli şəxsən təqdim edilir) (xarici ölkələrdə təhsil almış Azərbaycan Respublikasının vətəndaşları üçün təhsil haqqında sənədlərin tanınması haqqında şəhadətnamənin notarial qaydada təsdiq edilmiş surəti (əsli şəxsən təqdim edilir);*
- *şəxsiyyəti təsdiq edən sənədin surəti (əsli şəxsən təqdim edilir).*

**Əlavə olaraq**

**Doktoranturada fəlsəfə doktoru elmi dərəcəsi almaq istəyənlər üçün:**
- *namizədin xarici dildən imtahanda keçid balını (minimal 25 bal) topladığını təsdiq edən sənəd;*
- *çap olunmuş elmi işlərin siyahısı və ya seçilmiş ixtisas üzrə referat;*
- *iş yerindən xasiyyətnamə və əmək kitabçasından (sonuncu iş yerindən) təsdiq edilmiş çıxarış (iş stajı olanlar üçün).*

**İqtisadi Elmi Tədqiqat İnstitutunun 2022-ci il üçün doktorant və dissertant hazırlığı üzrə qəbul planı**

| İxtisas | Fəlsəfə doktoru proqramı üzrə | | | | | | | | Elmlər doktoru proqramı üzrə | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | doktorantura | | | | | dissertantura | | | dissertantura | | |
| | cəmi | büdcə hesabına | | ödənişli əsaslarla | | cəmi | büdcə hesabına | ödənişli əsaslarla | cəmi | büdcə hesabına | ödənişli əsaslarla |
| | | əyani | qiyabi | əyani | qiyabi | | | | | | |
| *5301.01 - Daxili fiskal siyasət və dövlət maliyyəsi* | 2 | | 1 | | 1 | 2 | 1 | 1 | 1 | | 1 |
| *5302.01 - Ekonometriya; iqtisadi statistika* | 2 | | 1 | | 1 | 1 | | 1 | 1 | | 1 |
| *5303.01 - Mühasibat uçotu* | 1 | | | | 1 | 1 | | 1 | | | |
| *5304.01 - İqtisadi fəaliyyət növləri* | 2 | | 1 | | 1 | 1 | | 1 | | | |
| *5306.01 - Texnoloji innovasiyalar iqtisadiyyatı* | 2 | | 1 | | 1 | 1 | 1 | | 1 | | 1 |
| *5307.01 - İqtisadi nəzəriyyə* | 1 | | | | 1 | 1 | | 1 | | | |
| *5308.01 - Ümumi iqtisadiyyat* | 2 | | 1 | | 1 | | | | 1 | 1 | |
| *5309.01 - Sənayenin təşkili və dövlət siyasəti* | 1 | | 1 | | | 1 | | 1 | | | |
| *5310.01 - Dünya iqtisadiyyatı* | 2 | | 1 | | 1 | 1 | | 1 | | | |
| *5311.01 - Müəssisələrin təşkili və idarə olunması* | 1 | | | | 1 | 1 | | 1 | | | |
| *5312.01 - Sahə iqtisadiyyatı* | 1 | | | | 1 | 1 | 1 | | | | |
| *5313.01 - Demoqrafiya* | 1 | | | | 1 | | | | | | |
| Yekun | 18 | | 7 | | 11 | 11 | 3 | 8 | 4 | 1 | 3 |

**Dissertantlıq yolu ilə fəlsəfə doktoru elmi dərəcəsi almaq istəyənlər üçün:**
- *namizədin xarici dildən imtahanda keçid balını (minimal 25 bal) topladığını təsdiq edən sənəd;*
- *çap olunmuş elmi işlərin siyahısı və ya seçilmiş ixtisas üzrə referat;*
- *iş yerindən xasiyyətnamə;*
- *əmək kitabçasından çıxarış.*

**Dissertantlıq yolu ilə elmlər doktoru elmi dərəcəsi almaq istəyənlər üçün:**
- *fəlsəfə doktoru (elmlər namizədi) diplomunun müvafiq qaydada təsdiq edilmiş surəti;*
- *çap olunmuş elmi əsərlərin siyahısı (elmi işin adı, çap olunma tarixi, nəşr edildiyi jurnal/konfrans və s. göstərilməklə);*
- *iş yerindən xasiyyətnamə;*
- *əmək kitabçasından çıxarış.*

Qeyd edək ki, doktoranturaya qəbulla əlaqədar keçirilən müsabiqədə imtahanlardan eyni bal toplamış iddiaçılar arasından bakalavriat və magistratura üzrə yüksək GPA (Grade Points Average - orta qiymət balları) bala malik, ilkin elmi mövzularının aktuallığı nəzərə alınmaqla tədqiqat və analitika qabiliyyəti və təcrübəsi olan, xarici dili (dilləri) yaxşı səviyyədə bilən şəxslərə üstünlük veriləcəkdir.

İnstitutun doktorant və dissertantı adını qazanacaq, potensial baxımdan layiqli namizədlərə müvafiq qanun çərçivəsində institutun gələcək strukturunda əmək fəaliyyətinə cəlb edilmə imkanı yaradılacaqdır.

Əcnəbilərin və ya vətəndaşlığı olmayan şəxslərin doktoranturaya qəbulu Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə, Azərbaycan Respublikasının "Elm haqqında" və "Təhsil haqqında" qanunlarına uyğun olaraq, habelə elmi müəssisə ilə əcnəbi və ya vətəndaşlığı olmayan şəxs arasında bağlanılan müqavilə ilə həyata keçirilir. Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin doktoranturada və dissertantlıq yolu ilə təhsili ödənişli əsaslarla aparılır.

Xarici dövlətlərdə təhsil almış əcnəbilər və vətəndaşlığı olmayan şəxslər üçün ali təhsil haqqında diplomun notarial qaydada təsdiq edilmiş surəti və diplomun tanınması haqqında şəhadətnamə təqdim edilməlidir.

Əlavə məlumat üçün İqtisadi Elmi Tədqiqat İnstitutunun Elmi katibliyinə müraciət edə bilərsiniz.

**Əlaqələndirici şəxs: Təranə Salıfova**
**Telefonlar: (+99412) 431 60 04 (daxili: 36 13); (+99412) 430 01 70;**
**Mobil: (+99450) 443 48 33;**
**E-mail ünvanı: tarana.salifova@economy.gov.az**
**Təhsilini daha yüksək pillədə davam etdirmək istəyən hər kəsə uğurlar diləyirik!**

## "Türkiyə və Azərbaycan İş Adamları və Sənayeçiləri İctimai Birliyi (TÜİB)" üzvlərinin nəzərinə!

"Türkiyə və Azərbaycan İş Adamları və Sənayeçiləri İctimai Birliyi (TÜİB)"-in növbəti dönəm seçkili ümumi yığıncağı keçiriləcək.

İclas 14 may 2022-ci il, şənbə günü, saat 10:00-da Bakı şəhəri, Xətai rayonu, Xəqani Rüstəmov küçəsi 4c ünvanında yerləşən "Baku Marriott Hotel Boulevard" Hotelində təşkil olunacaq.

**İclasın gündəliyi:**
1. İllik hesabat.
2. TÜİB 5. Dönəm İdarə Heyəti ilə Nəzarət və Təftiş Komisiyasının seçilməsi.
3. Nizamnaməyə dəyişiklik.
4. Cari məsələlərin müzakirəsi.

***Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi tərəfindən "Həsənoğlu Logistika" MMC-yə verilmiş 00632 nömrəli "BNF" icazə kitabçası itdiyi üçün etibarsız sayılır.***

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Baş Prokurorluğunun rəhbərliyi və kollektivi prokurorluqda İstintaqa nəzarət idarəsinin rəisi Fazil Həsənəliyevə qardaşı

**ATAXAN MÜƏLLİMİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar
Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 539-72-39,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1
"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-də çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet
Tiraj 5737
Sifariş 1079
Qiyməti 40 qəpik